LÜĞƏT VƏ ENSİKLOPEDİYALAR

# AZƏRBAYCAN DİLİNİN

# SİNONİMLƏR LÜĞƏTİ

A-Z

ŞƏRQ-QƏRB

BAKI 2007

Tərtib edəni: **Nəriman Seyidəliyev**
*filologiya elmləri namizədi*

Redaktoru: **İsmayıl Məmmədov**
*filologiya elmləri doktoru, professor*

**ISBN 978-9952-34-109-6**

**494.36131-dc22**
Azərbaycan dili – Sinonimlər – Lüğətlər

**Azərbaycan dilinin sinonimlər lüğəti**
Bakı, "Şərq-Qərb", 2007, 424 səh.

Lüğətdə 11 minə qədər eyni və yaxın mənaları əks etdirən sinonim söz və ifadə verilmişdir ki, bunlardan 4 mini dominant sözdür. Sinonimlər lüğətinin tərtibində ədəbi dilimizin öz lüğət fondundan, başqa dillərdən alınmalardan, danışıqda işlənən sözlərdən, o cümlədən məhəlli və dialekt sözlərindən və bəzi terminlərdən istifadə edilmişdir. Sinonim sözlərin əksəriyyəti Azərbaycan yazıçılarının əsərlərindən götürülmüş nümunələrdə öz əksini tapmışdır.

© "Şərq-Qərb", 2007

## ÖN SÖZ

Sinonimlik geniş anlayışdır və dilçiliyin bir sıra bölmələrində – leksikologiyada, üslubiyyatda, semasiologiyada və s.-də tədqiq olunur. Sinonimlər dilin lüğət tərkibini zənginləşdirməklə digər dil vahidlərinin bir-birinə yaxın variantlarını reallaşdıran, semasiologiyada isə yaxın, incə məna çalarları yaradan, eyni zamanda sözün semantik nüvəsinin parçalanması və genişlənməsi prosesinə xidmət edən bir vasitə kimi öyrənilir.

Sinonimlər dil vahidi kimi dilimizin məna zənginliyini əks etdirir. İstər ana dilimizdə, istərsə də əcnəbi dillərdə sinonimlərin xidməti həmin dillərin bilavasitə fəaliyyətini aktivləşdirir.

Sinonimlər leksik-semantik kateqoriya olub: a) danışıq dilini zənginləşdirir; b) dili incələşdirir; c) mənanı qüvvətləndirir; ç) dildə emosiya yaradır; d) nitq mədəniyyətində həlledici rol oynayır; e) fikri ifadə etmək üçün onu daha da aydınlaşdıraraq dəqiqləşdirir; ə) yersiz təkrarın qarşısını alır; f) təsirliliyi artırır və s.

Dilimizdə işlənən bütün sinonimlər məna və üslubca da fərqlənirlər. Hər bir sinonim söz müəyyən məna çalarlarına malikdir. Bəzi sözlər eyni məfhumu ifadə edir, bəziləri isə eyni məfhumları deyil, bir-birinə yaxın mənanı bildirir: *ayrılıq – hicran – fəraq, qış – zimistan, yaz – bahar, eynək – gözlük – çeşmək* və s. kimi sinonim sözlər eyni məfhumu ifadə etdiyi halda, *külək – meh – yel, baş – kəllə – qafa, soyuq – şaxta, nəm – sulu – höyüş – yaş* və s. bu kimi sinonimlər bir-birinə yaxın mənaları ifadə edirlər.

Məhz dildə işlənən bütün sinonim sözlər məna və üslubca bir-birindən fərqləndiyinə görə iki qrupa bölünür: 1) ideoqrafik sinonimlər (yəni semantik sinonimlər); 2) üslubi sinonimlər.

İdeoqrafik sinonimlərin işlədilməsində məqsəd dildə fikri dəqiq ifadə etməkdir. Onlar aşağıdakı mənaları ifadə edirlər: a) ifadənin əlamət dərəcəsini; b) sözlərin geniş, yaxud dar mənada işlənməsini; c) mücərrədliyi, yaxud konkretliyi və s.

Üslubi sinonimlər digər sinonimlərdən yalnız öz üslubi xüsusiyyətlərinə görə fərqlənir. Məsələn, *üz – çöhrə – sima – rüxsar – camal, hədiyyə – ərməğan – peşkəş – töhfə* sinonim cərgələrin birinci tərəfi üslubi neytral, sonrakı sözlər isə müxtəlif üslubi yaradıcılıqla bağlıdır. *Üz, sima, çöhrə* sözləri ədəbi dildə və danışıqda işləndiyi halda, *rüxsar* və *camal* sözləri isə yalnız poetik üslubda işlənir. *Ərməğan, peşkəş* və *töhfə* sözləri də üslubi söz kimi ədəbi dildə işlənir.

Ümumiyyətlə, üslubi sinonimlər dilçilikdə aşağıdakı kimi qruplaşdırılır: a) üslubi çalarlarına görə müxtəlif sözlər: – hamı tərəfindən işlədilən sözlər, ədəbi dil, danışıq dili, loru sözlər, yaxud da vulqarizmlər; b) dilin tarixən mövcud olduğu vaxtdan müxtəlif əlaqələrdə olan sözlər: köhnə və yeni sözlər; c) ümumxalq danışıq dilində

və dialektlərdə olan sözlər, sənət-peşə ilə əlaqədar olan sözlər, jarqon sözlər; ç) əmələ gəlməsinə görə müxtəlif sözlər: ərəb, fars, rus, Avropa və başqa dillərdən alınma sözlər; d) əşyanın ifadə etdiyi həqiqi mənalı sözlər və evfemizmlər; e) söz və frazeologizm.

Lüğətdə sinonim sözlərin bir-birinə daha yaxın və eyni məna kəsb etməsini dəqiq göstərmək üçün hər bir sözə aid misallar verilmişdir. Nümunələr İ.Nəsimidən başlamış müasir dövrə qədər – 150-yə yaxın şair və yazıçının əsərlərindən, atalar sözlərindən, aşıq yaradıcılığından, qəzet və jurnallardan, bəziləri isə dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti"ndən götürülmüşdür. Lakin bununla bərabər, bəzi sözlərə aid nümunələr verməyə ehtiyac duyulmadı.

Azərbaycan dilindəki sinonimlər müxtəlif sahələrdə işlənir və hər bir sözün məna çalarları vardır: coğrafi adlar bildirən sinonimlər; bitki adları bildirən sinonimlər; heyvan adları bildirən sinonimlər; quş adları bildirən sinonimlər; yemək adları bildirən sinonimlər; meyvə-tərəvəz adları bildirən sinonimlər; əşya adları bildirən sinonimlər; rəng adları bildirən sinonimlər; iş-hərəkət bildirən sinonimlər; əlamət və keyfiyyətə görə əmələ gələn sinonimlər; yaraq-əsləhə və alət adları bildirən sinonimlər; bədən üzvləri bildirən sinonimlər; dini ayinlə bağlı əmələ gələn sinonimlər; geyim adları bildirən sinonimlər; adət-ənənə adları bildirən sinonimlər; zaman və məkanla əlaqədar olan sinonimlər; planet adları ilə əlaqədar olan sinonimlər və s.

Bütün bunlarla yanaşı, lüğətdə aşağıdakı hallar da öz əksini tapmışdır: a) çoxmənalılıq yolu ilə əmələ gələn sinonimlər; b) alınma sözlər və terminlər vasitəsilə əmələ gələn sinonimlər; c) evfemizmlə əlaqədar düzələn sinonimlər; ç) məcazi məna bildirən sinonimlər; d) emosional-ekspressiv sözlərdən ibarət sinonimlər; e) arxaizmlə düzələn sinonimlər; ə) omonimlərdən ibarət olan sinonimlər; f) müxtəlif qrup sözlərdən yaranan sinonimlər və s.



## LÜĞƏTİN QURULUŞU

1. Lüğətdə verilmiş sözlər əlifba sırası ilə düzülmüşdür.

2. Lüğətdə çox işlənən sözlər daha geniş yer tutur.

3. Sözlər tək şəkildə verilmişdir.

4. Baş sözlər (dominant) əsas götürülmüşdür.

5. Lüğətdə həm əsli, həm də nisbi sinonimlər əhatə olunmuşdur.

6. Lüğət tərtib olunarkən ədəbi dildə işlənən sözlərdən, alınma sözlərdən, danışıq dilində işlənən sözlərdən, məhəlli və dialekt sözlərdən və s. istifadə olunmuşdur.

7. Qeyri-əsas söz dominant sözə *bax* ilə yönəldilir:
**zülf** *bax* saç
**bürkü** *bax* isti

8. Çoxmənalı sözlərin sinonimliyində 1-ci və yaxud 2-ci məna əsas götürülərsə, digər mənalar uyğun gəldiyi əsas sözə yönəldilir:
1. **KÖK, YOĞUN, DOLUBƏDƏNLİ, DOLĞUN**
2. **kök** *bax* rişə
1. **KÖLGƏ, SAYƏ, KÖLGƏLİK**
2. **kölgə** *bax* kabus, xəyal

9. Lüğətdə verilmiş sözlərin qarşısında mötərizədə həmin sözün işlənmə sahəsi göstərilir:
**ANA, CİCİ** (*dial.*), **MADƏR** (*arx.*)
**ARVAD, ÖVRƏT** (*köhn.*), **ZÖVCƏ** (*köhn.*)
**GÖZƏL, DİLBƏR** (*kl.əd., şair.*) və s.

10. Lüğətdə sözlərin yalnız müstəqil mənaları deyil, bəzilərinin məcazi mənaları da verilmişdir; bəzi sözlərin isə yalnız məcazi mənaları göstərilmişdir:
**HİYLƏGƏR, TÜLKÜ** (*məc.*)
**İGİD, QOÇ** (*məc.*), **DƏLİ** (*məc.*)
**acılıq** (*məc.*) *bax* fəlakət və s.

11. Sözlərin şəkilçi ilə işlənən variantlarında şəkilçi mötərizə içərisinə alınmışdır:
**ALÇAQBOY(LU), BƏSTƏBOY(LU)**

12. Əsas söz kimi götürülməyən çoxmənalı və omonim sözlərin mənası sinonimik cərgə təşkil edən dominant sözə yönəldilir:

1. **çalmaq** *bax* oğurlamaq
2. **çalmaq** *bax* biçmək

I **sərf** *bax* xərc
II **sərf** *bax* morfologiya

13. Çoxmənalı sözlərin bütün mənası deyil, ən çox işlənən bir, bəzən də iki, üç... mənası götürülmüşdür.

14. İrihəcmli cümlələr tam yazılmayaraq orada olan ixtisarlar iki nöqtə [..] ilə əvəz edilmişdir.

15. Klassik ədəbiyyatda işlənən sözlər də əsas sözə sinonim kimi verilmişdir.

16. Sinonimik rabitə yalnız sözlərdə deyil, sözlər və frazeoloji vahidlər arasında da mövcuddur:

**AĞLAMAQ, GÖZ YAŞI AXITMAQ/TÖKMƏK**
**ÖLMƏK, CANINI TAPŞIRMAQ, ÖMRÜNÜ BİTİRMƏK**

17. Sinonimləri daha dəqiq anlayışda izah etmək üçün hər bir söz bədii ədəbiyyatdan götürülmüş sitatlarda verilmişdir.

18. Omonim sözlər bir qayda olaraq ayrı-ayrılıqda Roma rəqəmləri ilə göstərilir:

**I KÖK, YOĞUN**
**II KÖK, YERKÖKÜ**

19. Sinonimlər öz cərgələrində böyük hərflərlə verilməklə bir-birindən vergül [,], nümunələrdə nöqtəli vergül [;] vasitəsi ilə ayrılır.

20. Sözlərin aid olduğu sinonim cərgəyə yönəldilməsi "*bax*" sözündən sonra verilmiş rəqəmlərdə göstərilir:

**aralanmaq** *bax* ayrılmaq 1
**dolğun** *bax* kök I

21. Bəzi sözlərin hansı termin sahəsinə aid olduğu mötərizədə verilir:

**VƏBA** (*tib.*) ...
**TƏKƏR** (*tex.*) ... və s.



## LÜĞƏTDƏ GEDƏN İXTİSARLAR

*ADDL* – Azərbaycan dilinin dialektoloji lüğəti
*ADİL* – Azərbaycan dilinin izahlı lüğəti
*arx.* – arxaik söz
*astr.* – astronomiya
*Ata. sözü* – atalar sözü
*biol.* – biologiyada
*bot.* – botanikada
*coğr.* – coğrafiyada
*dan.* – danışıqda işlənən söz
*dəniz.* – dənizçilikdə
*dial.* – dialektdə
*dilç.* – dilçilikdə
*din.* – dini söz
*etn.* – etnoqrafiyada
*evf.* – evfemizm
*ədəb.* – ədəbiyyatşünaslıqda
*fəls.* – fəlsəfədə
*fiziol.* – fiziologiyada
*fiz.* – fizikada
*folk.* – folklorda
*fr.v.* – frazeoloji vahid
*hüq.* – hüquqşünaslıqda
*idm.* – idmanda
*iqt.* – iqtisadiyyatda
*isteh.* – istehza ilə işlənir
*kl.əd.* – klassik ədəbiyyatda işlənən söz
*köhn.* – köhnəlmiş söz
*k.t.* – kənd təsərrüfatında
*qəd.* – qədim söz
*qram.* – qrammatikada
*məc.* – məcazi mənada
*məh.* – məhəlli söz
*mətb.* – mətbəədə
*mus.* – musiqidə
*nifr.* – nifrətlə
*riyaz.* – riyaziyyatda
*şair.* – şairanə
*tar.* – tarixdə
*tex.* – texnikada
*tənt.* – təntənəli söz
*təşb.* – təşbehlərdə
*tib.* – tibdə
*vulq.* – vulqar söz
*zar.* – zarafatla
*zool.* – zoologiyada

## AZƏRBAYCAN ƏLİFBASI

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| A<br>*a* | B<br>*be* | C<br>*ce* | Ç<br>*çe* | D<br>*de* | E<br>*e* | Ə<br>*ə* | F<br>*fe* |
| G<br>*ge* | Ğ<br>*ğe* | H<br>*he* | X<br>*xe* | I<br>*ı* | İ<br>*i* | J<br>*je* | K<br>*ke, ka* |
| Q<br>*qe* | L<br>*el* | M<br>*em* | N<br>*en* | O<br>*o* | Ö<br>*ö* | P<br>*pe* | R<br>*er* |
| S<br>*se* | Ş<br>*şe* | T<br>*te* | U<br>*u* | Ü<br>*ü* | V<br>*ve* | Y<br>*ye* | Z<br>*ze* |





# Aa

**ab** *bax* su

**I ABA** (*müsəlman ruhanilərinin üstdən geydikləri qolsuz və ya gödəkqollu, yaxası açıq uzun paltar, xalat*) ..üçüncü günü Molla Rəcəbi küçə ilə qəyət qəmgin və ayaqları *abasının* ətəyinə dolaşa-dolaşa gedən görərsən (Talıblı); **LƏBBADƏ** (*köhn.*) [Axund] qara keçə *ləbbadəsini* ehmalca çiyninə salıb, dəhlizə çıxdı (Mir Cəlal).

**II aba** *bax* ata-baba

**ABAD** (*həmişə tikintisi, yaşayış üçün hər şeyi olan*) Şuşanın "Hamamqabağı" küçəsi öz-özlüyündə, enli və *abad* küçələrdən hesab edilirdi (B.Bayramov); **ABADAN** *Abadan* mədənləri, işsiz qalan fəhlələr, Qolları, ayaqları zəncirli dustaq İran (M.Rahim); **MƏMUR** (*kl.əd.*) Cümlə *məmur* oldu viranə (M.Ə.Sabir).

**abadan** *bax* abad

**abadanlaşmaq** *bax* abadlaşmaq

**abadanlıq** *bax* **1.** abadlıq; **2.** avadanlıq

**abadıstan** *bax* abadlıq

**ABADLAŞDIRMAQ** O, iş başına gələli xeyli təzə bina tikdirib küçələri *abadlaşdırıb* (M.Hüseyn); **ABAD ETMƏK/ELƏMƏK** Amma burada işlər tərsinədir, yuxarıdan aşağı *abad edirlər* (Ə.Haqverdiyev); **ABADANLAŞDIRMAQ.**

**ABADLAŞMAQ** .Qəsəbə salınacaq, bu yerlər *abadlaşacaq*, yol çəkiləcək.. (B.Bayramov); **ABAD OLMAQ** May ayının birindən sentyabrın ortasınadək şəhər şənlik və *abad olur* (Ə.Haqverdiyev); **MƏMUR OLMAQ** (*kl.əd.*) Qoy cahan elm ilə pürnur olsun; Vətən o sayədə *məmur olsun* (A.Səhhət); **ABADANLAŞMAQ.**

**ABADLIQ** (*müxtəlif mənalarda: kənd, şəhər, məskən, şənlik, yaşayış üçün şərait*) [Ataboy:] Sən Şimali Azərbaycan xalqının səadəti və məmləkətin *abadlığı* üçün hər nə ki istəyirsən həyata keçirmək mümkündür (M.S.Ordubadi); **ABADANLIQ** Hərə bir əl qoysa *abadanlığa*; Kəndimiz böyüyüb bir şəhər olar (S.Vurğun); **ABADISTAN** (*köhn.*).

**ABASBƏYİ, AĞAGÖRMƏZ, BALARMUDU** (*şirin, ətirli yay armudu növü*)

**ABBAT** (*din.*), **RAHİB**

**ABBATLIQ** (*din.*), **RAHİBLİK**

**abcə** *bax* pivə

**abdal** *bax* sərsəri; dərviş 1

**abdəstxana** *bax* ayaqyolu

**abgərdan** *bax* çömçə

**abgüşt** *bax* bozbaş

**ab-hava** *bax* iqlim 1

**ABI** (*rəng*) Üstünə qalın *abı* kağızdan süfrə salınmış balaca stolun qırağında elektrik çayniki paqqıldayırdı (M.Hüseyn); **AÇIQ-GÖY.**

**abır** *bax* **1.** həya; **2.** paltar

**abır-həya** *bax* həya

**abırlı** *bax* həyalı

**abırsız** *bax* həyasız

**abırsızlıq** *bax* həyasızlıq

**abi-bəqa** *bax* abi-həyat

**abid** *bax* ibadətçi

**1. ABİDƏ, YADİGAR** (*diqqətəlayiq iş, əsər*) Gərək bunun qabağı alına, saraylara yığılmış olub-qalan qiymətli şeylər, dədə-baba *yadigarlar*, əlyazmaları, digər *abidələr* buradan çıxmaya (Ə.Cəfərzadə).

**2. abidə** *bax* heykəl I

**abi-heyvan** *bax* abi-həyat

**ABİ-HƏYAT** (*kl.əd.*) (*Zülmətdə bir bulağın suyu olub ki, onu içən ölməzmiş*) Odur səni oğul kimi cəbhələrdən keçirən; Odur səni əllərilə *abi-həyat* içirən (M.Rahim); **ABİ-BƏQA** (*kl.əd.*) Bu zülməti-zülfündə ləbin – *abi-bəqamız*, Yüz çeşmeyi-heyvan ola, könlüm səni istər (S.Ə.Şirvani); **ABİ-HEYVAN** (*kl.əd.*) Əzib ləli qatıb *abi-heyvana*; Qənd ilə yoğrulub dil-dodaq çəkib (Q.Zakir); **ABİ-ZİNDƏGANİ** (*kl.əd.*) Peyvəndi gül eylə ərğəvani; Xızrə yetir *abi-zindəgani* (Füzuli); **DİRİLİK SUYU** Hər şey *dirilik suyunu* içib, ömrə ilk dəfə qədəm

**AĞLIQ** (*bir şeyin ağ rəngi*) Əvvəl gözəllərdə gərəkdir çağlıq; Ondan sonra ola sadəlik, *ağlıq* (M.P.Vaqif); **BƏYAZLIQ.**

**ağrı** *bax* **1.** sancı; **2.** qəm.

**AĞRIMAQ** (*bədənin bir yerində ağrı hiss etmək*) [Gülüş:] Sevil, nə üçün belə solğunsan, yoxsa bir yerin *ağrıyır?* (C.Cabbarlı); **GİZİLDƏMƏK** (*yorğunluqdan və s.-dən ağrımaq*) Dişin bir-birinə çarpıb dəyincə; Gömgöy ayaqların *gizildəyincə:* Bir odun parçası tapmayacaqsan (M.Müşfiq); **GÖYNƏMƏK** [Rüstəmin] qutunun üstündə uzatdığı qolu və çiyni indi bayaqkından daha artıq *göynəyirdi* (H.Abbaszadə) **ZOQQULDAMAQ** (*dan.*) (*bərk ağrımaq*) [Mürsəl] ufuldayırdı, çünki yarası *zoqquldayırdı* (Ə.Vəliyev); **SANCMAQ** (*sanki bir şey batır kimi ağrımaq*).

**AĞRITMAQ, AĞRI VERMƏK, ƏZİYYƏT VERMƏK, İNCİTMƏK** (*bax*)

**ağsaç(lı)** *bax* ağbaş(lı)

**1. AĞSAQQAL** (*müxtəlif mənalarda*) [Dekan:] Demək, sizin köhnə *ağsaqqalınız* başqa instituta keçdi (Ə.Kərim); **BAŞBİLƏN** [Tahirzadə:] Bu camaatın bir *başbiləni*, bu ölkənin bir sahibi yoxdurmu, ilahi? (Mir Cəlal); **BAŞÇI** Qazmaçı işləyən, daşçı işləyən: Bütün bu işlərə *başçı* işləyən: Bir gündə yüz günah yapdı əliniz... (M.Araz); **RƏHBƏR** [Kipiani] hiss edirdi ki, *rəhbəri* olduğu məktəbin sükanı əlinin altında ağırlaşır, onu idarə etmək getdikcə çətinləşir (İ.Şıxlı); **SÖZÜKEÇƏN** (*dan.*).

**2. ağsaqqal** *bax* çalsaqqal(lı)

**3. ağsaqqal** *bax* qoca

**ağsifət(li)** *bax* ağbəniz(li)

**ağu** *bax* zəhər

**ağulamaq** *bax* zəhərləmək

**ağulanmaq** *bax* zəhərlənmək

**ağulu** *bax* zəhərli

**ağuş** *bax* qucaq

**ağüz(lü)** *bax* ağbəniz(li)

**ağyol** *bax* kəhkəşan

**1. AĞZIBİR** (*dan.*), **SÖZÜBİR, HƏMRƏY** (*bax*)

**2. ağzıbir** *bax* həbsxana

**ağzıboş** *bax* **1.** ağzıyırtıq; **2.** naqqal

**ağzıboşluq** *bax* **1.** ağzıyırtıqlıq; **2.** naqqallıq

**ağzıdualı** *bax* dindar

**ağzıgöyçək** *bax* naqqal

**ağzıgöyçəklik** *bax* naqqallıq

**ağzıhədəli** *bax* ağzıyelli

**ağzıköpüklü** *bax* azğın **1**

**ağzıqəşəng** *bax* naqqal

**ağzıqəşənglik** *bax* naqqallıq

**AĞZIYELLİ** (*dan.*) (*yekə-yekə ağzına nə gəldi danışan*) [Gülcamal:] *Ağzıyellinin* gərək ağzının üstündən elə vurasan ki, bir də dodağını tərpədib söz deyə bilməsin (M.İbrahimov); **BAŞIYELLİ** [Sənəm:] Qanmır da, qadan alım, cavandır, *başıyellidir* (M.İbrahimov); **AĞZIHƏDƏLİ.**

**AĞZIYIRTIQ** (*sirr saxlaya bilməyən*) ..Kəlbiyev bu görüşlər zamanı Mina xanımla əylənməkdən çox, onun əri ilə maraqlanır, işi, vəziyyəti, fikri-niyyəti haqqında hərcayi və *ağzıyırtıq* arvaddan söz çəkirdi (M.İbrahimov); **AĞZIBOŞ** "O olmasın, bu olsun" musiqili komediyasında satirik osmanlı, millətçi, qoçu, *ağzıboş* ziyalı surətləri və başqa surətlər yaradılmışdır (Ü.Hacıbəyov); **BOŞBOĞAZ** Yusifzadə bütün bu söz-söhbətləri eşidəndə lovğalanır. Danışır ki, Qənbər Quliyevlə Misirxanov aciz və *boşboğaz* adamlardı (Ə.İldırımoğlu).

**AĞZIYIRTIQLIQ, AĞZIBOŞLUQ, BOŞBOĞAZLIQ**

**AĞZIYUXARI** (*yuxarıya doğru istiqamət*) [Fətəli xan] o döşdən tutmuş bu Şuşa dərələrini qoşunu ilə doldurmuşdu.. *Ağzıyuxarı* qalaya tərəf dırmaşmışdılar (Çəmənzəminli); **BAŞIYUXARI** Lado.. *başıyuxarı* Cəbrayılın evinə tərəf getməyə başladı (S.Rəhimov); **ÜZÜYUXARI** Boz ürgə çayı keçib, *üzüyuxarı* diklənməyə başladı (İ.Əfəndiyev).

**ahən** *bax* dəmir

**1. AHƏNG, UYĞUNLUQ**

**2. ahəng** *bax* səs





**3. ahəng** *bax* **1.** mahnı; melodiya **1**

**ahənrüba** *bax* maqnit

**ahəstə** *bax* yavaş

**ahəstə-ahəstə** *bax* yavaş-yavaş

**ah-fəryad** *bax* fəryad

**ahıl** *bax* qoca **1**

**ahıllaşmaq** *bax* qocalmaq

**ah-nalə** *bax* fəryad

**ahu** *bax* ceyran

**ah-zar** *bax* inilti, fəryad

**axar** *bax* səlis

**axar-baxar** *bax* **1.** mənzərə **1**; **2.** suayırıcı

**axar-baxarlı** *bax* mənzərəli

**axarlıq** *bax* səlislik

**axıcı** *bax* səlis

**axıcılıq** *bax* səlislik

**axın** *bax* **1.** cərəyan **1**; **2.** izdiham **1**

**axır** *bax* son

**axırdakı** *bax* axırıncı

**AXIRINCI** O, *axırıncı* dəfə qarını danlayıb evindən qovmuşdu (S.Rəhimov); **SONUNCU** Mən *sonuncu* dəfə bu küçə ilə nə vaxt getmişəm? – yadıma gəlmir... (Elçin); **AXIRDAKI, XATƏM** (*ən sonuncu*).

**axıtmaq** *bax* tökmək **1**

**I AXMAQ** (*müxtəlif mənalarda*), **SIZMAQ, TÖKÜLMƏK**

**II axmaq** *bax* səfeh

**AXMAQ-AXMAQ, GİC-GİC, KƏMSƏR-KƏMSƏR, SƏFEH-SƏFEH**

**axmaqlamaq** *bax* səfehləmək

**axmaqlıq** *bax* səfehlik

**AXSAQ, TAYTAQ, YEMSƏK** (*məh.*), **ÇOLAQ** (*bax*)

**AXSAMAQ** (*ayağını çəkə-çəkə yerimək*) [Vəzir:] ..Zordan mənim də ombam bərk ağrıyıb, indi *axsayıram* (M.F.Axundzadə); **TAYTAMAQ** (*dial.*) Naxırda inəyə nolufsa, yazıx heyvan *taytayır* (ADDL); **YEMSƏMƏK** (*məh.*).

**AXŞAM** [Səlimə:] *Axşam* şər qarışardı (İ.Əfəndiyev); **MƏSA** (*kl.əd.*) Mailəm, cümlə bilir, dövləti didarınə mən; Ki, baxım sübhü *məsa* şövq ilə rüxsarınə mən (M.Ə.Sabir).

**AXŞAMÇAĞI** (*günbatana yaxın vaxt*) İki gün sonra isə *axşamçağı* qapının zəngi çalındı (M.İbrahimov); **AXŞAMTƏRƏFİ** Şəhər küçəsi, *axşamtərəfi*, yağış havası.. (Ə.Haqverdiyev); **AXŞAMÜSTÜ** *Axşamüstü*, gün batar-batmaz, öz sevgilisinin görüşünə gedən bir gəncə rast gələn hər kəs, onun çiçəkləri haradan dərdiyini bilərdi (M.Hüseyn); **AXŞAMVAXTI** [Usta Səgah Mürşüdə:] *Axşamvaxtı* burada tək oturmağınızdan məqsəd nədir? (S.Rəhman).

**1. AXŞAMLAMAQ, AXŞAM OLMAQ (DÜŞMƏK), HAVA QARALMAQ** (*dan.*)

**2. axşamlamaq** *bax* gecələmək

**axşamtərəfi** *bax* axşamçağı

**axşamüstü** *bax* axşamçağı

**axşamvaxtı** *bax* axşamçağı

**axtarılmaq** *bax* aranmaq

**AXTARMAQ** Dənizlərdə inci yox, səni gəzdim üzərək; Tək səni *axtarmışam*, möhnətlərə dözərək (M.Rahim); **ARAMAQ** (*tapmağa çalışmaq*) Qartal gəlir, ov *arayır*, ağlı gedir, qanadları gərilir (B.Bayramov); **ARAŞDIRMAQ** (*yoxlayaraq axtarmaq*) Kərim bəy əlini cibinə salıb *araşdırdı* (Mir Cəlal); **GƏZMƏK** (*gəzərkən soraqlayıb tapmaq*) [Koxa:] Yenə gözlərindən yağır qəzəb, kin; De görüm, meşədə kimi *gəzirdin?* (S.Rüstəm); **ARAŞMAQ** (*qəd.*) Kimin kim eşq bağlar əl-ayağı, dəxi açılmaz; Bu müşkül mənini çox kimsədən Qövsi *araşıbdır* (Qövsi).

**AİD** (*aid olan*) [Nadir bəy:] Məncə gözəllik zövqə *aid* bir şeydir (H.Cavid); **RACE** (*arx.*) Doğrudur ki, Xaqani və Nizami kimi müqtədir şairlərimiz fars lisanında tərətdikləri bədiələr şərəfi yenə də bizlərə *racedir* (A.Şaiq); **MƏNSUB** Öz vətəninə *mənsub* olmayan şəxs insanlığa da mənsub deyildir (V.Q.Belinski); **MƏXSUS** (*bax*).

**AİDİYYƏT, MƏNSUBİYYƏT, AİDLİK, ƏLAQƏ**

**aidlik** *bax* aidiyyət

**AİLƏ** [Kərim] özünün, *ailəsinin*, dostlarının taleyini fikirləşirdi və namərd zəmanəyə lənət oxuyurdu (M.Hüseyn); **KÜLFƏT**

**BAYQUŞ** (*zool.*), **KOR YAPALAQ**

**BAYRAQ** Mən oyanıb, gördüm səhər; Gün boylanıb şəfəq yanır; Coşur-daşır bizim şəhər; Al *bayraqlar* dalğalanır (M.Seyidzadə); **ƏLƏM** Bir qədər sonra Qarabağ qapısının üstündə ağ *ələm* göründü (Çəmənzəminli); **VIMPEL** (*kiçik bayraq*) Məgər sən deyilmisən; Zöhrəyə *vimpel* taxan (R.Rza).

**bayraqçı** *bax* **bayraqdar**

**BAYRAQDAR** [Əjdər] *bayraqdar* olduğuna fərəhlənir(di).. (S.Rəhman); **BAYRAQÇI** [Elxan:] Qorxmaz, mübariz məqsəddən, *bayraqçı* bayraqdan daha əvvəl doğur (C.Cabbarlı); **BAYRAQDAŞIYAN** *Bayraqdaşıyanlar* qızıl bayrağı möhkəm tutmuşdular (M.S.Ordubadi); **BAYRAQTUTAN, ƏLƏMDAR** Həmin şeri yazmaqdan qabaq bilmək gərəkdir ki, "*ələmdar*" nə deməkdir? Yəni *bayraqtutan*... (A.Səhhət).

**bayraqdaşıyan** *bax* **bayraqdar**

**bayraqtutan** *bax* **bayraqdar**

**1. BAYRAM** Və məhz bu səbəbə rəməzan *bayramı* islam ümməti üçün əziz bir bayramdır (C.Məmmədquluzadə); **EYD** (*köhn.*) Ey pulluların səfası, novruz; Tacirlərin aşinası, novruz; Biz millətə *eyd* ikən, nədən bəs; Oldun füqəra əzası, novruz?! (M.Ə.Sabir); **TƏNTƏNƏ** Özgə *təntənədir*... Kabab, mey, məzə (M.Rahim).

**2. bayram** *bax* **şənlik 1**

**BAYRAMYEMİŞİ** (*bayramlarda süfrəyə qoyulan şirniyyat*) [Novruz bayramında] dükanların qapısı üstündən bir zəng asardılar və *bayramyemişi* satıldıqca, o zəngi vurardılar (H.Sarabski); **XUŞGƏBAR** Ağa Hüseyn bir dövlətmənd şəxs idi. İranla böyük *xuşgəbar* alış-verişi edirdi (Ə.Haqverdiyev).

**BAYTAR** Xidmətində əl-əl üstədir: sağıcı, sanitar; Yaxın otaqda hər ehtimala qarşı; Hazır dayanıb *baytar* (R.Rza); **MAL HƏKİMİ** Böyük bacım hələ Təbrizə gəlmədən belə bir nəfər gürcü knyazı *mal həkimini* sevib getdi (M.S.Ordubadi).

**baz** *bax* tərlan

**baza** *bax* **1.** anbar; **2.** bünövrə

**I BAZAR** (*alış-veriş yeri*) Nökərlərdən biri dünən *bazarda* gördüyü bir əhvalatı nağıl edirdi (Çəmənzəminli); **ÇARŞI** (*örtülü bazar*) [Xudayar bəy:] *Çarşı* ilə gedib.. girdi bir böyük dükana (C.Məmmədquluzadə); **HƏFTƏBAZAR** (*həftədə bir dəfə – bazar günü olan bazar*) Şose yolla karvansara arxasındakı meydanda *həftəbazarı* olardı (Çəmənzəminli); **MARKET.**

**II BAZAR** (*həftənin bazar günü*) [Sənəm:] *Bazar* günü axşamçağı nə iş, nə idarə (M.İbrahimov); **YEKŞƏNBƏ** (*köhn.*) *Yekşənbə* günü "İftira" qəzetəsində operetta xüsusunda belə bir tənqid çap olunmuşdu (Ə.Haqverdiyev).

**bazburud** *bax* boy **1**

**bazburudlu** *bax* boy-buxunlu

**bazı** *bax* hoqqa **I, 1**

**baziçə** *bax* oyuncaq

**bazirgan** *bax* tacir

**bazu** *bax* qol **1**

**bazubənd** *bax* bilərzik

**becərmək** *bax* yetişdirmək

**becid** *bax* yeyin

**BEÇƏ** (*cavan xoruz*) Dan açınca xoruz, *beçələr* banlar (A.Şaiq); **ÇOLPA** [Mosimov:] Adamın *çolpa* kəsməyə əli gəlmir (H.Abbaszadə); **XORUZBEÇƏ** Yeyərdik, içərdik, *xoruzbeçələrlə* əylənərdik, nəhayət, gözəl həftə gəlib keçər, zavallı atamın pulu qurtarardı və şənbə günü yenə kəndə yola düşərdi (Çəmənzəminli).

**beçədan** *bax* bətn

**behişt** *bax* cənnət

**I BEL** (*yer qazmaq üçün alət*) Cövdət *beli* torpağa sancıb qapıya doğru getdi (H.Abbaszadə); **KÜRƏK** Çöldə işləmək üçün külüng, *kürək* və kisə hazırlamalısınız (Y.Şirvan); **LAPATKA** (*dan.*) [Məsmə:] Biz *lapatka* ilə Hitlerə qəbir qazacağıq (X.Hasilova).

**II 1. BEL** Yasavul əyilmiş *belini* düzəltməyə çalışaraq: "Mən tapmışam" - dedi (S.Rəhimov); **QAMƏT** Buna şahid qocalsam da bükülməyən *qamətimdir* (S.Vurğun); **QƏDD** Meydanda "mənəm" deyibdi; Bu dərd Ələsgərin *qəddin* əyibdi (Aşıq Ələsgər).





**2. bel** *bax* arxa **1**

**3. bel** *bax* qurşaq **2**

**belbağı** *bax* qurşaq **1**

**BELƏ** [Suraxanski:] *Belə* təvəqqe ancaq mənə əskiklik gətirib, mənim şənimə toxunar (Ə.Haqverdiyev); **BU CÜR** Pəs *bu cür* mənfəətli sövdədən hansı axmaq qaçar (C.Məmmədquluzadə); **BU QAYDA İLƏ** Rəis *bu qayda ilə* bir xeyli gəzindi. Sonra kürsünü çəkib direktorla üz-üzə oturdu (İ.Şıxlı); **BU SAYAQ** ..*bu sayaq* gülüşmək olmaz... (H.Abbaszadə); **BU TƏRZDƏ.**

**BELLƏMƏK, TƏPMƏK** (*torpağı, yeri*)

**BELLƏNMƏK, TƏPİLMƏK** (*torpaq, yer*)

**BENZİN, PETROL**

**berkut** *bax* qartal

**BEŞ** (*ali və orta məktəblərdə verilən ən yüksək qiymət*) [Qiyas:] Yaxşı, mən üç uşağı kəsəcəm, Şamxalın oğluna *beş* verəcəm, özüm də orizə verib institutdan çıxacam (Anar); **ƏLA** Adilə qəbul imtahanlarının hamısından *əla* qiymət aldığı üçün onu qrup nümayəndəsi təyin etmişdilər (İ.Şıxlı).

**beşbetər** *bax* pis

**BEŞİK** (*çağalara məxsus yırğalanan yatacaq yeri*) Balam yatır *beşikdə*; Bülbül oxur eşikdə; Sən yat yuxun alsın; Mən durmuşam keşikdə (Bayatı); **NƏNNİ** Bir saat keçdi, körpə yenidən yuxuya getdi, *nənni* dayandı, Ziniyətin fikri cəmləndi (B.Bayramov); **YÜYÜRÜK** (*dial.*) [Ana:] Sonra çığırdı ki, Gülər, geyindir; Gəl çıxar uşağı *yüyürükdə* çölə (M.Rahim).

**betər** *bax* pis

**BEYİN** Çox zaman özgəyə qulluq eylədik; *Beyin* bizim oldu, əsər özgənin (B.Vahabzadə); **DİMAĞ** (*kl.əd.*) Həpsi fikir yürütmədə; Hər *dimağda* bir təlaş; Biri deyir: - Məni yazma! Biri deyir: – Məni yaz! (M.Müşfiq).

**BEYNƏLMİLƏL** [Əbülhəsən bəy:] Rusların *beynəlmiləl* qanunları pozmasından şikayət etməyə lüzum yoxdur (M.S.Ordubadi); **İNTERNASİONAL** [Tofiq:] A kişi, eşqin nə ruscası, nə azərbaycancası! Eşq *internasionaldır* (M.İbrahimov).

**beytləşmə** *bax* şeirləşmə

**beytləşmək** *bax* şeirləşmək

**BEZDİRİCİ** Payız gecəsinin *bezdirici* uzunluğu sanki Şehli kəndinin üstündən çəkilmək istəmirdi (S.Rəhimov); **BIQDIRICI** [Günəş:] Özünün ılıq və münis şüasını ətrafa salmaqla, qışın *bıqdırıcı* və soyuq havasına qələbə çalmaqda idi (S.Hüseyn); **ÇÜRÜKÇÜ** [Həmidə:] Əşi, *çürükçü* olma, bir stəkan çay içsək dünya dağılmaz (Anar); **QARAYAXA** (*dan.*) İlk görüşdən *qarayaxa* təsiri bağışlayan Mirzə Vahid getdikcə Mişanın, elə Həmidin özünün də rəğbətini qazanırdı (H.Abbaszadə); **USANDIRICI, CANSIXICI** Hər şey *cansıxıcıdır, usandırıcıdır*, yorucudur (M.İbrahimov); **ZƏHƏNDƏ** (*məh.*) Nə *zəhəndə* adamdır bu (ADDL); **ZƏHLƏTÖKÜCÜ** Onun daş hasarları, tikanlı məftilləri, hündür qülləleri, sərt simalı nəzarətçiləri dustaq üçün *zəhlətökücüdür* (S.Vəliyev); **ZIQQI** (*məh.*) *Zıqqı* adam çox danışır, uzun danışır (ADDL); **BEZİKDİRİCİ, ZƏHLƏAPARAN, ZƏHLƏTÖKƏN.**

**BEZDİRMƏK** Şehli kəndinin dədi-qodular, dağlarda gedən yersiz səngəri atışmaları Şamonu son dərəcə *bezdirmişdi* (S.Rəhimov); **BAŞAĞRISI VERMƏK** (*dan.*) [Sənəm:] Sağ ol, ay oğlum, daha bizi bağışla, hər şey oldu, qaçırıq üstünə, *başağrısı* verirık (M.İbrahimov); **BEZAR ETMƏK** Şəfqət bacısı yaxınlaşıb, hamını qışqırıq ilə *bezar eyləyən* bu əsgəri qaldırmaq istədi (Ə.Əbülhəsən); **BIQDIRMAQ** [Tamara:] Siz romanlarla danışırsınız. Məni də roman *bıqdırıb* (S.Rəhimov); **CANA GƏTİRMƏK, BEZİKDİRMƏK** Onun ruhunu əzmək, *bezikdirmək, cana gətirmək* və istənilən kağızlara qol çəkdirmək fikri ilə müstəntiq çox vasitələrə əl atdı... (M.İbrahimov); **ÇƏRLƏTMƏK** [Bərbərzadə:] Məni qocaltdınız, daha bəsdir, məni *çərlətdiniz*, daha bəsdir (S.Rəhman); **QIR-SAQQIZ OLUB YAPIŞMAQ** (*fr.v.*) Bir ağızucu söz demək,

**1. BULUNMAQ, TAPILMAQ**

**2. bulunmaq** *bax* olmaq

**bumaze** *bax* pamazı

**bund** *bax* üsyan

**bundçu** *bax* üsyançı

**burağan** *bax* tufan

**burc** *bax* tumurcuq

**bursa** *bax* birja

**bursaçı** *bax* birjaçı

**1. BURUQ** (*neft quyusu*) Gəmimiz açıq dənizdəki təzə *buruqlardan* birinə yan aldı (M.Hüseyn); **VIŞKA** Söylə hər gün boy atan *vışkaların*. Ən nəhayət başı dəymişdi göyə? (S.Rüstəm).

**2. buruq** *bax* qıvrım

**burulğan** *bax* girdab

**1. BURULMAQ, BURUQ DÜŞMƏK, QIVRILMAQ**

**2. burulmaq** *bax* dönmək 1

**burunlaşmaq** *bax* dalaşmaq

**BURUNOTU** (*tənbəki tozu*) [Səfə:] sonra səliqə ilə gilizi ovcunun içinə vuraraq bir atım *burunotu* çəkdi (S.Rəhimov); **ƏNFİYƏ.**

**busə** *bax* öpüş

**bustan** *bax* güllük

**buta** *bax* 1. qönçə; 2. naxış

**buterbrod** *bax* yaxmac

**butulka** *bax* şüşə 1

**buyruq** *bax* əmr 1

**BUYRUQQULU** (*hər bir əmr və hökmü yerinə yetirən*) [Kəmalüddövlə:] Beləliklə biz din rəhbərinin *buyruqqulu* olaraq azadlıq nemətlərindən məhrumuq (M.F.Axundzadə); **BƏNDFƏRMAN** (*köhn.*) Əsəd der, hökmündə *bəndfərmanam*. Sənsən mənə sultan, Peri, can Peri (Aşıq Əsəd).

**buyuxmaq** *bax* 1. çaşmaq; 2. üşümək

**2. buyurmaq** *bax* demək

**3. buyurmaq** *bax* gəlmək

**1. BUZ, DON** (*donmuş su haqqında*)

**2. buz** *bax* soyuq 1

**BUZDAĞI, AYSBERQ**

**buzlamaq** *bax* donmaq 1, 2

**buğz** *bax* kin

**buxl** *bax* paxıllıq

**bükək** *bax* daldə 1





**BÜLBÜL** Saçdıqca ətrini hər səfalı gül; Ötürdü şaxlarda sevdalı *bülbül* (M.Rahim); **ƏNDƏLİB** (*kl.əd.*) Çəkilmiş guşəyə *bülbül*, fəğanü nalələr eylər; Düşən gül üstə damə *əndəlibi-zarə* bənzətdim (Natəvan).

**büland** *bax* uca 1

**BÜLÖV** (*kəsər alətləri itiləmək üçün daş*) [Həmidə:] Kənarda hırıldaya-hırıldaya xəncərinin ağzını *bülövə* çəkən kobud qəssabı hirsi tutdu (H.Abbaszadə); **ƏZMƏ** (*məh.*) *Əzmiyə* çəkirəm, piçağın ağzı itilənir (ADDL); **QART** (*dan.*).

**BÜNÖVRƏ** (*müəyyən bir tikilinin əsası və müxtəlif mənalarda*) [Nağı:] Eh, dünyanın *bünövrəsi* düz qoyulmayıb (M.İbrahimov); **BAZA** [Sumqayıtda] metallurgiyanın *bazası* qoyulur (Mir Cəlal); **BİNA** (*dan.*) Mahalım Göynükdür, şəhərim Şəki; Layıski kəndinin *binasıyam* mən (Molla Cümə); **TƏMƏL** Sülhün, eşqin, ağ günün, abadı azadlığın, *Təməli* möhkəm olsun (M.Rahim).

**bürhan** *bax* dəlil

**bürkü** *bax* isti 2

**bürkülü** *bax* bürkü

**bürqə** *bax* rübənd

**bürokrat** *bax* rəsmiyyətçi

**bürokratizm** *bax* bürokratlıq

**bürokratlıq** *bax* rəsmiyyətçilik

**bürudət** *bax* şaxta 1

**büryan** *bax* isti 1

**BÜRÜMƏK** ...Gördüm bir şölə asimanə büland olub, işığı hər yeri *bürüyübdür* (Ə.Haqverdiyev); **ALMAQ** Çən *alıb* dağlar başını; Bağ başın, bağlar başını (Bayatı); **SARMAQ** Birdən qara buludlar *sarmış* göyün qatını (M.Rahim); **TUTMAQ** Simfoniyanın şöhrəti; *tutdu* Azərbaycanı; *Tutdu* bütün dünyanı (Ə.Kərim).

**BÜRÜNMƏK** Qaydasıdır, qara çarşab *bürünür*, Siyah zülfün ucu yerdən sürünür (Q.Zakir); **SARINMAQ** Molla əbasına bərk *sarındıqdan* sonra məktubu Qurbana oxudu (A.Şaiq); **ÖRTÜNMƏK.**

**büsat** *bax* dəbdəbə

**büsatlı** *bax* dəbdəbəli



**BÜSBÜTÜN** [Kəkilbəyov:] Xosrov bəy Sultanovun dedikləri *büsbütün* düzdür (Ə.Vəliyev); **BAŞDAN-BAŞA** Bu dərə *başdan-başa* su qaynağı idi (A.Şaiq); **BİLKÜLLİYYƏ** (*köhn.*) [Şölə xanım:] Əlbəttə, gərəkdir vəzir bu işləri bilməyə, yoxsa xanı bildirər, iş *bilkülliyyə* pozular (M.F.Axundzadə); **BÜTÜN** Həkim nəzərini güzgüdən çəkən kimi özünü *bütün* unutdu (B.Bayramov); **TAMAM** Otaqda adam xarici aləmi, sükutu, səyrıgu *tamam* unudur (Mir Cəlal); **YEKSƏR** (*kl.əd.*) [Elm:] Qəti ümmid etmişəm, *yeksər* bu qövmi atmışam (M.Ə.Sabir); **TAMAMİLƏ** (*bax*).

**büst** *bax* heykəl 1

**BÜTÖV** ...qorxaq olan adamların da qəlbində *bütöv*, kamil olan hər şeyə səyumaz bir həvəs yaşayır... (M.İbrahimov); **KÜLL** Görürsən bir yerdə tək-tük inkişaf etdiyi halda, başqa bir yerdə *küll* şəklində təşəkkül tapır (Ş.Fərzəliyev); **BÖLÜNMƏZ** Gəl, haqq sözü bölüşdürək səninlə; *Bölünməzi* bölüşdürək səninlə (M.Araz)



**bütövlük** *bax* birlik 1

**1. BÜTÜN** Deməli, *bütün* qonşu uşaqları mərasimin dalınca gediblər (M.İbrahimov); **CƏMİ** O yerdir ki, orda *cəmi* dünyanın qeydi yadından çıxır... (Ə.Haqverdiyev); **CÜMLƏ** [Məhərrəm bəy:] Atamın siyahı dəftəri əlimə düşdü. Baxıb gördüm ki, *cümlə* borcların üstünə öz xətti ilə qələm çəkilmişdi (S.S.Axundov); **HAMI** [Yusif:] Qızını, hirslənmə, mən *hamı* arvadları deməmişəm (N.Nərimanov); **HƏP** (*köhn.*) [Şeyx Sənan:] *Həp* cinayət, qadın cinayəti! *Həp* qadın cürmi-ehtirası (H.Cavid); **KÜLL** [Fürüz:] Mən *küll* Azərbaycanda yeganə adamam ki, Şekspiri başdan-ayağa əzbərdən oxuyuram, ingiliscə hal (Anar); **TAMAM** Məhz vaxt keçirmək üçün xərc çəkib qonaqlıqlar düzəldirdilər və *tamam* şəhərin axundlarını, tacirlərini dəvət edib, xörəkdən sonra ortalığa bir dini mübahisə salardılar... (Ə.Haqverdiyev).

**2. bütün** *bax* büsbütün

**büvə** *bax* böv

1. **ÇUXUR** [Səid] sonra əli ilə yaxındakı dərə kimi geniş *çuxuru* göstərərək: - Bu gəmiş dərəni görürsünüz, keçmişdə bu dərədə bir neçə timsah bəslənirdi... (A.Şaiq); **KALAFA** [Bayramın gündəliyindən] "Kəndə bir az qalmış atdan düşdüm. Ceyranı bombadan oyulmuş bir *kalafaya* çəkdim" (R.Rza); **QAZNAQ** Təpənin dibindəki bulağın üstünə endim, əl və üzümü yuyub *qaznağın* qırağında oturdum (Divanbəyoğlu).

**2. çuxur** *bax* dərə

**çuma** *bax* taun

**ÇUST** (*ayaq geyimi, dabansız ayaqqabı*) Bəzisinin əynində pisdən-yaxşıdan köynək-tuman və hətta ayağında *çust* da vardı (M.İbrahimov); **PAPIŞ** [Ağa Kərim:] Amma Ağa Salmana mənim təlimim lazım deyil. O özü şeytana *papış* tikir (M.F.Axundzadə); **ŞAP-ŞAP** [Oğlanın] bir ayağında uzunboğaz çəkmə vardı, o birində *şapşap* və şapşaplı ayağı topuğuna qədər cunə ilə sarınmışdı (H.Abbaszadə).

**ÇUVALDUZ** (*ucu yastı və əyri iri iynə*) ...əlində *çuvalduz* çarığını köşələyən Salam kişi ayaq səsi eşitdi (Mir Cəlal); **QIYIQ** ...*Qıyıqlar* xaralllara sancıldı (Ə.Vəliyev); **PALANDUZ.**

**çün** *bax* **çünki**

**ÇÜNKİ** *Çünki* övladi-vətənin cəhaləti məni çoxdan ayaqdan salmışdır (M.S.Ordubadi); **ÇÜN** (*kl.əd.*) [Ağa Kərim:] *Çün* Hacı Qafur ilə duz-çörək yemişdim, o xatirə gəldim ki, bu işdən Səkinə xanımı xəbərdar edim (M.F.Axundzadə); **ONA GÖRƏ Kİ** [Çərkəz:] Ona görə ki, sən bizim xəstələrə şəfa verirsən, *ona görə ki*, bizim camaata lazımlı adamsan, həm də ona görə ki, Xəlilin əmisi oğlusan... (İ.Məlikzadə); **ZİRA** (*köhn.*) [Tomson:] *Zira* kiçik xalqların müqəddəratı qeydinə qalmaq bizim tarixi vəzifəmizdir (Ə.Məmmədxanlı); **ZİRA Kİ** [Məhəmməd ağa:] *Zira ki*, Ömər oxuyub elm sahibi olubdur və onun köməkliyi sizə azım olur" (N.Nərimanov).







# Dd

**dabanbasa** *bax* tələsik

**dabanbasaraq** *bax* tələsik

**dabanbasma** *bax* tələsik

**dabanlamaq** *bax* izləmək 1

**I DAD, LƏZZƏT** [Qaysı giləsə:] Yox sənin ətin; *Dadın, ləzzətin*; Quru sümüksən; Ağacı yüksən (M.Seyidzadə); **TAM** O da mənim bəxtəvər vətənimin *tamıdır*; Eşqimizdən alıbdır öz ətrini bu şərbət (M.Rahim).

**II dad** *bax* haray

**dadaş** *bax* qardaş

**dad-fəryad** *bax* fəryad, haray

**dadlı** *bax* ləzzətli, şirin

**dadrəs** *bax* köməkçi 1

**dadsız** *bax* ləzzətsiz

**I 1. DAĞ** (*coğr.*) *Dağlarının* başı qardır; Ağ örpəyin buludlardır... (S.Vurğun); **KUH** (*kl.əd.*) Naləmdən oldu kül bu cahan içrə *kuhü* dəşt; Ey dil, neçin o türreyi-dildar yanmadı (A.Şaiq).

**2. dağ** *bax* yaylaq 1

**II dağ** *bax* dərd 1

**dağıdılmaq** *bax* talanmaq

**1. DAĞILMAQ** [İrakli:] Mənim də şəhərim *dağılıb*, adamlarım qırılıb (Çəmənzəminli); **TARAC OLMAQ** [Cahangir bəy:] Mal-dövlətim *tarac oldu* getdi, özüm də düşmüşəm bu günə (N.Vəzirov); **VİRANƏYƏ DÖNMƏK** [Mahmud:] Sevdiyim bağçanı *viranəyə döndü* (Çəmənzəminli); **VİRANƏLƏNMƏK** Bir qəmzəsi qanlı, hərami yağı; Çapdı könlüm şəhrin, *viranələnmiş* (M.V.Vidadi); **YIXILMAQ, TAR-MAR OLMAQ** [Hacı Murad:] Evim *yıxıldı, tar-mar oldu* (S.S.Axundov).

**2. dağılmaq** *bax* didilmək

**dağınıq** *bax* **1.** uçuq 1; **2.** nizamsız 2

**dağınıqlıq** *bax* nizamsızlıq 1

**DAĞITMAQ** [Azər:] Bağrım çatlayır, dünyanı *dağıdarım*, Zöhrə? (M.İbrahimov); **ALT-ÜST ETMƏK** Nə buldular İskəndərlər, Çingizlər; Cahanı titrədib *alt-üst etdilər* (H.Cavid); **DARMADAĞIN ETMƏK** Qızıl Arslan ... Hüsaməddin və Qütlüğün iyirmi minlik ordusunu *darmadağın edib* Qəzvin şəhərini işğal etmişdi (M.S.Ordubadi); **XARABAZARA DÖNDƏRMƏK** Çünki Atabəylər İraq və Bağdad qoşunlarının köməyi ilə Cənubi Azərbaycanı bir neçə günün içərisində *xarabazara döndərə* bilirlər (M.S.Ordubadi); **TAR-MAR ETMƏK (ELƏMƏK), XARABA QOYMAQ** (*qarğış kimi işlənir*) [Rüstəm bəy:] Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdunu *xaraba qoydum, tar-mar elədim*, evinə od vurdum, külünü havaya sovurdum (N.Vəzirov); **UÇURMAQ (UÇURTMAQ)** Anladım ki, bu həşərat heykəli *uçurtmaq* fikrinə düşmüşlər (S.S.Axundov); **VİRAN ETMƏK, VİRANƏ QOYMAQ** Şamaxıda pristav Cəbrayılov sahibsiz və fəqir bir müsəlman övrətinin evini *viran etdi* (C.Məmmədquluzadə); **YERLƏ YEKSAN ETMƏK** Vaxtı ilə uzaq və amansız bir zəlzələ böyük və gözəl bir şəhəri *yerlə yeksan etmişdi* (Ə.Məmmədxanlı); **YIXMAQ** [Hacı Mehdi:] Allah harada ikiövrətlilər var, hamısının evini *yıxsın*, hamısını mənim günümə salsın (Ə.Haqverdiyev).

**DAHA** (*bir daha*) Lakin mübarizədə; ... hələ ağırlıq, *daha* artıq; bir həvəsə gətirir (R.Rza); **ARTIQ** Əlimdəki işləri yoluna qoya bilsəydim, *artıq* burada durmazdım (H.Cavid); **DƏXİ** (*köhn.*) Elə ki taxıldı burnuna çeşmək; Qocalıq əl verib, *dəxi* nə etmək (M.V.Vidadi).

**DAHİ, BÖYÜK** (*ən yüksək dərəcəli bilik, zəka, ağıl sahibi*) *Dahilər* – hər sözü bir dağ, bir qala; Cahillər – dağıtmaq, yıxmaq "dahisi" (M.Araz); **DÜHA** Deyirlər: bir *düha* oddan-alovdan; Əzmilə çıxardı bəşəriyyəti (O.Sarıvəlli).

**DAHİLİK** [Qaraqaşlı:] Məncə hər normal böyümüş adamda potensial *dahilik* vardır (Ə.Kərim); **BÖYÜKLÜK** Ancaq Nəsiminin *böyüklüyü* ondadır ki, o, yalnız islam əhkamçılarının dar çərçivəsində deyil, sufizmin daha geniş sərhədlərinə də sığışa bil-

(C.Cabbarlı); **ƏZAB-ƏZİYYƏT** [Vəliş:] Sizin yolunuzda nə qədər *əzab-əziyyət* çəksəm, heyfsilənməyəcəyəm (Ə.Vəliyev); **ƏZİYYƏT, ZİLLƏT** [Cahangir ağa:] Hamısı ac, çılpaq, *zillətdə, əziyyətdə*, fəryadları əflakə çıxmış (S.S.Axundov); **İŞGƏNCƏ, İZTİRAB** Süzdü Ağa Nazim qızı gözaltı; *İztirab, işgəncə*, əzab, həyəcan (Ə.Kürçaylı); **MƏŞƏQQƏT** Çünki, fəlakət və *məşəqqətlərlə* əldə etdiyi ixtisas sayəsində o, fəlakətlərə birdəfəlik vida etmiş olduğuna əmin idi (A.Şaiq); **MÖHNƏT, CÖVR, CƏFA** Doğrusu zillətindən, *cövründən, möhnətindən*; Əzabından, *cəfandan*, qəmindən, həsrətindən; Şikayətlər etmişəm, ey afət, günahkaram (M.Rahim); **ZƏLALƏT** (*kl.əd.*) Amma o millət ki, ümidini qılınca bağlayıb, həmişə *zəlalətdə* bulunubdur (N.Nərimanov); **ZÜLM** Bilxassə qadına qarşı olan *zülmün* həddi-hüdudu yox idi (Çəmənzəminli);

**azab-əziyyət** *bax* əzab

**ƏZABLI** (*əzab və əziyyətlə dolu*) [Rza:] Mən indiyə kimi iyirmi iki bahar yola salmışdım, lakin heç birisi bu ilki qədər *əzablı*, bu ilki qədər cansıxıcı olmamışdı (M.İbrahimov); **CƏFALI** [Şahbaz bəy:] O, bir xəyaldır. Uzaqdan dadlı, nəşəli, yaxından zəhərli, *cəfalı*, bəlah, ömrü puç edən bir şeydir (S.S.Axundov); **ƏZABVERİCİ** Artıq Mecidin sözləri [Nadir] üçün *əzabverici* olmayıb.. (B.Talıblı); **İZTİRABLI** *İztirablı* səsində elə dərin bir qəlb ağrısı vardı ki, ixtiyarsız atın başını qucaqları (R.Rza); **MƏŞƏQQƏTLİ** Bir il qədər *məşəqqətli* sürən bir neçə dəqiqə ərzində onun gözləri qaraldı.. (M.Hüseyn); **MÜŞƏVVƏŞ** [Şeyx Sədra:] Halım, əyvah pək *müşəvvəşdir* (H.Cavid); **ƏZİYYƏTLİ, İŞGƏNCƏLİ.**

**ƏZABSIZ, ƏZİYYƏTSİZ, CƏFASIZ**

**əzazil** *bax* 1. şeytan 1; 2. zalım

**əzazillik** *bax* zalımlıq

**əzbər** *bax* əzbərdən

**ƏZBƏRDƏN** (*əzbər olaraq*) İndi *əzbərdən* bilir... (M.İbrahimov); **ƏZBƏR** Sona... Bahadırın kağızını *əzbər* oxuyurdu (N.Nərimanov); **AĞIZDAN.**

**əzəl** *bax* əvvəl 1

**ƏZƏLƏ** ..Qolunu gətirib *əzələlərini* göstərdi (Ə.Qasımov); **MUSKUL** (*dan.*) Yaşasın daş kimi *muskullarımız*; Yaşasın tökmə, dəmir qollarımız (M.Müşfiq).

**1. ƏZƏMƏT** Başında göy araxçın, duruşunda *əzəmət* (B.Vahabzadə); **BÖYÜKLÜK** Dağlar, sizdəki bu *böyüklük, vüqar*; No olur bir zaman olsaydı məndə (S.Vurğun); **CALAL** Payızın zəmhəri qoyur virana; Dağılır üstündən *calalı*, dağlar! (Aşıq Ələsgər); **VÜQAR** (*məc.*) Rahim vəsf eyləyir *vüqarınızı*; Yetirsin səsini dağlara dağlar (M.Rahim); **CƏBƏRUT** (*köhn.*).

**2. əzəmət** *bax* dəbdəbə

**ƏZƏMƏTLİ** Təyyarəmiz başdan-başa qarla örtülmüş bu *əzəmətli* şəhər üzərində uçur (M.Hüseyn); **BÖYÜK** Həmin insanlar, *böyük* binalar diqqətlə bax! (S.Vurğun); **MƏĞRUR** [Attal:] Hər yerə at sürdü bu *məğrur* dünya: Duz ilə, çörəklə çıxdı qarşıya (A.Şaiq); **MONUMENTAL** Küçənin böyük bir hissəsini tutmuş çoxmərtəbəli və çoxguşəli *monumental* bir binaya yaxınlaşdıqda mən yoldaşları sevindirirəm (M.İbrahimov); **MÖHTƏŞƏM** Onun [Moskvanın] geniş küçələri, qədim binaları, Kreml hasarları, yenə əvvəlki kimi *möhtəşəmdir* (M.Hüseyn).

**əzgin** *bax* yorğun, üzgün, süst

**əzginlik** *bax* yorğunluq, süstlük

**əzişdirmək** *bax* döymək 1

**əziyyət** *bax* 1. əzab; 2. zəhmət

**əziyyətli** *bax* əzablı

**əziyyətsiz** *bax* 1. əzabsız; rahat 1

**əziz** *bax* sevimli 1; mehriban 2

**1. ƏZİZLƏMƏK, ƏRKÖYÜN BÖYÜTMƏK, ƏSMƏK** (*həddindən artıq əzizləmək*), **İSTƏMƏK**

**2. əzizləmək** *bax* oxşamaq II

**1. ƏZM, QƏTİ QƏRAR, QƏTİ NİYYƏT**

**2. əzm** *bax* cəsarət

**əzmə** *bax* bülöv

**əzmli** *bax* cəsarətli

**1. ƏZVAY** (*bitki*), **ALOE, SABUR**

**2. əzvay** *bax* acıdil





# Ff

**face** *bax* faciəli

**1. FACİƏ** (*ədəb.*) Bu pyes Nərimanov yoldaş tərəfindən yazılmış "Nadir şah" adlı *faciə* idi (Ə.Haqverdiyev); **TRAGEDİYA** Bu dövrdə Şekspir özünün ən məşhur *tragediyalarını*, o cümlədən "Hamlet", "Otello", "Kral Lir", "Maqbet" və "Antonio və Kleopatra" əsərlərini yazmışdır (M.Arif).

**2. faciə** *bax* fəlakət

**FACİƏLİ** Ulduzun bu *faciəli* halında da bəzi dillər rahat oturmurdu (M.İbrahimov); **FACE** [Əbülhəsən bəy:] O, Təbrizdə baş verən bu hadisəni və imperator hökumətinə qarşı bu ədəbsizliyi, xüsusən cənab Smirnovun *face* ölümünü eşidərkən, sizə başsağlığı vermək və bəyanı təəssüf etmək üçün gəlmişdir (M.S.Ordubadi); **FƏCİ** Bu *fəci* xəbəri hər kəs həyəcan içində bir-birinə pıçıldadı (Ə.Haqverdiyev); **FACİƏVİ** Ərtoğrulun cənazə qahqları da atasının türbəsi yanına keçirilsin, burada basdırılsın, *faciəvi* həyat keşməkeşlərilə bir-birindən ayrı düşmüş ata və oğul ölümsüzlük mənzilində əbədi qovuşsunlar (Anar); **AĞLAMALI.**

**faciəvi** *bax* faciəli

**1. fağır** *bax* yoxsul

**2. fağır** *bax* yazıq 1

**fağır-yağır** *bax* yazıq-yazıq

**FAHİŞƏ** (*əxlaq pozğunluğu ilə məşğul olan qadın*) [Əhməd:] Burax getsin, iki dostun arasını vuran bir *fahişə* bizə lazım deyil, – dedi (A.Şaiq); **ƏXLAQI POZĞUN** [Mirzə Mahmud:] Çirkli, üfunətli, çirkin və *əxlaqı pozğun* bir qıza nəfsim yetdi (Çəmənzəminli); **ƏXLAQSIZ QADIN** Culfanın hər tərəfindən toplanmış on beş nəfərə qədər *əxlaqsız qadın* dəhlizin bir başında saxlanmışdı, zabitlər isə qılınclarını çəkib yenə də qadın tələb edirlər (M.S.Ordubadi); **QƏHBƏ** (*dan.*) [Vəliş:] *Qəhbə* bizi əngələ salacaq... (Ə.Vəliyev); **LƏKTƏ** (*kl.əd.*) [Şərəfnisə xanım Gülçöhrəyə:] İtil cəhənnəmə, *ləktə* ol çəkməz, qoymaz işimi tutum (M.F.Axundzadə); **LOTU** [Paşı] Dərələrin *lotusu* ondan-bundan tutduğunu mənim sümüyümə calamaq, evimə haram qatmaq istəyir, – deyə özünü yerə çırpırdı (S.Rəhimov); **POZĞUN** [Əbülhəsən bəy:] Biz artıq sevgi, işvə, qəmzə, vüsal, məhəbbət, ayrılıq və sairə kimi şeylərdən Şümşad xanımla açıq-açığına danışır və önünü Təbrizin *pozğun*, qaraçı qadınlarına oxşadırdı (M.S.Ordubadi); **YAVA** [Cavanlar:] Bu *yava* matışqanı haraya aparırsan, qoy bir qədər biz ilə gəzsin, – deyə onların özünü alırlar (S.S.Axundov); **ZƏNQƏHBƏ** [Mahmud xan:] Bu əmri sənə hansı köpək oğlu verib? Sənə hansı *zənqəhbə* tapşırıb.. (M.S.Ordubadi); **ZİNAKAR** Dersəm ki, *zinakarlərin* qeyrəti olmaz; Olmazmı mənim işbu sözüm eyni həqiqət?! (M.Ə.Sabir).

**FAHİŞƏXANA** (*fahişələrin məşğul olduğu yer*) [Əbülhəsən bəy:] Sanki o, birinci kərə idi ki, bu *fahişəxanaya* düşmüşdü (M.S.Ordubadi); **LOTUXANA** [Hacı Əhməd:] Köpək oğlu, həzrətin məqamını *lotuxana* qayırmısan? (M.S.Ordubadi).

**FAHİŞƏLİK** (*qeyri-qanuni cinsi əlaqədə olma*) Hansı elə onların pəncələri uzandı; *fahişəlik*, xəyanət, aclıq, ölüm və çuma; Ordə keçir hücuma (M.Rahim); **ƏXLAQ POZĞUNLUĞU** [İlyas:] Məhsəti xanımın hökumət əleyhinə olmasında, şeir və sənəti *əxlaq pozğunluğu* kimi təbir edən müqəssirdir (M.S.Ordubadi); **ƏXLAQSIZLIQ** İndi Zeynal belə düşünürdü ki, onun hörmət və nüfuzunun azalması və xidmətlərinin əlindən çıxması Mehribanın *əxlaqsızlığından* irəli gəlmişdi (S.Hüseyn); **FİSQ** *Fisq* imiş əmrin tamam, ay barakallah sənə!.. (M.Ə.Sabir); **FİSQÜ FİCUR** [Xətib:] Daşa basın! Dağıdın bu *fisqü ficurun* yuvasını (M.S.Ordubadi); **POZĞUNLUQ** [Xosrov:] Siz elə qanunlar düzəltmisiniz ki, onlar qan tökməyin, yoxsulluğun, *pozğunluğun* və fahişəliyin qarşısını almaqdan danışan əqidələri on illik həbs cəzası ilə təqib edir (M.İbrahimov); **ZİNA** [Rəbi:] İslam dininə, bir olan allaha qarşı üsyan qaldıran, xalq içində təbliğat aparıb, eli

günəşlə sərkəm (X.Rza); Pəncərələri *gün-çıxana* açılan üçqarpayılı, işıqlı və isti pal-tarda ona yer tapıldı (M.İbrahimov).

**GÜNDÜZ** Yaşar gündüz hələdlədiyi yerə yönəldi (M.Rzaquluzadə); **RUZ** (*kl.əd.*).

**1. GÜNEY** (*gün düşən yer*) Qayaları baş-başadır. *Güneyləri* tamaşadır... (S.Vurğun); **GÜNƏVƏR** Kəndin qarıları *günəvər* yer-lərə çıxır, özlərini divarlara söykəyir, günə verir, qızınırdılar (S.Rəhimov).

**2. güney** *bax* cənub

**GÜNƏŞ** *Günəş* yenicə batmışdı (M.İbra-himov). **AFTAB** (*kl.əd.*) Ey aləmi münəvvər edən cürmi *aftab*. Müşkatı-şöləndir şəbəf-ruzi-mahitab (M.Hadi). **GÜN** *Gün* batsa da, hava hələ işıq idi (H.Abbaszadə); **XURŞİD** (*kl.əd.*) Doğar *xurşudi*-hürriyyət, bütün azad olar aləm (M.Ə.Sabir). **MEHR** (*kl.əd.*) Dil-bəra, gül görmədim gülşəndə rüxsarın kimi; *Mehrü* mah olmaz fələk, yüzündə rüxsar kimi (Xətayi). **ŞƏMS** (*kl.əd.*) Saçın rəngidir, çün leylətülqədr; Cəmalı-nuri-*şəmsi* xavərdir (Xətayi)

**günəvər** *bax* güney

**günlük** *bax* çətir

**GÜNORTA** *Günorta* azanı vaxtına o qə-dər qalmırdı (M.S.Ordubadi); **ZÖHR** [Mirzə Cəlil:] Rəhmətlik dayım bir gün elə naxoş oldu ki, heç durub otura bilmədi və odur ki, *zöhr* namazını da qıla bilmədi (Anar).

**günüqara** *bax* bədbəxt

**günüqaralıq** *bax* bədbəxtlik

**gürz** *bax* toppuz 1

**güvənmək** *bax* **1.** arxalanmaq; **2.** lovğa-lanmaq

**güzəran** *bax* yaşayış 1

**GÜZGÜ** [Məşədi İbad] *güzgüyə* baxıb ora-burasını düzəltdi (Ü.Hacıbəyov); **AYNA** Niyə bəs böylə bərəldirsən, a qare, gözünü, Yoxsa bu *aynada* ayrı görürsən özünü? (M.Ə.Sabir).

**güzlük** *bax* səpin







# Hh

**habelə** *bax* həmçinin

**HAÇAN** [Minə:] Bəs *haçan*, nə vaxtdır, inşallah, bu xeyir iş? (M.İbrahimov); **NƏ VAXT, NƏ ZAMAN** Səhər idarəyə gəldiyi dəqiqədən başı o qədər qarışır ki, vaxtın *nə zaman* keçdiyini, iş gününün *nə vaxt* qurtar-dığını bilməyib axşam evə qayıdır (M.İbra-himov).

**hacət** *bax* tələbat, ehtiyac 1

**HACILEYLƏK** (*zool.*) Çinarın başında *hacıleylək* yuva tikmişdi (Ə.Haqverdiyev); **LEYLƏK** *Leylək* hərçi istəyirdi yuvasını qayıtsın, vurub salırdılar (Ə.Haqverdiyev).

**1. HADİSƏ** [Şah:] Aya sizin rəyinizə görə mən nə qism tədbir ilə bu *hadisəni* öz vücu-dumdan dəf edə bilərəm? (M.F.Axundzadə); **ƏHVALAT** Lazımdır *əhvalatı* təfsilən nağıl eləmək (C.Məmmədquluzadə); **İTTİFAQ** [Aslan:] Mən bu az ömrümdə nə qədər bəd-bəxt *ittifaqlar* görmüşəm (İ.Musabəyov); **KEYFİYYƏT** Səhər qızın atası, Hacı Əbdüləzimin dükanına gəlib *keyfiyyəti* söy-lədi (Ə.Haqverdiyev). **QƏZAVÜ QƏDƏR** (*köhn.*) [Molla Nəsrəddin:] Mirzə Fərəc, ba-şına çox *qəzavü qədər* gəlibdir (S.S.Axun-dov); **QƏZİYYƏ** (*təsadüfən başa gələn ha-disə*) [Vəzir:] A kişi, bu gün başıma bir *qə-ziyyə* gəlibdir ki, heç fikrimdən keçməzdi (M.F.Axundzadə); **VAQİƏ** (*köhn.*) Cavan övrət oturduğu yerdə oturub dinməz-söy-ləməz *vaqiəyə* tamaşa eləyirdi (C.Məmməd-quluzadə).

**2. hadisə** *bax* qəzə

**hafizə** *bax* yaddaş

**hafizəli** *bax* yaddaşlı

**1. HAKİM** (*oyunu idarə edən şəxs*) [Mir-mehdi:] Bu kişi *hakimdi*, pəhləvanların güləş-məsinə baxacaq ki, qayda-qanunu pozmasın-lar (H.Abbaszadə). **ARBİTR** [Mətəbərov:] Həmişə *arbitr* oldunuz, bəsdir (M.Hüseyn); **HƏKƏM** (*köhn.*) Camaat sakit durub tamaşa edirdi. Yalnız bir ağsaqqal qaydaya baxırdı. Bu, *həkəm* idi (Çəmənzəminli); **MÜNSİF** Axırı, bu iki qardaş cəzanə gəlib, bir ədalətli adamı *münsif* seçdilər (R.Əfəndiyev).

**2. hakim** *bax* padşah

**1. HAKİMİYYƏT** [Şamo:] Ancaq bu tüfəngləri hər iki tərəfdə içəri döndərsinlər, *hakimiyyət* bizlərin olsun (S.Rəhimov); **HÖKMRANLIQ** [Xosrov:] Nə gördüm bu dünyada mən; Nə verdi Xosrova bu *hökm-ranlıq* (S.Vurğun); **DİKTATURA, HÖKM-RAN.**

**2. hakimiyyət** *bax* hökumət

**hakimlik** *bax* hökmdarlıq

**I haqq** *bax* **1.** doğru 1; **2.** ixtiyar

**II haqq** *bax* Allah 1

**haqq-ədalət** *bax* ədalət

**haqq-hesab** *bax* hesab 1

**HAQQINDA** [İbrahim bəy:] Bağışlayın, İsmayıl *haqqında* bir neçə söz demək istə-yirəm (Ə.Vəliyev); **BARƏSİNDƏ** İkinci xa-hişim odur ki, baş aqronom Məcid Əlyarov *barəsində* yazdığım əmri təsdiq elə (M.Hü-seyn); **DAİR** Bəlkə Tahirin ali təhsil alma-dığına *dair* deyilən sözlər nə məqsədlə isə uydurulmuş sadəcə bir bəhanə idi (M.Hü-seyn); **XÜSUSDA** [Qazı:] Kitaba ondan ötrü baxıram ki, görək şəriət bu *xüsusda* nə buyu-rur (C.Məmmədquluzadə); **QARŞI** Şirma-yının ürəyində nənəsinə *qarşı* zərrə qədər də şübhə oyanmırdı (M.Hüseyn).

**haqlamaq** *bax* çatmaq 1 1

**HAQSIZ** Anasının yaşlı gözləri, hər gün *haqsız* cəzalanması ona [Səfərə] hər şeyi, hətta nişanlısı Zöhrəni belə unutdurmuşdu (A.Şaiq). **BƏDBİHESAB** [Hacı Qurban:] ...mən və mənim oğlum *bədbihesab* işlərə qa-rışmamışıq... (N.Vəzirov); **NAHAQ** [Həmzə:] İndi guya biz *nahaq* danışırıq də? (C.Cab-barlı); **BİHESAB, ƏDALƏTSİZ** (*bax*).

**HAQSIZLIQ, ƏDALƏTSİZLİK** (*bax*), **NAHAQLIQ**

**hal** *bax* **1.** vəziyyət 1, **2.** əhval; **3.** güc

**HALBUKİ** [Pərviz:] Çünki, anam inanırdı ki, gündüzlər biz məktəbdə olanda həyətə

*bələ* adamla məşğul olmağa kirdarı çatmaz (H.Abbaszadə). **SƏBİRSİZ** (*bax*).

**həvəs** *bax* nəm

**həvəslənmək** *bax* nəmlənmək

**həvəsli** *bax* nəmli

**humanist** *bax* insanpərvər

**humanistlik** *bax* insanpərvərlik

**humanizm** *bax* insanpərvərlik

**HUŞ** *Huş* başımdan çaşdı, dilim dolaşdı, Gözlərim sataşdı, buxağa düşdü (Aşıq Ələsgər); **HUŞ-BAŞ** Qəm yemə, yerindədir hər halda *huş-başımız* (M.Rahim). **FİKİR, DİQQƏT, YADDAŞ** (*bax*).

2. **huş** *bax* mürgü

**huş-haş** *bax* huş 1

**huşlu** *bax* yaddaşlı

1. **HUŞSUZ, BİHUŞ, YADDAŞSIZ**

2. **huşsuz** *bax* baygın

**HUŞSUZLUQ, BİHUŞLUQ, YADDAŞSIZLIQ**

**huşyar** *bax* 1. sayıq; 2. düşüncəli, dərrakəli

**hübalı** *bax* köpük 1

**hücrə** *bax* otaq

**HÜCUM** (*müxtəlif mənalarda*) "Dikdağ" səngəri isə vəziyyətdən *hücum* əmrini duymuşdu (S.Rəhimov). **BASQIN** (*gözlənilmədən edilən hücum*) [Sərtdə yaşayan] ..dağlılar çöllülərə nisbətən daha şücaətli olduqlarından, səfərlər üzərinə *basqın* edərək, onları qarət edirdilər (A.Bakıxanov); **HƏMLƏ** (*köhn.*) [Varaz:] İlk *həmlədə* düşmən iki yüz, bizdən isə üç yüz igidin qanı Kür çayının sularını qırmızı rəngə boyadı (M.Hüseyn); **TƏCAVÜZ** (*başqasının torpağına, sahəsinə zorla edilən hücum*) Sultanın və paşanın atlıları "Bu gündən əlimizdən gələni əsirgəməyin" ixtiyarını verməkləri kəndi bir *təcavüz* meydangahına çevirmişdi (S.Rəhimov). **TƏƏRRÜZ** (*köhn.*) Siyasi cəhətdən isə iqtisadi şəkli etibarilə özlərindən irəli olmayan çinlilərin *təərrüzündən* qurtarmaq üçün islam orduları [Əmir Qutəybənin sərkərdəliyi ilə] bir iltİcagah gördülər (A.Şaiq).





**hücumavər** *bax* hücumçu 1

1. **HÜCUMÇU** (*hücum edən*) Yenə *hücumçular* hücuma keçir; Faşist soldatını əkini biçir (M.Rahim); **HÜCUMAVƏR** (*köhn.*) Xuruşan mövclər hər səmtdən yeksər *hücumavər*, Görüb əmvacı kəştidən ucaldı: vay, hürriyyət! (M.Ə.Sabir); **HƏMLƏVƏR** Qovzadı yerdən başın od hədgübər; Oldu vəlinemətinə *həmləvər* (A.Səhhət)

2. **HÜCUMÇU** (*idm.*) Qapıçı qapı qabağında; *hücumçular*, qoruyucular; yuranı da, bütövü də tərini silə-silə; qaçır belədən-belə (R.Rza); **FORVARD**.

**hüd-hüd** *bax* şanapipik

1. **HÜDUD** İnsan səbrinin də müəyyən *hüdudu* varmış (M.Hüseyn). **HƏDD-HÜDUD** Dəmirin və dəqiqə sevincinin *hədd-hüdudu* yox idi (Ə.Vəliyev); **SON**.

2. **hüdud** *bax* sərhəd

**hüdudsuz** *bax* ucsuz-bucaqsız

**HÜQUQ** [Ruzbeh:] Hətta, o qədər mərhəmətli və yumşaq bir adamam ki, mənim şəxsi *hüquqlarımı* və ixtiyaratımı məhdudlaşdırıb öz xeyrinə istifadə edənləri belə ürəyimdə kin bəsləyə bilməmişəm (M.İbrahimov). **HƏDD** [Kərim Məşədi Qurbana:] Heç vaxt sənin *həddin* yoxdur ki, o qıza böyüklük edəsən! (M.F.Axundzadə); **İXTİYAR** ..kapitan onları başa saldı ki, özü arzu etsə də, buna *ixtiyarı* yoxdur (M.Rzaquluzadə); **İXTİYARAT** Bu gündən Əkbər hər bir *ixtiyaratı* əlinə alıb Hacı Xəlil mərhumun məsnədində əyləşdi (Ə.Haqverdiyev); **SƏLAHİYYƏT** (*bax*).

**hümmət** *bax* səy

**hülqum** *bax* boğaz 1

**hülqumlanmaq** *bax* boğazlanmaq

**hündür** *bax* 1. uca 1. 2. ucaboy(lu)

**hündürboy(lu)** *bax* ucaboy(lu)

**hündürdən** *bax* ucadan

**HÜNƏR, RƏŞADƏT** Səadət, azadlıq, *rəşadət, hünər* Bunlarla bərabər bəxtiyar bəşər (M.Rahim). **BACARIQ** [Ayxanım:] Heyifsən, görkəmin, *bacarığın*, qabiliyyətin



var, amma inadın, ağlın... (M.İbrahimov); **KİŞİLİK** [Fərhad:] Hər kəsdə azərbaycanlı qanı varsa, bu gecə *kişilik* göstərməlidir (Ə.Vəliyev); **MƏHARƏT** Xilsəsən cavanlar, həddi-büluğa, ərgənliyə çatmayanlar da öz *məharətlərini* göstərməyə müvafiq dövr yay mövsümünü hesab edirlər (B.Bayramov); **ŞÜCAƏT, CƏSARƏT** [Vəzir:] Harun *şücaət* və *cəsarətdə* ad qazanmış bir pəhləvandır (Ü.Hacıbəyov).

**HÜNƏRLİ** Mikayılla İsmayıl kimin *hünərli* olmasını böyük qardaşlarına göstərmək üçün bəhsə girmişdilər (H.Abbaszadə); **HÜNƏRMƏND** (*kl.əd.*) Biz qocа qafqazlı igid ərlərik; Cümlə *hünərməndlərik*, nərlərik (M.Ə.Sabir); **HÜNƏRVƏR** Nəzmü təbdə *hünərvərsən*; Ya ki, bir şairi süxənvərsən (A.Səhhət); **CƏSARƏTLİ, CƏSUR, CÜRƏTLİ, İGİD** (*bax*), **QOÇAQ**.

**hünərvər** *bax* hünərli

**hünü** *bax* ağcaqanad

**hürkmək** *bax* qorxmaq

**hürkü** *bax* qorxu

**HÜRMƏK** (*itlərə aid*) Arabanın səsini eşidən itlər hər tərəfdən *hürməyə* başladılar (T.Ş.Simürğ); **HAVLAMAQ** Bu nəhayətsiz, uzaq səhrada; Təpədən bir köpəyin *havlaması*; Onu diksindirdi (S.Rüstəm).

**hürr** *bax* azad

**hürriyyət** *bax* azadlıq

**hürriyyətpərəst** *bax* azadlıqsevən

**hürriyyətpərvər** *bax* azadlıqsevən

**hürufat** *bax* əlifba

**HÜSN-RƏĞBƏT** [Əbülhəsən bəy:] O, inqilaba qarşı ona görə *hüsn-rəğbət* bəsləyirdi ki, inqilabın Rusiya və İngiltərə əleyhinə işlədiyini görürdü (M.S.Ordubadi); **HÜSN-TƏVƏCCÖH** [Əbülhəsən bəy:] Lakin quru *hüsn-təvəccöh* bəsləmək inqilabçılıqdan çox uzaqdır (M.S.Ordubadi); **İLTİFAT** Qarı Aqilin ürək tərpədən *iltifatına* qarşı indi heyran-heyran baxır (S.Rəhimov); **ÜLFƏT** Həkimlə xəstə arasında qəribə *ülfət* yaranmışdı (B.Bayramov); **XOŞ MÜNASİBƏT**.

**hüsn-təvəccöh** *bax* hüsn-rəğbət

**hüzn** *bax* qəm

**hüznavər** *bax* qəmli

**hüznlü** *bax* qəmli; həzin

**hüzur** *bax* ön

yazdığı dərmanı anama çətinliklə içirirdim. *Çimçişirdi – ürəyi götürmürdü* (Mir Cəlal); **DİKSİNMƏK.**

1. **İZ** (*müxtəlif mənalarda*) ..torpağın üzərində təzəcə ceyran *izləri* aydın görünürdü (M.Rzaquluzadə); **LƏPİR** *Ləpirlər* salaraq uzağa getdin; Bilib görmədiyin torpağa gəldin (M.Rahim). **RƏD** (*dan.*) Çayın üstündə köhnə, dar bir körpü vardı, üstündə isə mal-qara *rəddindən* başqa heç bir təkər-filan izi görünmürdü (İ.Əfəndiyev).

2. **iz** *bax* nişanə 1

**İZAH** [Arif:] Artıq yetişir, anladım, *izaha* nə hacət (H.Cavid); **TƏFSİR** Bu avamlıqla belə hər sözü *təfsir* edərik (M.Ə.Sabir). **BƏYAN** Bir aləmdir o, təsvirə, *bəyana* sığmaz (R.Rza); **KOMMENTARİYA. ŞƏRH.**

**İZAH ETMƏK. BƏYAN ETMƏK. TƏFSİR ETMƏK. ŞƏRH ETMƏK.**

**İZAHAT. İFADƏ. MƏLUMAT**

1. **İZDİHAM** *İzdiham* irəli axdıqca atlı kazakların hücumu daha da şiddətlənirdi (M.Hüseyn). **AXIN** Mən indi özümü bu *axından* ayrı təsəvvür etmirəm (M.Hüseyn). **QƏLƏBƏLİK** Böyük *qələbəlik* içində rüxsarə onların hər ikisini gözdən itirir (S.Rəhimov). **TÜNLÜK** ..istirahət günləri çox *tünlük* olur (M.Rzaquluzadə). **GUR. BASIRIQ** (*bax*)

2. **izdiham** *bax* camaat

**İZDİHAMLI** Yunis həyət qapısından şəhərin geniş, *izdihamlı* küçələrinə çıxdı (Mir Cəlal). **BASIRIQ** Mədənin qapısı çox *basırıq* idi (M.S.Ordubadi). **ÇOXADAMLI. İZDİHAM** (*bax*)

**izdivac** *bax* nikah

**İZHAR. ƏRZ** (*kl. əd.*) (*aşkar etmə*)

**İZİN** [Hacı:] Mən sənin ağandan *iznini* alaram (Ə.Haqverdiyev). **İCAZƏ** [Fəttah:] *İcazəni* mən alaram (B.Bayramov); **MÜSAİDƏ** Qapıçı telefonla müdirdən *müsaidə* istəyib səyyarları içəri buraxdı (Çəmənzəminli); **RÜXSƏT** (*kl. əd. köhn.*) İbrahim xanın qoşunu pusquda idi, tüfəng atmağa *rüxsət* verilməmişdi (Çəmənzəminli); **VİZA** (*xarici ölkəyə getmək, orada yaşamaq üçün pasporta qeyd edilən rəsmi icazə*) Miss Hannanın pasportuna Culfa jandarm polkovniki Ştraub *viza* etmişdi (M.S.Ordubadi).

**İZİN ALMAQ. İCAZƏ ALMAQ. İZİN İSTƏMƏK. RÜXSƏT ALMAQ**

**İZİN VERMƏK. İCAZƏ VERMƏK. RÜXSƏT VERMƏK**

**İZİNLİ** (*icazəsi olan*). **İCAZƏLİ. MÜRƏXXƏS. RÜXSƏTLİ**

**İZİNSİZ** (*icazəsi olmadan*) [İlyas:] Katibədən *izinsiz* masanın qarşısındakı kürsüdə əyləşdim (M.Hüseyn); **BİİZN.** Gələn həftə Əkbər Rüstəmə xəbər verdi ki, axşam məclisi tərtib edəsin və axşamı anasından *biizn* evdən çıxıb [gəlsin] mehmanxanaya.. (Ə.Haqverdiyev); **İCAZƏSİZ** *İcazəsiz* ştabı tərk etməyin! (Ə.Məmmədxanlı); **RÜXSƏTSİZ** [Psixiatr:] Mən sizdən çox üzr istəyirəm ki, *rüxsətsiz*, həm də gecənin bu vaxtında öz açarımla qapını açıb mənzilə girmişəm (Anar).

1. **İZLƏMƏK** Yerdə qalanları da Məmməd bəyin nökərləri *izləyib* qılıncından keçirirdi (Çəmənzəminli); **ARXASINCA DÜŞMƏK** Mədəd naharını qurtarıb qapıdan çıxdı. Kosa onun *arxasınca düşdü* (S.Rəhimov); **DABANLAMAQ** (*addım-addım izləmək*) Yüzlərlə adam bir-birini *dabanlayırdı* (S.Rəhimov); **GİRLƏMƏK** [Mindilli:] Zərifə, nə .. *girləmisən* məni? (S.Rəhimov). **TƏQİB ETMƏK/ELƏMƏK** [Həmid:] Bəyəm ancaq inqilabçıları *təqib eləyirlər*? (H.Abbaszadə); **ARDINA DÜŞMƏK.**

2. **izləmək** *bax* pusmaq

**iztirab** *bax* əzab; təşviş

**iztirablı** *bax* əzablı; təşvişli

**izzət** *bax* hörmət, şərəf 1

**izzəti-nəfs** *bax* heysiyyət

**izzətli** *bax* hörmətli

**izzətsiz** *bax* hörmətsiz







# Jj

**jalə** *bax* şeh

**jokey** *bax* minici

**julik** *bax* 1. oğru; 2. fırıldaqçı

**JURNAL** [Yavər və Mədinə] söhbət edir, radioya qulaq asır, balaca Leyla ilə oynayır, qəzet və *jurnal* oxuyurdular (M.İbrahimov); **MƏCMUƏ** [Cəlil] qəzet, *məcmuə* alıb bufetə girdi və yeməyə məşğul oldu (S.S.Axundov); **RİSALƏ** (*köhn.*) Təmə – bir yazının, bir məqalənin ünvanıdır; məsələn, bir *risalənin* mövzusu yatalaq xəstəliyidir. Yatalaq xəstəliyi bu *risalənin* təməsidir (C.Məmmədquluzadə); **DƏRGİ** Siz ey bu dünyanın söz *dərgiləri*; Dünyanın qəzetçi xəbərçiləri! (M.Araz).

**jurnalçı** *bax* jurnalist

**JURNALİST** [Elsevər:] Nə yaxşı, deməli, siz də *jurnalist* olmaq fikrindəsiniz (Ə.Qasımov); **JURNALÇI** (*dan.*) [Mina xanım:] *Jurnalçıya* bax! Ölmüşdü Mina xanım, bir də özünü qəzet-*jurnalçı* əlinə verməl (M.İbrahimov); **QƏZETÇİ** (*dan.*) Bu *qəzetçilər* deyilmi ki, salıb bizi bəlayə? (M.Ə.Sabir); **MÜHƏRRİR** (*köhn.*) [Əbülhəsən bəy:] Çox sevdiyim və *mühərrirlərini* tanımadığım "Səyahətnamə"nin insanı güldürə-güldürə ağladan məzmununu dərhal xəyalımdan keçirdim və ixtiyarsız olaraq gözlərim yaşardı (M.S.Ordubadi).

**JÜRİ** [Kamil:] Mən *jürinin* üzvüyəm, konkursda iştirak edə bilmərəm (M.Hüseynov); **HƏKƏM** (*köhn.*) Yalnız bir ağsaqqal qayduya baxırdı. Bu *həkəm* imiş (Çəmənzəminli); **MÜNSİFLƏR HEYƏTİ** Aşağıda, meydançanın yanında üstünə qırmızı örtük salınmış uzun stolun ətrafında *münsiflər heyəti* əyləşmişdi (Ə.Qasımov).

**KİBRİT** Mən *kibrit* çəkib diqqətlə ona baxdım (M.İbrahimov); **ALIŞQAN** Salalı *alışqanını* yandırıb işıqda saatına baxdı (H.Abbaszadə); **SPİÇKA** (*rus., dan.*) İkinci strajnik təkrar *spiçka* yandıraraq diqqət etdi (S.Rəhimov).

**kibrli** *bax* lovğa

**KİÇİCİK, ÇOX BALACA, UFACIQ**

**kiçik** *bax* balaca

**kiçikyaşlı** *bax* azyaşlı

**kiçilmək** *bax* balacalanmaq

**kif** *bax* sifilis

**KİFAYƏTLƏNMƏK** [Firəngiz:] Mən əgər məlumatla *kifayətlənsəydim*, iş-gücün bu vaxtında, bu qədər dolama yolda maşın çapmazdım (B.Bayramov). **İKTİFA ETMƏK** [Rüstəm bəy:] Hər ağ şara bir manat istəməyə haqqım var, onu dedim ki, hesabını itirmişəm, ona görə 80 manat *iktifa edirəm* (S.S.Axundov); **QANE OLMAQ** Leytenant xəyalında kapitanı dinləyir, onun dəlil və sübutları ilə *qane olmayaraq* ürəyində kəskinliklə danışırdı (Ə.Əbülhəsən); **QƏNAƏTLƏNMƏK** Atabəy bu məktubla da *qənaətlənmədi* (M.S.Ordubadi).

**KİLİD** [Əziz] qapını tələsik açıb Ramizin velosipedini dəhlizin divarına söykədi və tez *kilidi* bağladı, sanki kimsə onu təqib edirdi... (H.Abbaszadə); **QIFIL** Dördkünc balaca həyətin sol əlindəki mənzilin qapısı bağlı idi. Balaca girdə *qıfıl* vurulmuşdu (M.İbrahimov).

**KİLİDLƏMƏK** (*kilidlə bağlamaq*) Şəkər qapını cəld *kilidləyib* hakimin arxasınca getdi (B.Bayramov); **BAĞLAMAQ** [Növrəstə:] ...bir də görəcəksən, gəldi qapını *bağladı* (Ə.Haqverdiyev); **QIFILLAMAQ** [Səftər:] ...otaqdan çıxır, qapını örtür, *qıfıllayır*.. (Anar).

**KİLİDLƏNMƏK, BAĞLANMAQ, QIFILLANMAQ**

**KİLİDLİ, QIFILLI, BAĞLI**

**kilo** *bax* kiloqram

**KİLOQRAM** (*çəki ölçüsü: 1000 qram*) [Bəsti:] Şum zamanı hər hektar yerə yüz *kiloqram* azot və yüz kiloqram fosfor səpirik (Ə.Sadıq); **KİLO** 200 kiloqram çoxdur. 100 *kilo* eləyin (Q.Xəlilov).

**KİLSƏ** (*xristian məbədi, ibadətgahı*) Pavluşa ilə Əlisgər hamıdan qabaq gəlib *kilsənin* tinində durmuşlar (M.S.Ordubadi); **DEYR** (*kl.əd.*) [Hüseyn Xan:] ...Axırda yetişdik bir deyrə, rahiblər qaçmışdılar, *deyr* boş idi (Ə.Haqverdiyev); **KƏLİSA** (*köhn.*) Keçmişdən əsər var hələ; Uzaqda çalınır *kəlisa* zəngi (S.Vurğun); **MONASTIR**.

**1. KİMSƏSİZ** [Həkim] həm müalicə elədi, həm də *kimsəsiz* oğlanın kimsəsi oldu (B.Bayramov); **ADAMSIZ** Zavallı bu kənddə özü kimi qərib və *adamsız* idi (S.Hüseyn); **QƏRİB, BİKƏS** *Qərib* öldüm, *bikəs* öldüm, yad öldüm (M.V.Vidadi).

**2. kimsəsiz** tənha 1

**KİN, ƏDAVƏT** Onda savadlı və bacarıqlı adamlara qarşı sönmək bilməyən bir *ədavət* yarandı. Bu *kin* ona özünəməxsus bir fəlsəfəyə əsaslanırdı (Y.Şirvan); **BÜĞZ** (*kl.əd.*) Beynimizdə yox ikən bir gunə əsbabi-təzad: Bu vətən övladınə ariz olub *büğzi* inad.. (M.Ə.Sabir); **KÜDURƏT** [Xədicəyə] qarşı bəslədiyim *küdurəti* unutdum (M.Hüseyn); **NİFRƏT** *Nifrət!* Qan çanağı təclərə *nifrət!* (S.Vurğun); **ACIQ** (*bax*).

**kinayə** *bax* 1. istehza; 2. masqara

**1. KİNEMATOQRAF, SİNEMATOQRAF** (*köhn.*) ..biz *sinematoqrafa* getdik, şəklə baxdıq (Çəmənzəminli).

**2. kinematoqraf** *bax* kinematoqrafiya

**KİNEMATOQRAFİYA** (*kino sənəti*) Dövlət milli *kinematoqrafiyanın* inkişafına xüsusi qayğı göstərir (Qəzetlərdən); **KİNO** Hələ 1927-1928-ci illərdə Cabbarlı *kino* sənəti ilə maraqlanmağa başlamışdır (M.Arif); **KİNEMATOQRAF**.

**KİNLİ** Gah kütləyə baxır, gah Səriyyəyə... *Kinli* baxışlara gətirməyib tab; Əmr edir: "Susdurun, qurtarın!" – deyə (H.Billuri); **ACIQLI** [Əhməd:] Hər ikisi *acıqlı* baxışlarla Məhərrəm əmini süzdükdən sonra, həmin kişi dönərək: "Ey, qoca şeytan, küfr danışma, başını əzərəm!" – dedi (A.Şaiq); **HİDDƏTLİ** (*bax*).

**kino** *bax* 1. kinematoqrafiya; 2. kinoteatr; 3. film





**kinofilm** *bax* film

**kinolent** *bax* film

**kinoşəkil** *bax* film

**KİNOTEATR** (*kino vermək üçün xüsusi bina*) Yarım saatdan sonra isə *kinoteatrda* "Dəfinələr adası" bədii filmi göstəriləcəkdi (H.Abbaszadə); **KİNO** [Şuşanın] məktəbləri, texnikumları, teatrı, *kinosu*, gözəl sanatoriləri, istirahət evləri, hir mədəni ocağı var!.. (Ə.Sadıq).

**kiosk** *bax* köşk 1

**kiparis** *bax* sərv

**kir** *bax* çirk 1

**KİRAYƏ** [Student:] Otaq buradamı *kirayə* verilir? (Çəmənzəminli); **İCARƏ** (*bir şeyin müəyyən müqabilində müvəqqəti olaraq istifadəyə verilməsi*) Tifil ikən baxdım ağa, qaraya; Qəmdən yük götürdüm mən *icarəyə* (Molla Cümə); **KİRƏ** Hacı Sultan iki evindən aldığı *kirələrin* sayəsində rahatlıqla keçinirdi (S.Hüseyn).

**KİRAYƏÇİ** [Xanım qulluqçuya:] Liza, daha bundan sonra evdə yalnız qaldıqda darıxmayacağıq; təzə *kirayəçi* öz ölkələrindən bizə nağıl edəcək.. (Çəmənzəminli); **KİRAYƏNİŞİN** Sərvinazın qışqırığına *kirayənişinlər* – naxçıvanlı qızlar da gəldilər (H.Abbaszadə); **KİRƏÇİ** Mirzə Qədir evindəki *kirəçilərdən* heç birini dışarı çıxara bilməyəcək (S.Hüseyn); **KİRƏKEŞ** (*köhn.*) [Gəmiçi:] Sözüm yoxdur, biz *kirəkeş* babayıq (M.Rzaquluzadə).

**kirayənişin** *bax* kirayəçi

**kirdar** *bax* 1. iş 1; 2. güc; 3. səbir 1; 4. davranış

**kirdarsız** *bax* 1. bacarıqsız; 2. səbirsiz

**kirə** *bax* kirayə

**kirəçi** *bax* kirayəçi

**kirəkeş** *bax* kirayəçi

**kirimək** *bax* sakitləşmək 1; susmaq

**kirli** *bax* çirkli

**KİRPİK** Uzun *kirpikləri* yaşlara batmışdı (Çəmənzəminli); **PEYKAN** (*kl.əd.*) Əlhəzər yay qışın şux *peykanından*; Vurar yıxar, ölmək olmaz yanından (Q.Zakir).

**kirşan** *bax* pudra

**kirşanlamaq** *bax* pudralamaq

**kirşanlanmaq** *bax* pudralanmaq

**kirşanlı** *bax* pudralı

**kisə** *bax* 1. torba; 2. portmanat; 3. cib

**kisvət** *bax* paltar

**1. KİŞİ** [Qəribə:] Sən elə bilirsən ki, *kişilər* yerə göydən nazil olan bir mələkdir (M.S.Ordubadi); **BAŞIPAPAQLI** (*dan.*) Bir dəqiqədə məhəllənin bütün *başıpapaqlılarını* topladı (M.Hüseyn); **ERKƏK** (*köhn.*) Qadınların önündə bu gün geniş bir yol var; *Erkəklərlə* bir sırada o çalışar, çapalar (A.Şaiq); **MƏRD** Üç nəfər *mərd* sahibi – iyman; Üçü bir yerdə etdilər peyman (Q.Zakir).

**2. kişi** *bax* ər 1

**kişilənmək** *bax* 1. xoruzlanmaq; 2. kişilənmək

**KİŞİLƏŞMƏK** (*yetkinləşmək*), **KİŞİLƏNMƏK**

**kişilik** *bax* 1. mənəmlik 1; 2. igidlik; 3. qeyrət 1

**KİŞMİŞ** (*üzüm qurusu*); **MÖVÜC** Bəs mərmər *kişmişi*, qara *mövücü*; Badamı, püstəsi hanı bağların? (Ə.Cəmil).

**kişvər** *bax* ölkə 1

**kit** *bax* balina

**1. KİTABÇA** (*balaca nazik kitab*) Bir əlində *kitabça*, bir əlində yasəmən; Məhəmməd asta-asta qayıdır mədrəsədən (B.Vahabzadə); **BROŞÜRA** Xeyli tər töküb axtarandan sonra iyirmi-otuz səhifəlik *broşüradan* zaddan bir şey tapır.. (V.Babanlı); **RİSALƏ** (*köhn.*) Çünki böyük bir məsələ barəsində fikir və rəyi iki *risalə* vasitəsilə bəyan etmək mümkün deyil idi (Çəmənzəminli).

**2. kitabça** *bax* bilet 2

**KİTABŞÜNAS, BİBLİOQRAF**

**KİTABŞÜNASLIQ, BİBLİOQRAFİYA, KİTABİYYAT**

**klassifikasiya** *bax* təsnifat

**klassifikator** *bax* təsnifatçı

**klaviş** *bax* dil 11

**kley** *bax* yapışqan

**klizma** *bax* imalə

**KNYAZ** (*köhn.*) (*vilayət hakimi*) Rəhimə, cəvr edir hər dəm mənə bir nağılay *knyaz;* Gahi Tərxan, gah Cəfərqulu, gahi Xasay *knyaz* (Q.Zakir); **RACƏ** (*köhn.*) Misal üçün İngiltərəni götürəlim: Şərqin bir çox ölkələri İngiltərə müstəmləkəsidir, lakin ingilis əlində olan bütün ölkələrin öz sultanı, padşahı, əmiri, *racəsi,* mehrazəsi öz yerindədir (M.S.Ordubadi).

**1. KOBUD** Kərim tək qalanda hiss edirdi ki, o, Könülə qarşı *kobud* hərəkətdə olmuşdu (X.Hasilova); **KƏLƏ-KÖTÜR** Dəmirçioğlu baxdı ki, [Koroğlu] bir yekəpər, *kələ-kötür* adamdı.. ("Koroğlu"); **KÖNTÖY** [Həmidə:] Elə *köntöy* niyə cavab verirsən, qızım, özü də təzə il gecəsi (Anar); **QABA** (Xavər) Sən, bu *qaba* hərəkətində müqəssirsən (M.Hüseyn); **SƏRT** Həsən müəllim bərk əsəbiləşsə də, Paşa əmiyə hörmət etdiyindən bu dəfə də onunla *sərt* rəftar etmədi (A.Şaiq).

**2. KOBUD, GÖNÜQALIN** (*məc.*), **QANACAQSIZ, QALIN** (*məc.*), **QANMAZ** (*bax*)

**KOBUDLUQ** [Muxtarın] göyçək, iri gözlərində kişi zəhmi, qarabuğdayı sifətində yaraşıqlı bir sərtlik, *kobudluq* vardı (B.Bayramov); **KÖNTÖYLÜK** Yoldaş Fətullayev.. bu tərəfin camaatının sərt və *köntöylüyünü* bilirdi (İ.Şıxlı); **QABALIQ** Yoldaşlarla söhbət etmək, yatarkən xoruldamaq sizcə *qabalıqdırmı?* (A.Şaiq).

**kol-kos** *bax* çalı

**I koma** *bax* qalaq

**II koma** daxma

**kombinasiya** *bax* fənd 1

**KOMEDİYA** (*gülməli dram əsəri*) Qədim vaxtlarda *komediyanı* yunanlar gülüş üçün çıxardırlardı.. (N.Nərimanov); **MƏZHƏKƏ** [Aslan:] İkinci hissədə xalq teatrının artistləri sizə "Hamlet tələsi" adlı kiçik bir *məzhəkə* göstərəcəklər (M.İbrahimov); **DRAM** (*bax*).

**komik** *bax* məzəli 1

**kommentariya** *bax* izah

**kommersant** *bax* işbaz; tacir

**kommersiya** *bax* ticarət

**kommunikasiya** *bax* 1. rabitə 1; 2. ünsiyyət 1

**kommunist** *bax* partiyaçı

**KOMPAS** (*gəmiçilikdə, hava nəqliyyatında uzaq bir yerə getmək üçün səmt təyin edən cihaz*) O, sağ tərəfdən bir durbin və sol tərəfdən balaca bir sumka asdığı kimi döşündə də bir bağlama *kompas* (qiblənüma) sallamışdı (M.S.Ordubadi); **QİBLƏNÜMA** (*köhn.*) [Turab:] ..gərək onda deyəsiniz ki, dənizə balıq ovuna çıxmışıq, *qiblənüməmiz* yoxdur, yolu azmışıq (H.Abbaszadə).

**KOMPLEKT, DƏST**

**kompot** *bax* xoşab

**KOMPOZİSİYA** ..bu əsərin orijinal *kompozisiyası,* son dərəcə bədii və bitkin obrazları vardır (M.Məmmədov); **QURULUŞ** "Antonio və Kleopatra" tamaşasının musiqisi də *quruluşun* şərtilik ünsürləri ilə zəngin realist üslubuna müvafiq olmalı idi (C.Cəfərov); **TƏRTİBAT** Məktubda qeyd olunduğu kimi, hər şeydən tamaşanın ümumi üslubu, quruluşu, *tərtibatı* öz təzəliyi, sadəliyi və gözəlliyi ilə diqqəti cəlb edir (M.Arif)

**kompozitor** *bax* bəstəkar

**kompozitorluq** *bax* bəstəkarlıq

**konkurs** *bax* müsabiqə

**KONSERT** [Anaqız:] Bir axşam klubda *konsert* verdik (Ə.Vəliyev); **MÜSAMİRƏ** (*köhn.*) O gün axşam *müsamirədən* çıxarkən Eldar bizimlə görüşüb ayrıldı (M.Hüseyn).

**konspirativ** *bax* gizli 1

**KONSTİTUSİYA** (*hər hansı bir dövlətin, dövlət quruluşunun ali qanunu*) [Səlimə:] Yoxsa *Konstitusiyada* hüquqlarımız başqa başqadır? (İ.Əfəndiyev); **ƏSAS QANUN** [Qızıl Arslanın Atabəy Məhəmmədə göndərdiyi məktubdan:] Quranın *əsas qanun* götürüldüyü bir məmləkətdə ruhaniləri hökumətin idarə işlərindən uzaqlaşdırmaq mümkün olmaz.. (M.S.Ordubadi); **QANUNİ-ƏSASİ** (*köhn.*) Vermişdi atam gor sizə *qanuni-əsasi,* Bir molla kişiydi, var idi hilmi, həyası (M.Ə.Sabir); **MƏŞRUTƏ** (*tar., köhn.*) Həmin o *məşrutə* istəyən budu? (Mir Cəlal)





**KONSULTASİYA, MƏSLƏHƏT**

**kontinent** *bax* qitə 1

**kontrakt** *bax* müqavilə

**kontrol** *bax* nəzarət

**kontrolçu** *bax* nəzarətçi 1

**kontrolsuz** *bax* nəzarətsiz

**kontrolyor** *bax* kontrolçu

**konvensiya** *bax* müqavilə

**konvert** *bax* zərf

**kopiya** *bax* surət 2

**koppuş** *bax* tətuq

**korazehin** *bax* kütbeyin

**koridor** *bax* dəhliz

**KORLAMAQ, XARAB ETMƏK/ELƏMƏK, ZAY ETMƏK/ELƏMƏK**

**KORREKTOR** (*mətb., qəzetdə, kitabda, jurnalda və s.-də səhvlərin düzəldilməsini korrektura edən*) 1927–1937-ci illərdə Ə.Vahid əvvəlcə "Azəməşr"də *korrektor,* sonra isə "Kommunist" qəzeti redaksiyasında kütləvi işçi kimi çalışmışdır; **MÜSƏHHİH** (*köhn.*) Növbətçilər və *müsəhhihlər* səhifələri oxuyur, hər sözə, hər zərfə diqqət yetirirdilər (Ə.Qasımov).

**KORREKTORLUQ, MÜSƏHHİHLİK**

**korrupsiya** *bax* rüşvətxorluq

**korş** *bax* küt 1

**korşalmaq** *bax* kütləşmək

**koruxmaq** *bax* sağalmaq

**kos** *bax* top

**kosa** *bax* hoqqabaz 1

**KOSMONAVT** *Kosmonavtlar* uçub dönmüşlər geri; Uzaq göylə yaxın dost edib bizi (M.Rahim); **ASTRONAVT** (*ABŞ-da və bəzi ölkələrdə işlədilir*) Amerika *astronavtları* Yer ətrafı orbitdə 84 gün – 1973-cü il noyabrın 16-dan 1974-cü il fevralın 8-dək qalmışlar (Qəzetlərdən).

**KOSMONAVTİKA, ASTRONAVTİKA**

**kovxa** *bax* kəndxuda, yasavul

**köbə** *bax* haşiyə

**KÖÇƏBƏ** Amma *köçəbə* tayfalar arasında ..qudalıq əvəzinə nişanbazlıq adəti vardır (R.Əfəndiyev); **BƏDƏVİ** [İxtiyar:] Oğlum, mədəni aləmi nifrətlə buraxdın; Gəldin şu cədəlsiz, *bədəvi* aləmə çıxdın (H.Cavid); **ÇÖLLÜ** Xoş keçmədi il *çöllüyə,* dehqanə, nə borcum? (M.Ə.Sabir); **ELAT** [Soltan:] Çoxdan buralara *elat* gəlmədiyi üçün koklik çoxalıb (İ.Əfəndiyev); **KÖÇƏRİ** (*məc.*) Kürün sahili *köçərilərin* düşərgəsinə çevrilmişdi (İ.Şıxlı); **OBA** Hər il bu zaman yolun ətəklərinə qədər çadırlar, *obalar* düşərmiş (Mir Cəlal).

**köçəri** *bax* 1. tərəkəmə; 2. köçəbə

**1. KÖÇMƏK** (*köçüb başqa yerə getmək*) Sabahısı günü Ağca xanım anası ilə şəhərə *köçdü* (S.S.Axundov); **DAŞINMAQ** Student xanımla vidalaşaraq iki gündən sonra *daşınacağını* bildirdi (Çəmənzəminli); **YIĞIŞMAQ** Bir həftədən sonra eşitdim ki, Xeyransanın talağını verib, *yığışıb* gedib İran vətəninə (C.Məmmədquluzadə).

**2. KÖÇMƏK** [Vəzir:] [Xan] ..mənə buyurdu ki, bir həftəyədək onun [Nisə xanımın] *köçmək* tədarükünü gör! (M.F.Axundzadə); **ƏRƏ GETMƏK** [Pəri:] Fəqət *ərə getmək* asanmı? (C.Cabbarlı).

**3. köçmək** *bax* ölmək

**1. KÖÇÜRMƏK** [Sənəm:] Qız ki, dingildədi, gərək *köçürəsən* getsin (M.İbrahimov); **ƏRƏ VERMƏK** [Sərvər:] Yox, mən eyləmirəm. Rüstəm bəy Gülnazı özgəsinə *ərə verir* (Ü.Hacıbəyov).

**2. KÖÇÜRMƏK, SURƏTİNİ ÇIXARMAQ, ÜZÜNDƏN YAZMAQ**

**1. KÖHNƏ** (*müxtəlif mənalarda*) Yalnız mənim sevgilimin mahnısını dinləyir; Bu yerlərdə *köhnə* həyat can çəkişir, inləyir (A.İldırım); **ƏSKİ** [Uşaqlar:] Hey son, hey *əski* dünya, təslim ol! Sənə qarşı yürüş var (M.Müşfiq); **QƏDİM** (*məc.*) [Hacı Murad:] Məhərrəm bəy, ..*qədim* dostunuzu yadınıza saldınız (S.S.Axundov); **QƏDİMİ** [Davud:] Xarab olan *qədimi* saatımı dükana düzəltməyə gətirmişəm (H.Abbaszadə).

**2. köhnə** *bax* nimdaş

**3. köhnə** *bax* sabiq

**4. köhnə** *bax* arxaik

**5. köhnə** *bax* boyat

**köhül** *bax* mağara

əmmamələrini düzəldib ağ eşşəklərə *suvar oldular* (M.S.Ordubadi).

**MİNNƏTDARLIQ** [Həmid:] Mən Bakıda olmayanda siz anamgilə əl tutmusunuz, o, yaxşılıqlar üçün mənim və anamgilin *minnətdarlığını* qəbul edəyin.. (H.Abbaszadə); **ŞÜKRAN** Sən azad eylədin qədimdə hürriyyətpərəstanı, Sənə ləbrizi-*şükrandır* bütün əhrar, hürriyyət (M.Hadi); **ŞÜKÜR** Sənə min *şükür!* (Çəmənzəminli); **TƏŞƏKKÜR** Aydın *təşəkkür* dolu nəzərlə qıza baxdı (H.Seyidbəyli). **MƏMNUNLUQ** (*bax*).

**MİNNƏTSİZ** (*heç bir minnəti olmamaq*) Kəndin hər bir xeyir işində gedib *minnətsiz* kömək edirdi (T.Ş.Simürğ). **BİMİNNƏT** Cahan mümkündə. Seyyid, yoxdu bir *ehsani-biminnət;* Şikəstə xatirə səbr eyləyib, ol mumiyadən keç (S.Ə.Şirvani).

**MİNOMYOT** (*mina atan silah*) [Zeynal:] Top, *minomyot* mərmiləri dörd tərəfdən partlayıb toz-torpağı sovuşdurdu (B.Bayramov); **MİNASAÇAN** Düşmən.. top və *minasaçan* atəşini əsirgəmədi (Ə.Əbülhəsən); **MİNAATAN**.

**minval** *bax* üsul

**miralay** *bax* polkovnik

**MİRAS** (*övlada və qohuma qalan mal-mülk*) Dostlar! İçin yurdumun ətirli şərbətindən; Bu adət babalardan bizə *miras* qalıbdır (M.Rahim); **İRS** Bağışlayın, başağrısı olur, əmlakın bir hissəsi *irs* qalıbdır, qalanını ağa özü ələ gətirib (Ə.Haqverdiyev); **BABADANQALMA**.

**mirqəzəb** *bax* cəllad

**mirvari** *bax* inci

**1. MİRZƏ** [Nisə xanım:] Onun ağzı deyil mənim *mirzəmi* qovdura (M.F.Axundzadə); **KARGÜZAR** Yarın icraiyyə komitəsinin sədri idarədən bir *kargüzar* göndərmişdi (T.Ş.Simürğ); **KATİB** Atabəy öz *katibi* kiçik Buğanı çağırıb tapşırdı: - Həbsə alınan caniləri möhkəm saxlayın (M.S.Ordubadi).

**2. mirzə** *bax* müəllim

**1. MİRZƏLİK** [Hacı Həsən:] Divanxanalarda heç *mirzəliyə* də götürmürlər (C.Məmmədquluzadə); **KARGÜZARLIQ** [Əhməd:] ..gərək siz bu bəyə lazımınca kömək edəsiniz, işlərinə *kargüzarlıq* buyurasız (N.Vəzirov); **KATİBLİK** Kəndi məsləkimə neçin zidd gedim; Yaxşısı budur ki, *katiblik* edim (M.Müşfiq).

**2. mirzəlik** *bax* müəllimlik

**1. MİSAL, MƏSƏLƏ** (*riyaz.*)

**2. misal** *bax* nümunə

**3. misal** *bax* məsəl

**miskin** *bax* **1.** bədbəxt; **2.** bacarıqsız

**misl** *bax* tay **1**; oxşar

**MİSMAR** Göy üzünə mıxlanmış bir qızıl *mismar* kimi; Bəzən də parçalanmış qıpqırmızı nar kimi (S.Rüstəm); **MIX** Həmid çərəklik *mıxı* yumruğu ilə vurub üç barmaq qalınlığında taxtanın o biri üzündən çıxardanda zaldakıların hamısı ayağa qalxıb onu alqışladı (H.Abbaszadə); **MIXÇA** (*balaca mismar*).

**MİSMARLAMAQ** [Camal] yeşiyin qapağını qoyub bərk-bərk *mismarladı* (Ə.Vəliyev); **MIXLAMAQ** Əl qaldırsa qulağından *mıxlayarsan* divara; Aşılarsan hər tin başı badamgözlü qızlara (S.Rüstəm); **MIXÇALAMAQ**.

**misri** *bax* yoluxucu

**miss** *bax* xanım **1**

**missiya** *bax* vəzifə **1**

**mister** *bax* cənab

**MİŞAR** Xasaya *mişar*, çəkic, rəndə, kiçik balta, burğu və bu kimi dülgər şeyləri bağışlandı (A.Şaiq); **BIÇQI** Kimi taxta rəndələyir, kimi çərçivə qayırır, kimi *bıçqı* ilə ağac kəsirdi (İ.Əfəndiyev); **ƏRRƏ** (*iki dəstəli mişar*) Qorxu olub öz tərəfinə yonma, *ərrə* ol, iki tərəfə yon (Ata. sözü).

**MİTİNQ** (*siyasi*), **İCLAS** (*bax*), **YIĞINCAQ**

**miyan** *bax* **1.** arxa **1**; **2.** aralıq

**miyançı** *bax* vasitəçi

**miyanə** *bax* babat

**miyanpur** *bax* alana

**miz** *bax* stol

**mizan** *bax* **1.** tərəzi; **2.** nizam **1**; **3.** meyar





**mizan-tərəzi** *bax* tərəzi

**mizantrop** *bax* adamayovuşmaz

**mizanülhəva** *bax* barometr

**mizraq** *bax* nizə

**moda** *bax* dəb **1**

**MODABAZ** [Aytəmiz:] Deməli, xaricdəki işsiz-gücsüz *modabazlar* nə çalsa, biz də onu oynamalıyıq, hə?! (Ə.Qasımov); **MODAPƏRƏST, MODAÇI, MODA DÜŞKÜNÜ**.

**modaçı** *bax* modabaz

**modapərəst** *bax* modabaz

**modern** *bax* müasir

**modernizm** *bax* müasirlik

**1. MOİZƏ** Gecə-gündüz Təbrizin məscidlərində *moizə* oxuyanlar, din xadimləri... əsrin bu təkamülünə qarşı bircə dəlil irəli sürürdülər... (M.İbrahimov); **VƏZ** Molla qabaqca bir uzun *vəz* başladı (Ə.Haqverdiyev).

**2. moizə** *bax* nəsihət

**mollagunə** *bax* dindar

**MOLLAXANA** (*dini elmlər məktəbi*) İkincisi *mollaxanada* oxumuş, həzrəti-İbrahimin oda atıldığını eşitmişdi (Çəmənzəminli); **MƏDRƏSƏ** [Vaqif:] Açılsın hər yerdə məktəb, *mədrəsə;* Balalar quş kimi versin səs-səsə (S.Vurğun); **MOLLA MƏKTƏBİ** Səkkiz yaşından *molla məktəbinə* davam edən Əliqulu ərəb və fars dillərini öyrənmiş, 1894-cü ildə molla məktəbini buraxıb, zamanının görkəmli müəllimlərindən Mirzə Məmmədtağı Sidqi Səfərovun (1854-1903) yenicə açdığı üsuli-cədid məktəbinə daxil olmuşdur (A.Zamanov).

**moltanı** *bax* dinsiz

**monarx** *bax* padşah

**monarxist** *bax* padşahpərəst

**monastır** *bax* kilsə

**MONOTEİZM** (*fəls., din.*), **TƏKALLAHLILIQ** Bu dinlərdəki *monoteizm – təkallahlılıq* ideyası canlı və cansız xas olan xüsusiyyətlərin gerçəkliyi özündən təcrid olunmuş formada təsəvvür olunmasıdır (M.Ç.Məmmədov); **VƏHDANİYYƏT** (*köhn.*).

**montyor** *bax* işıqçı

**monumental** *bax* əzəmətli

**mor** *bax* bənövşəyi

**MORFOLOGİYA** (*dilç.*) Qrammatikanın bir hissəsi olan *morfologiyada* sözlərin deyilməsi, düzəldilməsi qaydaları öyrənilir (N.Məmmədov); **SƏRF** (*köhn.*) Ədəbi dilin yoxluğundan əlavə indiyədək, türk Azərbaycan ləhcəsinin bir mükəmməl *sərfi* və nəhvi yoxdur (Ə.Haqverdiyev).

**morq** *bax* meyitxana

**MÖCÜZƏ** Soyuq səngərlərdə düşmən üzərinə hücum əmrini gözləyən əsgərləri qardan, şaxtadan qorumaq üçün onlar doğrudan da *möcüzə* yaradırdılar (X.Həsilova); **ECAZ** Müstətirdir həqiqət ilə məcaz; Müldəric hər birindən bir *ecaz* (A.Səhhət); **XARİQƏ** [Eldar:] Mən, ilk baxışda nəzakətsiz görünən bu sadə insanların yaratdığı *xariqələri* gördükcə öz-özümə deyirdim... (M.Hüseyn).

**MÖCÜZƏLİ** (*çox qəribə*) [Nəsir Muradəliyev:] Yeni nəslin bu *möcüzəli* işinə necə baxırsan? (B.Bayramov); **ECAZKAR** Güləbətinin nəzəri qəribə, *ecazkar* sirlərlə dolu idi (M.İbrahimov).

**1. MÖHKƏM, MƏTİN** (*müxtəlif mənalarda*) Belə bir zamanda gərək səhhətin; Başdan *möhkəm* olsun, poladdan *mətin* (Ə.Kürçaylı); **DAŞ KİMİ** (*dan., məc.*) Yaşasın *daş kimi* muskullarımız; Yaşasın tökmə, dəmir qollarımız (M.Müşfiq); **DAVAMLI** Soyuq su ilə yuyunmaqla bədənini bərkişdirən adamlar bir sıra soyuqdəymə xəstəliklərinə çox az tutulur, daha *davamlı* və möhkəm olurlar (Zərgərli); **ƏYİLMƏZ** (*şair.*) Mən *əyilməz* ata adı saxladım; Vicdanımı ovuclara sağmadım.. (M.Araz); **QAİM** (*kl.əd.*) ...Təzəcə dəyənək alıbsan ələ; *Qaim* tut ki, nagalı düşər, ağlarsan (M.P.Vaqif); **POLAD KİMİ** (*məc., dan.*) [Ağalarov:] Ancaq mən o xəstəni sevirəm ki, ürəyi *polad kimi* olsun! (B.Bayramov).

**2. MÖHKƏM, BƏRK, DAVAMLI, DÖZÜMLÜ, SƏRT**

**3. möhkəm** *bax* sarsılmaz

**möhlət** *bax* vaxt **1**

*(ata sözü)* Dəvəni əvvəl *öyarla*, sonra Allaha ısmarla (Ata. sözü).

**NORMAL, ADİ, TƏBİİ**

**NOVATOR, YENİLİKÇİ**

**NOVATORLUQ, YENİLİKÇİLİK**

**NOVRUZGÜLÜ, NƏDİCƏGÜLÜ**

**NÖKƏR** [Aşıq Vəli:] Hər nə buyurursunuz *nökəriniz* Vəli can ilən-baş ilən qulluğunuzda hazırdır (N.Vəzirov); **GƏDA** (*dan.*) Rəhmə gəlib, padşahım, deməzsən: Harda qalıb bu dərgahın *gədası* (Q.Zakir); **GƏDƏ** (*dan.*) [Sara bibi:] [Zeynəbin] atası Yumurta Heydər kim idi? Murad bəyin qapısının *gədəsi* deyilmiydi? (Qantəmir); **LAKEY** (*köhn.*) Burjuaziyanın *lakeyləri* Bakıda aclığın müdhiş əllərini Sovet hökumətinin əleyhinə qaldırmaq vaxtı yetişdiyini hiss etdi (M.S.Ordubadi); **XİDMƏTÇİ** (*bax*)

**1. NÖQSAN** (*çatışmayan cəhət*) Qeysər çirkinliyi özü üçün *nöqsan* saymır, hətta qadınlarla bu xüsusda söhbət edərkən, heç bir işdə gözəllərdən geri qalmadığını söyləyirdi (M.Hüseyn); **AYIB** Gərdənində, qaməţində *ayıb* yox (M.P.Vaqif); **EYİB** Allaha şükür, ləkə yanağında *eyib* yox, Dişində, dəhanında, dodağında *eyib* yox (M.P.Vaqif); **ƏSKİKLİK** [Əkbər] özündə bir *əskiklik* duyurdu (Mir Cəlal); **İRAD** O qızışdıqca öz-özünü alovlandırırdı, baş nazirin *iradlarına* qarşı çıxıb döşünə döyməyindən qalmırdı... (S.Rəhimov); **QÜSUR** Xoş saatda xoş gəlibdi cahana, Yoxdu gözəlliyə *qüsur*, bəhanə (Aşıq Ələsgər); **QƏBAHƏT**.

**2. nöqsan** *bax* səhv

**NÖQSANLI, EYİBLİ, QÜSURLU, NAQİS, SƏHVLİ, ƏSKİK**

**NÖQSANSIZ, BİNÖQSAN, EYİBSİZ, QÜSURSUZ, SƏHVSİZ**

**nöqteyi-nəzər** *bax* fikir 1

**1. NÖMRƏ** Birinci *nömrəni* hələlikdə, gələcəyə əl uzatmaq istəməyib bərayi-ehtiyat artıq yox, ancaq min ədəd çap etməyi qərara aldıq (C.Məmmədquluzadə); **ŞÜMARƏ** (*köhn.*) Təqlidi-məxaric babətindən necə ki, keçən *şümarədə* ərz olunmuşdu, maliyyə idarəsindən sonra növbət nizamiyyəyə yetişəcəkdir.. (C.Məmmədquluzadə); **SAY**.

**2. nömrə** *bax* hoqqa 1 1; hiylə

**1. NÖV** Tağı əminin iki *növ* ov quşu olardı (S.S.Axundov); **CÜR** Axırıncı çərşənbə gecəsi yeddi növ (*cür*) meyvə qurusu alıb boşqabları qoyur və dövrəsində kiçik şamlar yandırırdılar (A.Şaiq); **DÜRLÜ** [Bəhram:] Yox, mənim ürəyimdə başqa *dürlü* hisslər oyanır (C.Cabbarlı); **QƏBİL** Bizim mübarizə apardığımız əmir də bu *qəbil* adamlardandır (M.S.Ordubadi); **QİSİM/QİSM** Məlum şeydir ki, burada İsmayıl bəyin cavabı iki *qisim* ola bilərdi.. (C.Məmmədquluzadə); [Sona:] Məncə, inam məsələsində adamlar beş *qism* olur (N.Nərimanov).

**2. növ** *bax* çeşid

**3. növ** *bax* cins 2

**NÖVBƏ/NÖVBƏT** [Vəli:] Gəlməliyik, *növbə* çatıb Azərbaycana (M.İbrahimov); [Əbülhəsən bəy:] ..Xoşu xanımla Hüsnü xanımın siğə *növbəti* hələ yetişməmişdi (M.S.Ordubadi); **NOBAT** [Zeynal:] Biri deyir, *su nobatımdır*, gələ bilmənəm, biri deyir dəyirmana dən aparacağam (C.Məmmədquluzadə); **SIRA**.

**növbədənkənar** *bax* fövqəladə 2

**növbənöv** *bax* cürbəcür

**növcavan** *bax* cavan

**növhə** *bax* 1. mərsiyə, ağı 1

**növhəxan** *bax* mərsiyəxan

**növ-növ** *bax* cürbəcür

**növrəstə** *bax* yeniyetmə

**nur** *bax* işıq

**nurlandırmaq** *bax* işıqlandırmaq

**nurlanmaq** *bax* işıqlanmaq 1

**nurlu** *bax* işıqlı

**nursuz** *bax* işıqsız 1

**nuş** *bax* 1. şirin; 2. içki

**nüdrətən** *bax* 1. arabir; 2. gözlənmədən

**1. NÜFUZ, AVTORİTET** [Təhmməz] bilirdi ki, məsələ Kəlbiyev üçün *nüfuz*, prestij, avtoritet məsələsidir (M.İbrahimov); **ZABİTƏ** Xanpərinin *zabitəsi* əksilir, inadı azalırdı (Ə.Vəliyev).

**2. nüfuz** *bax* hörmət; ad-san

**nüfuzlu** *bax* hörmətli

**nüfuzsuz** *bax* hörmətsiz

**nümayan** *bax* aşkar

**NÜMAYƏNDƏ** Qızıl Arslanın bu sözündən sonra xəlifə öz *nümayəndələrini* göndərib Qızıl Arslanın nə şəraitlə sülh etmək istədiyini soruşdu (M.S.Ordubadi); **ELÇİ** [Allahyar] yuxarı dağ kəndlərinə getmiş və orada Mələyi görüb *elçi* düşmüşdü (İ.Şıxlı); **MÜMƏSSİL** (*köhn.*) Süleyman paşanın *mümməssili* uzun-uzadı danışdı (Çəmənzəminli).

**1. NÜMUNƏ** [Adilə:] Gərək rayonun rəhbər işçilərinin qohumları daha yaxşı, daha təmiz işləsinlər, başqalarına *nümunə* olsunlar (Ə.Qasımov); **GÖRK** [Cəfərqulu:] O da yazır ki, hamının qabağında döyə-döyə öldürün, qoyun başqasına *görk* olsun (H.Mehdiyev); **MİSAL** Sən bizim öz həyatımızı *misal* götürə bilərsən (M.S.Ordubadi); **ÖRNƏK** Ana tərbiyənin nə dərəcədə vacib olmağını gərək düşünsün. Özünü islah edib övladına *örnək* (sərməşq) etsin (Çəmənzəminli); **TİMSAL** ..qüdrətin *timsalısan* sən; Ölkənin dövləti, camalısan sən (N.Rəfibəyli).

**2. NÜMUNƏ** (*əyani misal, canlı şahid*) O zaman Tiflisdə Baş Maarif şöbəsinin tapşırığı ilə gürcü.. və Azərbaycan müəllimləri tərəfindən rusca yazılmış xalq ədəbiyyatı *nümunələri* kitab şəklində nəşr edilmişdi (A.Şaiq); **MİSAL, TİMSAL**.

**nüsxə** *bax* 1. resept; 2. dənə 1

**nüsxəbənd** *bax* reseptçi

**nütfə** *bax* sperma

könül: Dur bunun bir *öpüş al* yanağından (M.Rahim).

**ÖPÜŞ** [Aytəmiz:] Bəs bu camaat içində marçamarç *öpüş* nə üçündür? (Ə.Qasımov); **BUSƏ** (*kl. əd.*) [Qacar:] Deyirlər şirindir *busənin* dadı, O da kor baxtıma qismət olmadı (S.Vurğun); **MAÇ** (*dan.*) [Koroğlu Nigara:] Nə durubsan naçın kimi? *Maç* görmədim maçın kimi ("Koroğlu").

**örnək** *bax* nümunə 1

**ÖRÜŞ** Axşamı düşür, günəş qürub edir, sürülər *örüşdən* qayıdır... (B.Bayramov); **OTLAQ** Onun özünə məxsus meşəliyi, əkinçalın, *otlaq* sahəsi ən zəngin və geniş yer tuturdu (S.Rəhimov); **KÖVŞƏN** ...bir atlı çaparaq kəndin içindən çıxıb *kövşənə* sərni getməkdə idi (C.Məmmədquluzadə).

**ÖSKÜRƏK** [Ana Yasəmənə:] Dərman içməsən *öskürəyin* kəsməz... (Ə.Vəliyev); **ÖSKÜRMƏ** [Əvvəlinci azarlı:] Gecə səhərə kimi *öskürmə* qoymur yatım (C.Məmmədquluzadə); **ÖSKÜRTÜ** ...qonaqların *öskürtüsü* eşidilir (Ə.Vəliyev).

**öskürtü** *bax* öskürək

**ötərgi** *bax* gözucu

**I ÖTƏRİ, KEÇİCİ, MÜVƏQQƏTİ** (*vaxt haqqında*)

**II ötəri** *bax* gözucu

**I 1. ÖTMƏK** [Qəndab:] Məzahir, qaz ver, o qabaqdakı maşını *öt*, qoyma irəli keçsin, - deyə səsləndim (B.Bayramov); **GERİDƏ BURAXMAQ** [Ceyran] Bəli, - dedi, - bir il sonra məktəbi bitirincə, onu tamamilə *geridə buraxacağam* (S.Hüseyn); **KEÇMƏK** Kim ötdü, kim-kimi *keçdi*, Hektarçıynan düşdü bəhəi (Aşıq Əsəd); **QABAQLAMAQ** ...üçüncü dolaydan başıyuxarı iki atlı çapışır. Görək bunları hansı *qabaqlayacaq* (C.Məmmədquluzadə).

**2. ÖTMƏK, KEÇİB GETMƏK, KEÇMƏK, ÖTÜB KEÇMƏK** (*yanından getmək*)

**II ötmək** *bax* oxumaq 3

**ötrü** *bax* üçün 1

**1. ÖTÜRMƏK** Nurlu Həmidi qapıya kimi *ötürdü* (H.Abbaszadə); **MÜŞAYİƏT ETMƏK/ELƏMƏK** [Əbülhəsən bəy:] Hərgah bir belə təşəbbüs olsaydı, oğlan səni evinə qədər *müşayiət eləməzdi* (M.S.Ordubadi); **YOLA SALMAQ** (*fr.v.*) O gəmi ilə mən də öz yaralı qardaşımı *yola saldım* (M.Hüseyn).

**2. ötürmək** *bax* yemək 1

**1. ÖTÜŞMƏK** Yığıb çantalara yeyərdən-yemişdən: Yolda gah yüyürüb, gah *ötüşərdi* (S.Vurğun); **QAÇIŞMAQ** Uşaqlar ...oynayır, *qaçışırdılar* (A.Şaiq); **YARIŞMAQ** Uşaqlar sevinir və *yarışırdılar* (Mir Cəlal).

**2. ötüşmək** *bax* oxumaq 3

**ÖVLAD** (*oğul, qız və s.*) Məşədi Allahverən ibtida bir arvad aldı, gözəl, göyçək, 30 il onunla gün keçirib *övladı* olmadı (N.Nərimanov); **FƏRZƏND** Dünyanı soyub, eyləyə hər gün səni xürsənd; Sağ ol, belə *fərzənd!* (M.Ə.Sabir); **XƏLƏF** Derdim ki, gözəl *xələf* olarsan, Bir ailəyə şərəf olarsan (M.Ə.Sabir); **UŞAQ** [Veysəl:] *Uşağımız* yoxdur. Sonsuz olanda bəyəm dünya dağılar? (B.Bayramov); **VƏLƏD** (*köhn.*) Amandı, qoymayın övladınız azıb çıxa yoldan; Ola bu yaxşı *vələdlər* yaman bu boyda, bu boyda!.. (M.Ə.Sabir); **VƏLİƏHD** [Piri baba:] Sən də mənə *vəliəhd* olacaqsan (Mir Cəlal); **YAVRU** *Yavrusunu* atır ana, O quzğunun qucağına (S.Vurğun).

**2. övlad** *bax* nəsil 1

**ÖVLADSIZ** London qəzetləri yazdı o zaman: Dərməyin ki, qarı *övladsız* qaldı (S.Vurğun); **SONSUZ** Elm hökm eləyir indi hər yerə; Zülmətin bağrına işıq nəqş edir. *Sonsuz* qadınlara, ya ərsizlərə; Naməlum kişidən övlad bəxş edir (B.Vahabzadə); **UŞAQSIZ** Mən onun ailəsiz, ərsiz, *uşaqsız* olduğunu zənn edirdim (S.Hüseyn); **ÇOCUQSUZ**

**övrət** *bax* arvad 1; qadın 1

**övrətbaz** *bax* arvadbaz

**övrətbazlıq** *bax* arvadbazlıq

**övrət-uşaq** *bax* ailə

**övzə** *bax* vəziyyət 1

**öynə** *bax* dəfə

**öyrəncəli** *bax* vərdişli







**ÖYRƏNMƏK, BİLİK QAZANMAQ (ƏLDƏ ETMƏK), MƏNİMSƏMƏK**

**2. ÖYRƏNMƏK, XƏBƏR BİLMƏK, MƏLUMATLI OLMAQ**

**3. öyrənmək** *bax* öyrəşmək 1, 2

**1. ÖYRƏŞMƏK** Bir də Aslan buzlu-şaxtalı Rusiya iqliminə *öyrəşmişdi* (M.Hüseyn); **ADƏT ETMƏK/ELƏMƏK** Bəstı sürətlə və düzgün işləməyə *adət etmişdi* (Ə.Sadıq); **ADƏTKƏRDƏ OLMAQ** Bir-biri ilə dalaşıb boşanmağa məhz *adətkərdə olmuşam* (C.Məmmədquluzadə); **ALIŞMAQ** [Ayaz:] Axı mən sənə, o sehrli baxışlara xeyli vaxtdır *alışmışam* (A.Şaiq); **ÖYRƏNMƏK** Şaxta, çovğuna *öyrənib* canım (M.Rahim); **VƏRDİŞ ETMƏK/ELƏMƏK** Qızımın gözlərindən bu hərgünkü təlaşlı sualı oxumağa *vərdiş etmiş* ana: – Yoxdur, qızım, – dedi (Ə.Məmmədxanlı).

**2. ÖYRƏŞMƏK** Yazıq Tamam bizim ailəyə *öyrəşdiyindən* ayrılmaq istəməyirmiş (S.S.Axundov); **İSİNİŞMƏK** Onun fikrincə müəmmalı olan bu qışa asta-asta *isinişirdi* (B.Bayramov); **ÖYRƏNMƏK** [Qönçə Çingizə:] Qəndab sizə yamanca *öyrənib*, darıxır (B.Bayramov).

**öyüd** *bax* nəsihət

**1. ÖYÜNMƏK, DÖŞÜNƏ DÖYMƏK** (*fr.v.*) Çox *döymə döşünə*, çox *öyünmə* sən; Görürəm qəlbinin gözləriylə mən (S.Rüstəm); **FƏXR ETMƏK/ELƏMƏK** [Aşıq Vəli:] ...Xəz xirqəsinə su kimi axma; Qızıl eynəkləri *fəxr edib* taxma (N.Vəzirov); **İFTİXAR ETMƏK/ELƏMƏK** İranda xanım da avropalı bir həyat düzəltdiyi münasibəti ilə öz bacısı Ninanın yanında *iftixar edirdi* (M.S.Ordubadi); **ÖZÜNÜ ÖYMƏK** O, ancaq *özünü öyür* (Y.Şirvan).

**2. öyünmək** *bax* arxalanmaq

**ÖZBAŞINALIQ** Bəyəm dünya *özbaşınalıqdır?!* – deyə Səfo ayağa qalxıb kahanın içində o baş-bu başa gəzindi (S.Rəhimov); **DƏRƏBƏY(İ)LİK** Ölkə *dərəbəylik* deyə xan-xanımı sanırsan?! (M.Ə.Sabir); **HƏRKİ-HƏRKİLİK** [İbişli:] İdarədə bir hərcmərclik, bir *hərki-hərkilik* salsınlar ki, gəl görəsən (Anar); **BAŞLI-BAŞINALIQ.**

**özək** *bax* təşkilat 1

**özgə** *bax* 1. başqa 1; savay; 3. yad 1

**özül** *bax* bünövrə

**ÖZÜNÜİDARƏ** (*siyasi*), **MUXTARİYYƏT**

**PULCUQ** (*balıqların əksəriyyətinin üzərindəki pərəklər*) Xanı balığının bədəni sümük *pulcuqlarla* örtülmüşdür ("Zoologiya"); **AĞCA** Qumun üzərində sərilmiş balıqlar, öz *ağcalarını* parıldada-parıldada .. çapalayırdı (S.Rəhimov); **PUL.**

**PULEMYOT** [Zeynal:] Yaramı tamam unutdum. Yenidən *pulemyotun* yanına süründüm (B.Bayramov); **MAKSİM** Budur gözlənilmədən bir anda susdu "*maksim*". Qırıldı bu üç dostun könül sazındakı sim (S.Rüstəm).

**pulgir** *bax* pulpərəst

**pulgirlik** *bax* pulpərəstlik

**pulqabı** *bax* portmanat

**pullu** *bax* varlı

**PULPƏRƏST** [Adilə:] Həmzə, sən canın az *pulpərəst* ol (Ə.Qasımov); **PULAGİR** (*dan.*) [Həsən bəy:] Rüstəm bəy *pulagir* adam deyildir (Ü.Hacıbəyov); **PULGİR** Xosis və *pulgir* olan, qiymətli daş-qaşdan gözü doymayan rəhmətlik anası da bu fikirdə idi (M.İbrahimov).

**PULPƏRƏSTLİK** Bütün bu sözlər, bu hərəkətləri ilə Dursunu qənaətkarlığa və *pulpərəstliyə* alışdırmaq istəyirdi (A.Şaiq); **PULGİRLİK** [Qiyas:] O ki, qaldı qeyrət ... məgər qeyrət aləmi basıb yemək, əlivə keçəni qapışdırmaqdır, *pulgirlikdir?* (Anar); **PULAGİRLİK.**

**1. PULSUZ** (*pulu olmayan*) Fələ, özünü sən də bir insanmı sanırsan?! *Pulsuz* kişi insanlığı asanmı sanırsan?! (M.Ə.Sabir); **PARASIZ** (*köhn.*) Adəmi adəm eyləyən paradır; *Parasız* adəmin üzü qaradır! (M.Ə.Sabir).

**2. pulsuz** *bax* müftə

**PUSQU** "Pomoşnik İsfəndiyar" adlı sərgöz yasavul Qulamla birlikdə yüzbaşının yanına gedib məsləhət-məşvərətdən sonra bu qərara gəldilər ki, Kür qırağında *pusquda* dayanıb qaçaqları tutsunlar (Ə.Vəliyev); **MARIQ** Özümü kolların içmə vurdum; Saatlar uzunu *marıqda* durdum (M.Rahim); **BƏRƏ** Naşı ovçu *bərə* bəklər, əylənər. Marallar sayrışar yollara doğru (Qurbani).

**PUSMAQ** Axı onun nəyinə gərəkdir günahsız, zavallı adamları *pusub* yolunu kəssin, koldan çıxıb soyundursun? (M.İbrahimov); **DALINA DÜŞMƏK** [Şamama Cadu:] Bu gündən *düşürəm* onun *dalına* (Ə.Haqverdiyev); **GÜDMƏK** Bu fikirlə Həsən arvadını *güdməyi* qərara aldı (M.İbrahimov); **İZLƏMƏK** Üstü örtülü səbətlərdən şübhələnmiş polis xəfiyyəsi, uzaqdan-uzağa Qulam dayını *izləyirdi* (M.Hüseyn).

**püfkürmək** *bax* üfürmək

**püflamək** *bax* üfürmək

**pünhan** *bax* məxfi

**pür** *bax* çox

**pürqeyrət** *bax* qeyrətli

**pürqiymət** *bax* bahalı

**pürmana** *bax* mənalı

**PÜRRƏNG(İ)** (*yaxşı dəmlənmiş çay*) [Topal:] Ay bacı, uduzana bir *pürrəng* çay (Ə.Qasımov); [Həmidə:] Bir stəkan *pürrəngi* çay süzüm sənə (Anar); **XORUZPİPİYİ** Üç yoldaş termosdan tökdüyümüz buğlanan tünd *xoruzpipiyi* çaydan içə-içə söhbət edirdik (M.Rzaquluzadə); **QANOVUZU** Şamama dəmdə olan ağ samovardan, qədimlərdə deyildiyi kimi, *qanovuzu* bir çay töküb giləni mürəbbəsi ilə mənim qabağıma qoydu (İ.Əfəndiyev).

**pürsəfa** *bax* səfalı

**pürvüqar** *bax* vüqarlı

**PÜŞK** *Püşk* atmaq gərək, – deyib kim isə pıqqıldadı (M.İbrahimov); **ÇÖP** (*dan.*). **QÜRƏ** (*köhn.*) Uşaqlar iki dəstəyə ayrılırlar. *Qürə* (*çöp*) atırlar ("Azərbaycan folkloru antologiyası").

**pyes** *bax* dram





# Rr

**1. RABİTƏ, ƏLAQƏ, KOMMUNİKASİYA, TELEKOMMUNİKASİYA** (*uzaq rabitə*), **TELERABİTƏ** (*uzaq rabitə*)

**2. rabitə** *bax* əlaqə 1

**racc** *bax* aid

**racə** *bax* knyaz

**radar** *bax* radiolokator

**RADİO** Ata və oğul nahardan sonra *radio* qabağında əyləşib verilişə qulaq asırdılar (Mir Cəlal); **QƏBULEDİCİ** ..Radioları qurun! Mən tez *qəbuledicini* işə saldım (Y.Əzimzadə); **RADİOQƏBULEDƏN** Bir gün bizim telefon; *radioqəbuledən;* bir də ki, televizor; mübahisə edirlər (M.Rzaquluzadə); **RADİOQƏBULEDİCİ** O [Həmzə], asta-asta gəlib *radioqəbuledicini* açdı (Ə.Qasımov); **RADİOTUTAN** Baluca stolun üstündə də telefon, *radiotutan* vardı (M.İbrahimov).

**radioqəbuledici** *bax* radio

**RADİOLOKATOR** (*Fəzadakı obyektlərin yerini radio dalğaları vasitəsilə müəyyən edən aparatlar*), **RADAR**

**radiotutan** *bax* radio

**rah** *bax* yol 1

**1. RAHAT, ASAN, ƏZİYYƏTSİZ**

**2. rahat** *bax* asudə, arxayın 1

**rahatxana** *bax* ayaqyolu

**rahatlanmaq** *bax* **1.** dincəlmək; **2.** sakitləşmək 2

**1. RAHATLIQ, ARAM, ASUDƏLİK, QAYĞISIZLIQ, QULAQ DİNCLİYİ, QƏRAR**

**2. rahatlıq** *bax* istirahət

**rahatsız** *bax* narahat

**rahatsızlıq** *bax* narahatlıq

**RAHİB** (*din.*), **ABBAT**

**RAHİBLİK** (*din.*), **ABBATLIQ**

**rasta** *bax* çarşı(ı)

**RASTLAŞMAQ** [Kobirlinski] bir dəfə həyatda vedrə ilə su daşıyırdı, Feyzullayla pilləkəndə *rastlaşdı* (Anar); **QABAQ-QABAĞA GƏLMƏK** Qürbət bir şəhərin bazarında iki adam *qabaq-qabağa gəlib* bir-birinə zənn ilə baxdılar (Çəmənzəminli); **QARŞILAŞMAQ** Firudin onlara [tələbələrə] fikir verməyib gəzmək istərkən Qurban Mərəndi ilə *qarşılaşdı* (M.İbrahimov); **RAST GƏLMƏK** Əbədiyyət pasportunu almısan son davada; Mən sənə *rast gəlirəm* Bakıda, Moskvada (S.Rüstəm); **ÜZ-ÜZƏ GƏLMƏK** Bir dəfə hətta, müsavat parlamentinə üzvlər seçilməyə hazırlıq apardığı zaman, partiyanın liderlərindən Məmmədəmin Rəsulzadə ilə *üz-üzə gəldik* (A.Şaiq).

**rayihə** *bax* qoxu

**rayihədar** *bax* qoxulu

**rayihəli** *bax* qoxulu

**RAXİT** (*tib.*); **GƏVƏŞ** (*dan.*)

**RAYON** O, şəhər və *rayonları* ciddi nəzarət altına alırkən, əməkçilərin ümumi iclası Keşlə düzündə baş tutdu (M.S.Ordubadi); **NAHİYƏ** (*köhn.*) Məni Püsyan *nahiyəsinin* firqə özəklərində mühazirə oxumağa göndərdilər (Ə.Vəliyev); **REGİON.**

**RAZI** *Razıyam* oğlum gedə qəbrə, – nə ki məktəbə! Məktəb adın çəkməyin, – mələbədir, mələbə!.. (M.Ə.Sabir); **MƏMNUN** Neylənişsən Molla Sofi, Bəybaba; *Məmnundu*, əzizim, bu qədər səndən (Q.Zakir); **XOŞNUD** (*kl.əd.*) [Fərman:] Birce də görüm, əmim ağa ilə qohum olmaqdan *xoşnuddurmu?* (Ə.Haqverdiyev); **RİZAMƏND** (*kl.əd.*).

**RAZILAŞMAQ** Kişi yenə də başını buladı və guya əlacsız qalıb *razılaşdı..* (H.Seyidbəyli); **ANLAŞMAQ** (*köhn.*) Bu asan iş deyildi; dəftərxanada bir məmurla *anlaşıb*, matrikuldakı rəsmin yerinə Bəhramın rəsmini qoymalı idi (Çəmənzəminli); **RAZI OLMAQ.**

**RAZILIQ** ..bir az fikirləşdi, *razılıq* işarəsi olaraq başını tərpətdi (M.Hüseyn); **XOŞNUDLUQ** *Xoşnudluğumdadır* nicatım; Ey, mənim cövhəri-həyatım! (Füzuli); **RİZA** [Qətibə:] Mən özüm *riza* verməsəydim, o məni heç kəsə ərə verə bilməzdi (M.S.Ordubadi); **RİZAMƏNDLİK** Mən iyirmi ildir

gülürdü (Ə.Cəmil); **NİQABLI** Qaranlıq düşəndə Alp Arızı xarabalıqda qara *niqablı* bir adamla pıçıldaşırdı (Anar).

**rüsxət** *bax* izin

**rüsxətli** *bax* izinli

**rüsxətsiz** *bax* izinsiz

**RÜSUM** [Molla Həmid:] ..dərviş Abbasın öhdəsinə lüqərrədir ki, hər axşam bu xoruzu gətirib, həman gördüyünüz *rüsumu* cari edib bir təzə yerdə bağlasın (M.F.Axundzadə); **BAC** Koroğlu karvanın qabağını kəsdi, *bac* verməklərini söylədi ("Koroğlu"); **RÜSUMAT** Hələ İrana girdikləri dünəndir, gömrük *rüsumatını* tamamilə ləğv etmişdir (M.S.Ordubadi); **GÖMRÜK**.

**rüsumat** *bax* rüsum

**rüsvayçılıq** *bax* biabırçılıq

**rüşeym** *bax* maya II

**RÜŞVƏT** Fəqət bu nazirlərin, bu *rüşvətlərin* içində məlum və naməlum nazirlər də var (N.Nərimanov); **BIĞYAĞI** (*dan., zar.*) (*cüzi rüşvət*) Kəndlilər əvvəlcə Əbdüləzəmin qapısında dayanıb, onunla haqq-hesab etməli idilər. Yəni ona "*bığyağı*" verməli idilər (H.Sarabski); **ŞAPKA** (*dan.*).

**rüşvətçi** *bax* rüşvətxor

**rüşvətçilik** *bax* rüşvətxorluq

**RÜŞVƏTXOR, RÜŞVƏTÇİ** (*rüşvət alan adam*)

**RÜŞVƏTXORLUQ** (*rüşvət alma*) [Birinci katib:] ..qohumbazlıq, meşşanlıq, *rüşvətxorluq* ..getdikcə daha çox mövqeləri zəbt edirdi (C.Əlibəyov); **KORRUPSİYA** (*qəti rüşvətxorluq, külli miqdarda rüşvət alma*), **RÜŞVƏTÇİLİK, YEHAYE** (*məc.*) (*kütləvi rüşvətxorluq*).

**1. RÜTBƏ** [Əhməd Zəziyə:] Padşah bilsə sənə böyük *rütbə* verər (A.Şaiq); **ÇİN** Onların nə *çini*, nə rütbəsi var (B.Vahabzadə); **DƏRƏCƏ** Qoy işini görsün, ağa *dərəcə* alır, – deyib gözətçi laqeydcəsinə cavab verib çəkildi (M.İbrahimov); **TİTUL**.

**2. rütbə** *bax* vəzifə 2

**rütəb** *bax* xurma I

**rütubət** *bax* nəm

**rütubətli** *bax* nəm





# Ss

**saat** *bax* vaxt

**SABAH** Bu günün işini *sabaha* qoyma (Ata. sözü); **SƏHƏR** *Səhər* qızın atası Hacı Əbdüləzimin dükanına keçib keyfiyyəti söylədi (Ə.Haqverdiyev); **YARIN** (*köhn.*) *Yarın* icraiyyə komitəsinin sədri idarədən bir kargüzar göndərmişdi (T.Ş.Simürğ).

**SABİQ** On-on beş dəqiqə bələcə bir-birinin halını soruşub, *sabiq* dostların hərəsi hovuzun bir küncünə çəkildi (Çəmənzəminli); **KEÇMİŞ** [İnci:] Biz onların *keçmiş* arvadlarıyıq (S.Rəhman); **KÖHNƏ** [Gülşən Sərvərə:] Adam da *köhnə* dostunu bu cür xatırından çıxardarmı? (M.Hüseyn); **ƏVVƏLKİ**.

**sabunağacı** *bax* çoğan

**sabur** *bax* əzvay I

**1. SAÇ** Miss Hanna Hüsni xanımın *saçlarını* kəsdi, dəstə ilə yerə qoydu (M.S.Ordubadi); **BİRÇƏK** Əliqulu çəpərdən bir taxta qopardıb Sülüyə qolazladı və sonra *birçəyindən* tutub, qapaz döşədi (Çəmənzəminli); **HÖRÜK** [Vahid:] Gərək məndən çəkinməyəsən, mənə mehriban olasan. Yoxsa kələğayını dəymə, *hörüyümə* əl vurma, yaxınıma gəlmə!.. (M.İbrahimov); **MUY** (*kl.əd.*) Məktəblilər içrə deyil az söhbəti-ruyin; Keyfiyyəti-*muyin* (M.Ə.Sabir); **ZÜLF** Deyim gözləri süzgün; *Zülfü* pərişan kimi (M.Rahim)

**2. saç** *bax* tük

**SAÇLAMAQ** (*dalaşarkən saçdan yapışmaq*) Kərbəlayı Həsən yerindən sıçrayıb, arvadı *saçladı* və baş-göz deməyib, hər yerinə yumruqla döşədi (Çəmənzəminli); **BİRÇƏKLƏMƏK** Kərbəlayı Qurban bu sözləri eşitcək yüyürüb "köpək oğlunun dilinə bax!" – deyə-deyə Şaqqulunu *birçəklədi* (Çəmənzəminli).

**1. SAÇMA** *Saçmalar* yazıq dovşanın; Lap başına yaxın keçdi.. (M.Rzaquluzadə); **QIRMA** Atma *qırma* başqa küçələrə keçmişdi (S.S.Axundov).

**2. saçma** *bax* mənasız I

**sadalamaq** *bax* saymaq I

**SADƏ** (*müxtəlif mənalarda*) Hər möhnətə dözən; *sadə* insanların; qayğı dolu səsidir bu (R.Rza); **ADİ** Bunlar *adi* sənətkardır.. (Ə.Cəfərzadə); **BƏSİT** [Azər:] Bir sözlə, adiləşməyəsən, bayaq radioda oxunan nəğmə kimi *bəsit* və aydın olmayasan (Ə.Kərim); **ASAN**.

**sadədil** *bax* sadəqəlb

**SADƏQƏLB, SADƏLÖVH** (*ürəyi sadə adam*) *Sadəlövh, sadəqəlb* insanlara əh.. (S.Vurğun); **SADƏDİL** Dini və adəti – mövhumata qərq olmuş *sadədil* məzlum kəndlilər, hər bir vergidən əvvəl bu müftəxorların torbalarını doldurardılar (S.S.Axundov); **SADƏÜRƏKLİ**.

**SADƏLİK** [Surxay:] Halbuki onun bütün təqsiri *sadəliyində* və günahsızlığındadır (C.Cabbarlı); **ADİLİK** Hər bir *adiliyə* yumub gözünü; Çalır, yırğalanır səs dəryasında (Ə.Kərim); **BƏSİTLİK**.

**sadəlövh** *bax* **1.** sadəqəlb; **2.** təvazökar

**sadiq** *bax* sədaqətli, vəfalı

**sadiqlik** *bax* sədaqət, vəfalılıq

**1. saf** *bax* sağlam

**2. saf** *bax* təmiz I

**safdil** *bax* saflürəkli

**safqəlb(li)** *bax* safürəkli

**saflıq** *bax* təmizlik I

**SAFÜRƏKLİ** Hacı Səməd əlli yaşında *safürəkli*, rəhmdil bir kişi idi (S.S.Axundov); **SAFDİL** Nazlının bu *safdil* mülahizələri Bəyimin gülümsəməsinə səbəb oldu (Çəmənzəminli); **SAFQƏLB(Lİ)** *Safqəlbli*, sadədil Sənəm, indi heç özümə də inanmıram (S.S.Axundov); **TƏMİZÜRƏKLİ** Həlimə nənə qılıqlı, *təmizürəkli*, qonaqsevən və mehriban bir qadın idi (A.Şaiq); **DÜZQƏLBLİ, ÜRƏYİTƏMİZ**.

**I 1. SAĞ** Baxdı sola, baxdı *sağa*; alt budağa, üst budağa (R.Rza); **SAĞ TƏRƏF** Firəngiz sinə aşağı enəndə *sağ tərəfə*, Ceyran bulağının üstündəki yasxanaya xeyli adam toplaşdığını gördü (B.Bayramov).

2. SAĞ Müəllim ..son siyasi hadisələrdən danışır, *sağları* tənqid edirdi (A.Şaiq); **MÜRTƏCE**.

II **sağ** *bax* 1. diri, salamat 1; 2. sağlam

**SAĞALMAQ** (*xəstəlikdən sağalmaq*) [İnsanlıq:] Gözəl oğlum, mən susaram, kaş ki, sən: Dincəl, *sağal* (A.Şaiq); **KORUXMAQ** (*məh.*) Gəl iki gözümün ağı-qarası; *Koruxsun* qəlbimin bəlkə yarası (S.Rüstəm); **SƏHHƏT TAPMAQ** Ömründə azar bilmədiyindənmi, gənc olduğundanmı, Ruxsarə xanım sağalacağına inanır, *səhhət tapıb* yataqdan duracağını artıq ümidlə gözləyirdi (T.Ş.Simürğ); **ŞƏFA TAPMAQ** Dedim: əl atmasa həkim bıçağa; Xəstə *şəfa tapıb* durmaz ayağa (M.Rahim); **YAXŞI OLMAQ** ..Cəmil ağanın başının ağrısı lap *yaxşı oldu* (İ.Musabəyov); **QALXMAQ** (*məc.*).

**SAĞALMAZ** (*sağalması mümkün olmayan*) [Zöhrə:] Ata can, əziz ana.. siz razı olarsınızmı, qızınız *sağalmaz* dərdə düşsün? (M.İbrahimov); **ƏLACSIZ** [Ulduz:] Biz *əlacsız* dərdə düşmüşük (M.İbrahimov); **ÇARƏSİZ** Necə çarə eyləsin; Bu *çarəsiz* xəstəyə (B.Vahabzadə); **MÜALİCƏSİZ**, **MÜALİCƏOLUNMAZ**.

**SAĞALTMAQ** (*xəstəlikdən qaytarmaq*) [Həsi:] Bunu [yaranı] Volodya adlı bir rus feldşeri *sağaltdı* (S.Rəhimov); **ŞƏFA VERMƏK** [İnsanlıq:] Dərdindən, ah, sayıqlayır, ey tanrı: Sən *şəfa ver!* (A.Şaiq); **HƏYATA QAYTARMAQ**, **SAĞLAMLAŞDIRMAQ**.

**SAĞANAQ, ÇƏNBƏR, QASNAQ** (*dəf və bu kimi şeylərin dairəsi*)

**sağır** *bax* kar I

**SAĞLAM** (*müxtəlif mənalarda*) Danışıram, gülürəm. *Sağlam* bir insan kimi (M.Rahim); **BƏRK** [Ocaqverdi:] Bəy, bizim canişin *bərkdir* (Ə.Haqverdiyev); **GÜMRAH** (*dan.*) [Qəndab:] Özüm *gümrah*, yollarım genişdir, velosipedim də saz (B.Bayramov); **QIVRAQ** Nəzərəli əmi yaşlanmışdı. Ancaq *qıvraq* idi (Ə.Vəliyev); **SAF** Dəyişərəm, deməli, əlimlə təbiəti; Ürəyi *saf* duyğulu, təmiz bir insan kimi (M.Rahim); **SAĞ** Fələk Ələsgər tək oda salmasın; Nə naxoşu belə, nə *sağı* belə (Aşıq Ələsgər); **SALAMAT** Ya dayələrin özündə azar olur, balalara sirayət edir, ya da ki, azarlı balaları dayəyə verirlər, onda düşür, sonra başqa *salamat* uşaqları da xarab edir (Çəmənzəminli); **SALİM** (*köhn.*) [Molla Qafar:] ..sihəti-bədən duası onun vücudunu nə dərəcədə *salim* saxlayıbdır? (S.Rəhimov); **TƏNDÜRÜST** Bu *təndürüst* simada elə bil məkrlə məhəbbətin, xoyanətlə sədaqətin vəhdətini gördü (B.Bayramov).

**SAĞLAMLIQ** [Davud:] Mən buna görə heç nəyə qızırqanmıram, camaatın *sağlamlığı* yolunda canımı qoyuram (H.Abbaszadə); **AFİYƏT** (*kl.əd.*) Ol bəzm idi *afiyət* bahar, Mən bülbülü-zari-biqərarı (Füzuli); **CANSAĞLIĞI** Bunların hamısı ötüşər, insana *cansağlığı* lazımdır (Ə.Haqverdiyev); **QIVRAQLIQ** (*dan.*) ..qoca Firuz bu gün hamını heyrətə salan, yaşına yaraşmayan elə bir *qıvraqlıqla* işə girişdi (Ə.Məmmədxanlı); **SAĞLIQ** *Sağlıq* istəsən – çox yemə (Ata sözü); **SAZLIQ** (*dan.*) [Mişa:] Hər kəs öz bədəninin *sazlığını*, dözümünü hər hansı bir həkimdən dürüst bilir (H.Abbaszadə); **SƏHHƏT** [Gülüş:] Adam öz *səhhətinin* qayğısına özü qalmayanda... (Anar).

**sağlıq** *bax* 1. sağlamlıq; 2. tost

**sağollaşmaq** *bax* vidalaşmaq

**SAĞSAĞAN** (*zool.*) *Sağsağanlar* ağacların təpəsilə uça-uça; Haray çəkib çığırdılar (M.Rzaquluzadə); **QƏCƏLƏ** Yandı çün kuzələri, bomba kimi səsləndi kötük; Sərçə, qarğa, *qəcələ*, qırğı hərasan oldu (M.Ə.Möcüz).

**sahib** *bax* 1. yiyə, sahibkar; 2. ər I

**SAHİBKAR** Dedim ki mən, indi bizik *sahibkar* (R.Rza); **AĞA, HAKİM** İnsan bütün varlığının *ağasıdır, hakimidir* (M.İbrahimov); **FERMER** (*bax*), **SAHİB**.

**SAHİBKARLIQ, AĞALIQ, FERMERLİK** (*bax*), **SAHİBLİK**

**sahiblik** *bax* sahibkarlıq

**SAHİBSİZ** (*sahibi, yiyəsi olmayan*) Pristav.. uçastoku *sahibsiz* buraxaraq getmişdi (S.Rəhimov); **BAXIMSIZ** [Qəndab:] Bozi





əllələr bu torpaqlardan əlini üzüb aran yerlərinə köçdüyü üçün həyət-bacaları söküləb dağılmış, *baxımsız* ağaclar qurumuşdu (B.Bayramov); **BAŞSIZ** (*məc.*) Ayrım qızı Kərim babanın da getdiyini, naxırın *başsız* qaldığını bilmiş, ..özünü naxıra yetirmişdi (A.Şaiq); **BİSAHİB** [Sona xanım naçalnikə:] ..Məni *bisahib* qoyma! (M.F.Axundzadə); **YİYƏSİZ** [Ana:] Həmişə *yiyəsizin* başına dünya dar olar (Çəmənzəminli).

**SAHİL** (*dəniz, çay, göl və s.-nin kənarı*) *Sahildə* balıqçılar qayaların üstündə oturub dənizə tilov atmışdılar (H.Abbaszadə); **QIRAQ** Dəniz *qırağında* var yastı daxma; Gəl, ona məhrəm ol, biganə baxma (M.Rahim); **YAXA** Paris küçəsində, Nil *yaxasında*, Yenə al bayraqlı izdihamlar var (S.Vurğun); **KƏNAR** ..həyətdə bir müsəlman arvadı arxın *kənarında* qab yuyurdu (C.Məmmədquluzadə).

**sahir** *bax* sehrbaz

1. **SAXLAMAQ** (*hərəkətini kəsmək mənasında*) [Leytenant] elektrik fənərləri ilə işıqlanmış küçənin ortasında motosikli *saxladı* (İ.Əfəndiyev); **DAYANDIRMAQ** Tapdıq Mayisi və onun əlindəki dəftərləri görən kimi maşınını *dayandırdı* (Ə.Vəliyev); **ƏYLƏMƏK** "Salaməleyküm" səsi məni *əylədi* (A.Divanbəyoğlu).

2. **SAXLAMAQ, DOLANDIRMAQ** (*yaşamaq üçün hər şeylə təmin etmək*)

1. **SAXTA** [Qaplan:] Mən sənə *saxta* pasport taparam (A.Şaiq); **QƏLP** Gümüş tunc oldu, zəri zibam bez; *Qəlp* çıxır aldığım mal, qoca bəxtim! (Aşıq Ələsgər); **QONDARMA** Nina *qondarma* bir addır və bu adın altında tamamilə ayrı bir qız, bəlkə də bir neçə qız çalışır... (S.Rəhman); **QEYRİ-HƏQİQİ**.

2. **saxta** *bax* yalan

**salqə** *bax* şimşək, ildırım

**sail** *bax* dilənçi

**SAİT** (*dilç.*) Dünya dillərində *saitlərin* miqdarı müxtəlifdir (N.Məmmədov); **SƏSLİ** Məlum olduğu üzrə, *səslilər* üçün ən mühüm şərt hava axınının olmasıdır (A.Axundov).

1. **SAKİN** (*müəyyən bir şəhərin, kəndin və s.-nin sakini*) Şahsuvar gecənin qoynunda *sakin*; Qəlbində intiqam, gözlərində kin (S.Vurğun); **ƏHALİ** Kəndin *əhalisinin* miqdarı olar təqribən iki yüz nəfər (C.Məmmədquluzadə); **ƏHL** (*kl.əd., köhn.*) Səhra mərdümünü şəhr *əhli* görcək; Yalvarıb, yapışıb oturdur çəmmək (Q.Zakir).

2. **sakin** *bax* sakit 2

1. **SAKİT** (*müxtəlif mənalarda*) [Qəhrəmanov:] Baxırsan ki, bir küncdə *sakit* oturub, kiminsə dalında gizlənib (M.Hüseyn); **BAŞIAŞAĞI, FAĞIR** [Səfər] *fağır, başıaşağı* bir oğlandı (Ə.Haqverdiyev); **DİNC, FARAĞAT** Onları qabaqlayaraq *dinc, farağat* oturmalarını əmr etmişdi (S.S.Axundov).

2. **SAKİT, HƏRƏKƏTSİZ, SAKİN, SƏSSİZ**

3. **sakit** *bax* lal 2

4. **sakit** *bax* arxayın I

1. **SAKİTLƏŞMƏK** Müəllim bir qədər *sakitləşdikdən* sonra hamının eşidə biləcəyi bir yüksəklikdə son siyasi hadisələrdən danışır, sağların hərəkətlərini tənqid edirdi (A.Şaiq); **ACIĞI YATMAQ** (*fr.v.*) Ona görə də dərhal *acığı yatdı*.. (S.S.Axundov); **KİRİMƏK** [Paşa:] Nə olar, uşaq döyülər də, ağlar da, *kiriyər* də! (Mir Cəlal); **SAKİT OLMAQ** Bunlar axırda *sakit oldular* (S.S.Axundov); **TOXTAMAQ** [Fərəc:] Siz bir az *toxtayın*, biz hamısını başa salarıq (Anar).

2. **SAKİTLƏŞMƏK, TƏSKİNLİK TAPMAQ, RAHATLANMAQ**

1. **SAKİTLİK, XAMUŞAN** Dərə, təpə *sakitlikdir, xamuşan*; Yoxdur kənd içində bir nəfər insan (A.Səhhət); **XAMUŞANLIQ** Ətraf tamam *xamuşanlıq* idi (S.Qənizadə); **XAMUŞLUQ** ..yayın isti *xamuşluğunu* pozan ancaq minarələrdən gələn minacat səsi idi (B.Talıblı); **SƏSSİZLİK** Nə bir insan səsi; Nə bir ağac kölgəsi; Ancaq nəhayətsizlik; *səssizlik*.. (R.Rza); **SÜKUT** Meşədə dərin bir *sükut* vardı (M.Hüseyn).

2. **sakitlik** *bax* əmin-amanlıq

**saqın** *bax* uzaq

**saqındırmaq** *bax* uzaqlaşdırmaq I

**SAQİ** *Saqi*, tez ol mey ver bizə; Mey içində üzə-üzə; Səmalara səs salaq biz (M.Seyidzadə); **AYAQÇI** (*qəd.*) Cam içirən *ayaqçıya* döndü Füzuli; Şairlərə bir içim mey sundu Füzuli (H.Cavid); **ŞƏRABPAYLAYAN.**

**SAQQAL** [Mümtaz Mötəbərov:] *Saqqalım* yoxdur sözüm ötmür! (M.Hüseyn); **RİŞ** (*kl.əd.*) ..Qismətin olmur, olmasın!.. Başına eşqi dolmasın! *Rişini* Zalxa yolmasın! (M.Ə.Sabir).

**SAQQIZ** Kişinin papağını götürəndə gördük *saqqız* layiqincə suvanıb başına.. (Ə.Haqverdiyev); **ZAMAT** (*köhn.*) [Oğlan:] Atamın başına yapışdırdığın *zamat* qopmur (Ə.Haqverdiyev).

**sal** *bax* bərə I

**salçı** *bax* bərəçi

**1. SALAM** [Qəndab:] *Salam*, ay etibarsız xalaqızı.. (B.Bayramov); **ƏSSALAM** (*köhn.*) Əssalam, ey əhaliyi-Qafqaz.. (S.Ə.Şirvani); **GÜNAYDIN** [Gülyaz:] Salam, usta baba, *günaydın*, qızlar!.. (M.Rzaquluzadə); **XOŞ GÖRDÜK** [Bəhmən:] Vay, *xoş gördük*, haradan belə? (S.Vurğun).

**2. SALAM, TƏBRİK** Vidadi ilə içəriyə girənlərin *salam*, *təbrik* və alqış səsləri eşidildi (Ə.Vəliyev); **SALAM-DUA** [Nurəddin:] Məndən Bahara *salam-dua* yetir.. (S.S.Axundov).

**SALAMAT** [Səadət xanım:] Əlac nədir.. hər zülmə, cəbrə tab elərəm, ancaq Fəxrəddin *salamat* qalsın (N.Vəzirov); **ƏSƏN** (*qəd.*) Sağ *əsəndir* ol pəri-ru; Səndən eləmiş dili-bəri-ru (Xətayi); **SAĞ** [Xaco:] Padşah, nə qədər ki onlar *sağdır*, sizi hər an təhlükə gözləyir (A.Şaiq); **SAĞ-SALAMAT** [Umur bəy:] Bizim *sağ-salamat* qalmağımız kəfəni yırtıb çıxmaq kimidi (H.Abbaszadə); **SALİM** Tək-tək ayılan varsa da, haq-dadıma çatsın; Mən *salim* olum, cümlə cahan batsa da, batsın (M.Ə.Sabir); **SAĞLAM** (*bax*).

**salamatlaşmaq** *bax* xudahafizləşmək

**salam-dua** *bax* salam 2

**SALAMLAŞMAQ** (*bir-birinə salam vermək*) Mənsur sürücü ilə *salamlaşıb* soruşdu: – Həmid Səfərovu gətirdin? (H.Abbaszadə); **ƏL UZATMAQ/VERMƏK** Müzəffər qabağa gəlib, utana-utana Bağıra *əl uzatdı* (İ.Məlikzadə); Əşrəfin gözü yaşardı. Uşaqlar *əl verib* bir-bir Kipiani ilə görüşdülər (İ.Şıxlı).

**saleh** *bax* yaxşı I

**salıq** *bax* xəbər I

**salınmaq** *bax* sərilmək I

**salim** *bax* sağlam, salamat

**SALLAQXANA** Xalıqov *sallaqxananın* bütün ənənəsini .. mühafizə etməklə bərabər, yenilik gətirmişdi (B.Bayramov); **QƏSSABXANA** İnsafən, hamballıqdan tərəqqi edib, palanını ulağın belinə qoyan Abbas nəinki *qəssabxanalara*, hətta ictimai-iaşə obyektlərinə.. əti vaxtlı-vaxtında çatdırırdı (B.Bayramov); **ƏT DÜKANI** [Firuzə:] İnstitutu atdı, getdi oldu qəssab. İndi də *ət dükanının* müdiridir (Anar).

**SALMA** ..xanım kimi altı-yeddi stəkan *salma* çay içdiyini də yalan deyirəm (S.S.Axundov); **ŞİRİN ÇAY** *Şirin çayın* qəndiyəm; Zülflərin kəməndiyəm; Aləm tufana gətsə; Gözlərinin bəndiyəm (Bayatı)

**1. SALMAQ, DÜŞÜRMƏK** (*əlindən salmaq*)

**2. salmaq** *bax* 1. tikmək 1; 2. soxmaq; 3. sərmək I

**salon** *bax* zal

**SAMİT** (*dilç.*) Azərbaycan dilinin *samitləri* bir-birindən əsas küy yaradıcı orqanı, küyyaratmanın növünə, tələffüzünə, gərginliyinə, səs tellərinin tələffüzündəki roluna görə fərqlənir ("Müasir Azərbaycan dili"); **SƏSSİZ** Qeyd edildiyi kimi, *səssizlər* tələffüz zamanı müxtəlif maneələrə rast gələn səslərdir (A.Axundov).

**san** *bax* 1. say 1; 2. ad-san

**sanballı** *bax* ağır 1

**sancaq** *bax* neştər I

**SANCI** (*kəskin ağrı*) O günün axşamı xəstə Eyvazın; Qəfil ürəyinin *sancısı* tutdu (B.Vahabzadə); **AĞRI** Elə güc gəldi ki, ona *ağrılar*; Günüzkü dərdini tamam unutdu (B.Vahabzadə); **SIZI** (*yüngül ağrı*) Bütün vücudumda bir qırıqlıq, bir *sızı* hiss edirəm (A.Şaiq); **SIZILTI** (*yüngülvari ağrı*) İsfəndiyar bədəninin *sızıltısını* azaltmaq üçün böyrü üstə uzandı (M.Hüseyn); **ZOQQULTU** (*bərk ağrı*) [Boyin] gicgahlarından qalxan *zoqqultu* ona əziyyət verirdi (Ə.Vəliyev).

**sancılmaq** *bax* batmaq I, 4

**sancmaq** *bax* 1. çalmaq II; 2. soxmaq; 3. taxmaq; 4. ağrımaq; 5. acılamaq.

**sandalya** *bax* kreslo

**sandıq** *bax* xəzinə 2

**sandıqça** *bax* mücrü

**sanki** *bax* guya

**1. SANMAQ** *Sanıram* hər yanda olsam mən yenə; Arzumun gözləri rast gələr sənə (M.Rahim); **GÜMAN ETMƏK/ELƏMƏK** Musa cəld özünü bayıra atdı. Müxbirin gəldiyini *güman etdi* (X.Hasilova); **ZƏNN ETMƏK/ELƏMƏK** [Nazlı] qızının çarpayıda üstü açıq uzandığını görəndə onu yatmış *zənn etdi*, əyilib üstünü örtdü... (Y.Şirvan).

**2. sanmaq** *bax* saymaq I

**I SAP, İP**

**II sap** *bax* dəstək I

**SAPDIRMAQ** [Oqtay:] Mən də onu *sapdırıram* (C.Cabbarlı); **AZDIRMAQ** [Qoyun gətirən adam:] A başına dönüm, məni niyə *azdırırsan?* (Anar); **YAYINDIRMAQ** Yanında bulunan qadınlar [Gülzarı] *yayındırmaq* və əyləndirmək üçün qrammofon oxudurlar (T.Ş.Simurğ); **ÇAŞDIRMAQ** (*bax*).

**saplı** *bax* dəstəkli

**1. SARALMAQ, SARI OLMAQ, SARI RƏNG ALMAQ**

**2. saralmaq** *bax* solmaq

**SARAY** (*padşah sarayı*) [Xaco:] ..bu *saray* məni elə dərdə salmayıb ki, mənə kəbin kəsə biləsiniz (A.Şaiq); **BARGAH** (*tənt.*) [Nurəli:] ..bir gün İsfahanda Şah Abbas öz *bargahında* əyləşib vəzirinə dedi: Ey vəzir, mənə bir yaxşı hekayət nağıl elə (C.Məmmədquluzadə); **İMARƏT** Mən bəzək vurmalıyam *imarətə* əlimlə; İftixar etməliyəm şadlanıb əməlimlə (M.Rahim); **KAŞANƏ** Ürəyindən vurdu, gözündən vurdu; Qabarlı əllərlə *kaşanə* qurdu (S.Rüstəm); **QƏSR** Tavanda çilçıraqlar, döşəmədə xalçalar; *Qəsrdəki* ziynətə şahlar belə əl çalar (B.Vahabzadə).

**SARBAN** (*dəvənin başını çəkən, karvan aparan*) Gedir, gedir qəm karvanı; ..*Sarban* baxır uzaqlara; Lənətləyir zamanını (M.Rahim); **KARVANÇI** Qızlar *karvançılardan* eşidirlər, bilirlər ki, canına qurban olduğum vətən torpağına sabah da olmasa, birisi gün çeşt vaxtı vida edəcək (Ə.Cəfərzadə).

**SARĞI, BİNT, SARIQ.**

**1. SARI** (*rəng*) Axşam yatmamış xanım Güləbətini özü ilə üzbəüz oturdub nazik *sarı* rəngli karandaşı və bir vərəq kağızı qabağına qoydu (M.İbrahimov); **ZƏRD** (*kl.əd.*) Əşkimi çöhreyi-*zərdimi* görüb qədr etməz; Mən eşitmişdim edər simü zər insanı əziz (Q.Zakir).

**2. sarı** *bax* tərəf I

**3. sarı** *bax* qızıl I

**SARIKÖYNƏK** (*zool.*) Mən ..alaçəhrə, şeyda bülbül, *sarıköynək*, baltadimdik kimi oxuyan bağ quşlarını.. Tağı əminin vasitəsilə gördüm, öyrəndim (S.S.Axundov); **SARISANDAL** Bülbüllərin cəh-cəhi, qaranquşların oxumağı, iki qardaş "Yusif-Nəsif" quşunun bir-birini çağırmağı, *sarısandal* quşunun "Ayran çiləv, südlü plov" deyib bağırması hər tərəfə səs salmış idi (R.Əfəndiyev).

**sarıq** *bax* 1. sarğı; 2. əmmamə

**sarıqlı** *bax* əmmaməli

**sarılmaq** *bax* sarmaşmaq I

**1. SARIMAQ** (*sarğı ilə bağlamaq*) Gedək həkimxanaya; Tez *sarıyım* yaranı (B.Vahabzadə); **BAĞLAMAQ** Döşümü süngüylə düşmən yaranda; Yenə sən, deyirəm *bağla* yaramı (M.Rahim).

**2. sarımaq** *bax* dolamaq

**sarımsov** *bax* sarımtıl

**SARIMTIL** (*sarı rənginə çalar*) [Məktubu] didik-didik olana qədər *sarımtıl* əsgər köynəyinin cibində gəzdirdiyi yadına düşdü (İ.Məlikzadə); **SARIMTRAQ** [Araz] ayılarkən... *sarımtraq* bir işıq zolağından səhər olduğunu bildi (A.Şaiq); **SARIMSOV, SARIYAÇALAR.**

keçdi (B.Bayramov); **AĞAYANA** Naməlum adam *ağayana* hərəkətlə, tələsmədən qoltuq cibindən böyük bir portmanat çıxardı (M.İbrahimov); **SAYMAZCASINA.**

**saysız** *bax* saysız-hesabsız

**SAYSIZ-HESABSIZ** (*olduqca çox*) Bu dəhşətli uçurum idi, *saysız-hesabsız* istedadları diri-diri udub məhv edən, ezib kütləşdirən uçurum idi (M.İbrahimov); **BİŞÜMAR** (*kl.əd.*) Gör cəhalətdən nə şəklə düşdü vəziruzigar! Qətlü qarət *bişümarü* şəhrü qəhrə tarimar (M.Ə.Sabir); **HESABSIZ** Çoxlarına dünya olduqca dardı; Məhbəsdə çürüdü *hesabsız* insan... (S.Rüstəm); **HƏDSİZ** Var özgə vilayətdə tək-tək köpək oğlu; *Hədsizdi* bu viranədə, bişək, köpək oğlu (Q.Zakir); **QƏDƏRSİZ** Elə bil qımsallıqda birdənbirə *qədərsiz* göbələk baş qaldırmışdı (X.Hasilova); **SAYSIZ** Böyük pambıq tarlasında *saysız* adam var (R.Rza); **BİHESAB, HESABAGƏLMƏZ, KÜLLİ, SAYAGƏLMƏZ.**

**sazaq** *bax* şaxta I

**sazan** *bax* çəki II

**sazəndə** *bax* çalğıçı

**saziş** *bax* 1. müqavilə; 2. birlik I

**sazlıq** *bax* sağlamlıq

**1. SEÇİLMƏK, ÜSTÜNLÜK ALMAQ**

**2. SEÇİLMƏK, GÖRÜNMƏK, NƏZƏRƏ ÇARPMAQ**

**3. seçilmək** *bax* fərqlənmək

**seçmək** *bax* bəyənmək

**sehr** *bax* cadu I

**SEHRBAZ** *Sehrbaz* Obçina meydanında oyun göstərdiyi zaman yığılan pulları həmişə onunla yarı bölürdü (S.Vəliyev); **CADUGƏR** Padşah aləmin doğrudan da *cadugər* olduğunu düşünüb qorxusundan bir söz demədi, vəzirin isə qorxusundan ürəyi partladı (M.İbrahimov); **CADUKÜN** (*köhn.*) [Mostəli şah:] Ondan ötrü ki, onlar minbərə çıxıb aşkara xalqa vəz edirmişlər ki, *cadukünə* və sairə inanmayın (M.F.Axundzadə); **CİNDAR** Bu kənddə nə məscid, nə *cindar* vardı; Ayrı etiqadla şənlik yaşardı (M.Dilbazi); **OVSUNÇU** *Ovsunçuyam*, ovsun sallam hi mara; Bənnə olsan, tərki axtar, him ara (Aşıq Ələsgər); **SAHİR** (*arx.*) [Oqtay:] Sən də ey böyük *sahir*, söndür bu günəşləri, ay, ulduzları (C.Cabbarlı); **SEHRKAR** [Vahid:] Sən *sehrkarsan*, cadugərsən, kibernetik maşınsan (M.İbrahimov); **TİLSİMÇİ** (*nağıllarda*) *Tilsimçi* qoca üzüyü özü üçün götürüb (Nağıl); **CADUÇU.**

**SEHRBAZLIQ** Uşaqlıqda onun başından şairlik fikri keçmişdisə də, nəticədə *sehrbazlıq* ixtisasını qazanmışdı.. (S.Vəliyev); **CADUBAZLIQ** Yenə dualar, yenə *cadubazlıq* meydana gəldi (N.Nərimanov); **CADUÇULUQ** Kahinlərin falçılığı, *caduçuluğu* çox mütədavildir (F.Ağazadə); **CADUGƏRLİK** Müəllif [M.F.Axundzadə], xalqın müxtəlif cadugərlərə və *cadugərliyə* inanmasına gülürdü (Ə.Haqverdiyev); **SEHRKARLIQ** [Höccətullah:] *Sehrkarlığa* milləti öz sözünə aludə edibdir! (S.Rəhimov); **CİNDARLIQ.**

**sehrkar** *bax* sehrbaz

**sehrkarlıq** *bax* sehrbazlıq

**SEHRLƏMƏK** [Məzlum:] Skripka məni *sehrlədi..* (S.Vəliyev); **OVSUNLAMAQ** Elə bil onu [Könülü] *ovsunlamışdılar..* (X.Hasilova); **CADULAMAQ, TİLSİMLƏMƏK, TİLSİMƏ SALMAQ.**

**SEHRLİ** Çox dərdləri bilən həkim; Dedi: əgər *sehrli* nar; Yesə, bu xəstə sağalar (M.Seyidzadə); **TİLSİMLİ** [Şahlar] həmin nağılın qəhrəmanı insana əbədi həyat verən çiçəyi tapıb gətirməyə gedərkən üç *tilsimli* dağ aşmışdı (İ.Əfəndiyev); **CADULU, OVSUNLU.**

**sekta** *bax* təriqət

**seqment** *bax* buğum I

**semiçka** *bax* tum 2

**ser** *bax* cənab

**SERİYA, HİSSƏ, SİLSİLƏ**

**SERTİFİKAT, SƏNƏD, VƏSİQƏ**

**sevda** *bax* məhəbbət I

**sevdalı** *bax* vurğun

**sevdasız** *bax* məhəbbətsiz

**sevə-sevə** *bax* həvəslə 2

**sevgi** *bax* məhəbbət I





**1. SEVGİLİ, HƏBİB, NİGAR** (*məc.*), **YAR** (*kl.əd.*) Nə müddətdir, gözüm rahindədir, yarım, sən səfa gəldin; *Həbibim, sevgilim, yarım, nigarım*, sən səfa gəldin (M.V.Vidadi); **CANAN** *Cananla* bir yerdə olduğum zaman; Hər günüm uzanıb bir ilə dönsün (M.Rahim); **İSTƏKLİ** [Fərman:] Mənə ancaq öz *istəklim* lazımdır (Ə.Haqverdiyev); **MƏHBUB** (*kl.əd.*) Bizim yanımızda bir "obrazovannı" müsəlman cavanı ilə Tamara adlı bir *məhbub* qız oturmuşdu (M.S.Ordubadi); **MƏHBUBƏ** (*kl.əd.*) Xanım, tutaq ki, sizin *məhbubənizlə* yad bir kişi gəzir. Onda nə edərsiniz? (Çəmənzəminli); **MƏŞUQ(Ə)** (*kl.əd., şair*) Şirin xəyalata meydan verib, Sitarə yenə *məşuqu* ilə ömür bağçasında gəzib dolanırdılar... (Çəmənzəminli); **VƏFADAR** (*kl.əd.*) Məhəbbət payidar olmaz; *Vəfadar* olmayan yerdə (M.V.Vidadi).

**2. sevgili** *bax* sevimli I

**sevgisiz** *bax* məhəbbətsiz

**1. SEVİMLİ, ƏZİZ** [Gülsüm qızına:] Ay qızım, *əziz* balam, belə mısmırıq töküb, göz yaşı axıtmaq da yaxşı deyil (X.Hasilova); **GİRAMİ** (*kl.əd.*) Dəmə Zakir, ki səni yar *girami* tutmaz (Q.Zakir); **İSTƏKLİ** Yazıq qızcığaz *istəkli* dostu Qaraca qızla görüşə bilmədi (S.S.Axundov); **SEVGİLİ** İndi beş ildir tamam dinimə əl qatmısız; *Sevgili* övladımı kafirə oxşatmısız (M.Ə.Sabir).

**2. sevimli** *bax* cazibəli

**SEVİNC, FƏRƏH** Hamının üzündə bir *sevinc*, şənlik, *fərəh* hiss olunurdu (S.Vəliyev); **NƏŞƏ** Muxtar qatı açılmamış xəbərləri söyləyib Cavadın *nəşəsini* artırdı (Ə.Vəliyev); **VƏCD** (*həddən artıq sevinc*) Sevincimin, *vəcdimin* çoxluğundan durub oynamaq istəyirdim (M.F.Axundzadə); **BƏHCƏT** Sürücünün şərqisində vətən səsi dinlənir; Gah ruhuma *bəhcət* verir, gah qəlbimə qəm gəlir (A.Səhhət); **MÜSƏRRƏM** (*kl.əd.*) [Şeyx Sənan:] Kədər, işkəncə var; *Müsərrəm* yox (H.Cavid); **SÜRUR** (*köhn.*) [Sitarə:] Fikrimin, qəlbimin *sürurı*, həmşirəm Rəmziyyə! (A.Şaiq); **DİLŞADLIQ** Mən bu dudmanı həmişə abad və içində *dilşadlıq* görmüşəm (Ə.Haqverdiyev); **SEVİNMƏ, ŞADLIQ** (*bax*).

**sevindirmək** *bax* şadlandırmaq

**sevinmək** *bax* şadlanmaq

**1. SEVMƏK** [Bərbərzadə:] Mən onu *sevmişəm*, o da məni (S.Rəhman); **İSTƏMƏK, MƏHƏBBƏT YETİRMƏK, SEVDAYA DÜŞMƏK, VURULMAQ** (*bax*).

**2. sevmək** *bax* xoşlamaq I

**3. sevmək** *bax* oxşamaq 2

**seyd** *bax* ovçu

**seydgah** *bax* ovlaq

**seyf** *bax* yay I

**SEYİD** (*ləqəb kimi seyidlərin adlarının əvvəlində işlədilir*) *Seyid* Səməd başını bir silkələdi.. (Ə.Haqverdiyev); **XACƏ** A.Səhhətin şeirlərindən biri "*Xacə* Hafiz" adlanır (N.Seyidəliyev).

**seyidmalı** *bax* xüms

**seyvan** *bax* eyvan

**SEZMƏK** Axır Könül onu da *sezmişdi* ki, Kərim onun filarmoniyada çıxış etməsindən də narazıdır (X.Hasilova); **HİSS ETMƏK** Həsən bunu açıq *hiss edirdi* (M.İbrahimov); **EHSAS ETMƏK** (*köhn.*) [Əbülhəsən bəy:] ..gözlərim bu qədər cinayəti görməkdən, beynim isə *ehsas etməkdən* və duymaqdan yorulmuşdu (M.S.Ordubadi); **DUYMAQ** Qazı çoxdan *duymuşdu* ki, bu kişi düşübdür (C.Məmmədquluzadə); **OXUMAQ** (*məc.*) ..mən də sənin gözlərində başqa şeylər *oxumuşdum* (Ə.Məmmədxanlı).

**səadət** *bax* xoşbəxtlik

**səadətli** *bax* xoşbəxt

**səadətsiz** *bax* bədbəxt

**səadətsizlik** *bax* bədbəxtlik I

**səbat** *bax* dəyanət, sədaqət

**səbatlı** *bax* dəyanətli

**1. SƏBƏB, BAİS**

**2. səbəb** *bax* səbəbkar

**SƏBƏBKAR** Göz kor, dil qıfıllı, qulaqlar da kar; Xeyr, sənət deyil buna *səbəbkar* (M.Rahim); **BAİS** [Səriyyə:] Bu işlərin də *baisi* Həmzə ilə anamdır (C.Cabbarlı); **BANİ**

vər bəyim:] Sən atanın goru qıxdır saqqalını, bir topuğu tüklü də qız al, *rədd ol* başımızdan (N.Vəzirov).

**süründürməçi** *bax* rəsmiyyətçi

**süründürməçilik** *bax* rəsmiyyətçilik

**SÜRÜNDÜRMƏK, GET-GƏLƏ SALMAQ, LƏNGİTMƏK, YUBATMAQ**

**süs** *bax* bəzək

**süsləmək** *bax* bəzəmək

**süslü** *bax* bəzəkli 1

**SÜST** (*müxtəlif mənalarda*) [Həmzə:] Bütün günü *süst* oluram, elə bil xəstəyəm.. (Ə.Qasımov); **ƏTALƏTLİ** [Uzundərə] əski Şərqin tələsmək bilməyən *ətalətli* ruhunu özündə saxladığı üçün maraqsız deyildi (S.Hüseyn); **ƏZGİN** Birinci dəfə olaraq əri ona [Mədinəyə] *əzgin* və zavallı göründü (M.İbrahimov); **XƏSTƏHAL** Eşitmiş *xəstəhaləm*, göndərib şux qəmzə peykanın (Q.Zakir); **LOŞ** Bəylər öküz kimi yatmışdı sərxoş; Paltarilə yerə sərilmişdi *loş* (M.Müşfiq); **ÖLGÜN** Dəhşətlidir bu xəstənin əhvalı; İnsanlığın *ölgün*, solğun idealı! (A.Şaiq); **LƏMS, LIRT** (*məc.*), **LƏT, PASSİV** (*bax*).

**SÜSTLÜK** [Yusif] var qüvvəsi ilə çalışaraq *süstlük* taqətsizliyi yaxına buraxmır.. (Ə.Hacızadə); **KƏSALƏT** Boğazıma qədər yorğana sarılaraq gəmiklərim qızındıqca nəşəli bir *kəsalət* içində gözlərimi qapayıb qulaqlarımın ucunda cınlayan həzin bir gurultunu dinləyirdi (A.Şaiq); **NƏQAHƏT** (*xəstəlikdən sonra olan süstlük*) [Əliqulu:] Ancaq ərbabın bir balaca *nəqahəti* var (S.S.Axundov); **ƏZGİNLİK, XƏSTƏHALLIQ, ÖLGÜNLÜK.**

**sütun** *bax* dayaq 1

**süvari** *bax* atlı

**süysün** *bax* boyunardı

**süzmək** *bax* **1.** tökmək 1; **2.** calamaq; **3.** oynamaq 1; **4.** uçmaq 1





# Şş

**ŞABALID** (*ağacı və meyvəsi*) ..Ocağın dövrəsində döşəkçələrdə düzülüb oturardıq.. *şabalıd* qovurardıq (Çəmənzəminli); **KƏSTANƏ** [Muxtarla xammı] ...yasəmən və *kəstanə* çiçəklərinin rayihəsi əhatə edi (Çəmənzəminli).

**ŞABALIDI** (*rəng*) Fikrət *şabalıdı* saçlarını tumarlaya-tumarlaya Fatma arvaddan soruşdu.. (H.Abbaszadə); **KƏSTANƏ RƏNGLİ** [Xədicənin] nəzər-diqqətini cəlb edən bir işi vardısa, o da həddindən fəzlə gur *kəstanə rəngli* saçları idi (M.Hüseyn); **ŞABALID RƏNGLİ.**

**şablon** *bax* **1.** ölgü; **2.** bayağı

**ŞAD** (*əhvalı yaxşı*) Dərd bilmərəm, yas tutmaram, çox *şadam;* Mən də şair, sənin kimi azadam (M.Rahim); **ABAD** (*məc.*, *kl.əd.*) Qarşıdan bir can yeridi; *Abad* könlümün evini; Eylədi viran, yeridi (Aşıq Ələsgər); **XƏNDAN** Döndü qəbiristandan; O şad, o xəndan; Xəyalı ulduzla, ayla öpüşdü (B.Vahabzadə); **XOŞHAL** ..buna o əsrin müsəlmanları *xoşhal* ola bilməzdilər.. (C.Məmmədquluzadə); **XÜRRƏM** (*köhn.*) [Musa:] Kimin ki, yarı var, ondan qəm olmaz; Kimin ki, yarı yoxdur, *xürrəm* olmaz (S.Rəhman); **MƏSRUR** ..şəhər hürr və *məsrur* idi (Çəmənzəminli); **ŞADMAN** (*kl.əd.*) Olmadı hiç *şadman*, əfsus! (Natəvan); **ŞADYANA** [Səlimə:] Mən istəyirəm ki, o da xoş, *şadyana* bir söz desin (İ.Əfəndiyev); **ŞƏN** [Axilles:] Gəlir Rum qeysəri, çox *şəndir* yenə; Bu gün də verəcək xələt, xəzinə (A.Şaiq).

**ŞADLANDIRMAQ** Məktub Hacını həddindən artıq *şadlandırdı* (M.S.Ordubadi); **SEVİNDİRMƏK** [Bərbərzadə:] Mirzə sən məni *sevindirdin*. Otu görüm (S.Rəhman); **ŞAD ETMƏK/ELƏMƏK** Dodaqlardan təbəssüm – demək əsərdən aldığı zövq, nəşə qəlbini *şad etmiş* (S.S.Axundov); **ŞƏNLƏNDİRMƏK** Fəttah onu *şənləndirmək* üçün Molla Nəsrəddinin məzəli lətifələrindən danışdı.. (H.Abbaszadə); **ÜRƏYİNİ AÇMAQ** (*fr.v.*) Usta Murtuz xəstənin *ürəyini açmaq* üçün şirin söhbətlər edədi.. (Mir Cəlal).

**ŞADLANMAQ** Gəl ki, son gələndə *şadlanır* ömür (S.Vurğun); **FƏRƏHLƏNMƏK** Sərvinaz qarı evə dönüb hər şeyi hazır görəndə *fərəhləndi* (B.Bayramov); **XOŞHAL OLMAQ** Molla bacı mütəəllimlərin təbrikindən çox *xoşhal olub* gülümsünürdü.. (Çəmənzəminli); **SEVİNMƏK** Əziz mehribanın çatdı məktubun; Nə qədər *sevindik* bilsən ürəkdən (M.Rahim); **ŞAD OLMAQ** Ələsgərəm *şad olmadım* dünyada... (Aşıq Ələsgər); **ŞƏNLƏNMƏK** Cavanlar dənizdə top-top oynayır, səs-küy sala-sala *şənlənirdi* (H.Abbaszadə); **VƏCDƏ GƏLMƏK** [Yavər:] "Bəh-bəh! Belə şeydən doymaq olmaz!" – deyib ürəkdən *vəcdə gəlirdi* (M.İbrahimov).

**ŞADLIQ** Evimə qucaq-qucaq; *Şadlıq* gətirən; Nə desəniz varımdır (M.Rahim); **FƏRƏH, SEVİNC** Hər şeydə *fərəh, sevinc*, təravət; Artıq oyanıb gülür təbiət (A.Şaiq); **ŞADYANALIQ** [Şamxal:] Əgər o görsəydi və bilsəydi ki, bu ailə düz iyirmi beş ildi necə bir şadlıq, *şadyanalıq* içində xoşbəxt, bəxtiyar yaşayır, onda deyərdi ki, bəli, cənnət bax belə imiş (Anar); **ŞƏNLİK** Belə inqilabi şadlıq-*şənlik* zamanında Kankan Teybəlinin qayğısı azalmaqdansa artırdı (S.Rəhimov); **DİLXOŞLUQ.**

**şadman** *bax* şad

**şadyana** *bax* şad

**şadyanalıq** *bax* şadlıq

**1. ŞAGİRD** Məktəbin .. mədəniyyət bürosu tərəfindən hər *şagirdə* ayrı-ayrı bəxşişlər verildi (A.Şaiq); **MƏKTƏBLİ** [Pərviz:] Olmadı ki! – deyib atam başını buladı, – bəs siz necə *məktəblisiniz*, birdən işığınız xarab oldu, deməli, oturacaqsınız qaranlıqda, hə?! (M.İbrahimov); **MÜRİD** (*köhn.*) Ölümündən bir qədər qabaq Nəsiminin müəllimi Fəzlullah Nəimi *müridinə* Bakını tərk etməyi məsləhət görmüşdü (Anar); **MÜTƏƏLLİM**

(*köhn.*) Molla bacı *mütəəllimlərin* təbrikindən çox xoşhal olub gülümsünürdü.. (Çəmənzəminli).

**2. ŞAGİRD** (*usta köməkçisi*) [Qəndab:] Maşında yazan qadına *şagird* olmaq haqqında Çingiz qadağan elədiyi xahişdən də bir şey çıxmadı (B.Bayramov); **KARGƏR** (*köhn.*).

**şah** *bax* padşah

**ŞAHDAMAR** (*anat.*): **AORTA** (*ən böyük qan damarı*)

**ŞAHƏNŞAH** Hörmət eləmədin bir *şahənşaha;* Məzarın döndüsə ziyarətgaha (M.Rahim); **ŞAHLAR-ŞAHI** [Şapur:] O *şahlar-şahıdır,* taxtı-tacı var; Ona yer üzünün ehtiyacı var.. (S.Vurğun).

**şahlıq** *bax* padşahlıq

**ŞAHMAT** [Həmidə:] Bu saat çağırım gəlsin, söhbət eləyin, *şahmat* oynayın, uşaq da onacan yatar (Anar); **ŞƏTRƏNC** (*arx.*) Oynamış sanki səninlə *şətrənc;* Şahı çıxmış oradan, qalmış mat (A.Şaiq).

**şahpərəst** *bax* padşahpərəst

**ŞAHZADƏ** (*köhn.*) [Əziz bəy:] Bu saatda gedirəm *şahzadəyə* bu əhvalatı müfəssələn bildirəm (M.F.Axundzadə); **ŞAH OĞLU** [Şirinə:] Doğrudan gözəldir.. vuruldum ona; Şah qızı layiqdir bir *şah oğluna* (S.Vurğun); **ŞAPUR** (*köhn.*) Sənətin fərhadları dağları çapan zaman; Vahimədən sarsılıb *şapurlar* diksinirlər (M.Rahim); **PRİNS.**

**1. ŞAX, DİK, DİMDİK, DÜMDÜZ, DÜZ, SƏRRAST**

**2. şax** *bax* budaq

**şaxə** *bax* budaq

**I ŞAXTA** Ancaq o yenə də dayanmış dimdik, sankı bir taxta; İşləmiş qanına bu quduz *şaxta* (S.Vurğun); **AYAZ** Gül rəngli havada toz, duman var; Dəhşətli soyuq, *ayaz,* boran var (A.Şaiq); **BÜRUDƏT** (*kl.əd.*) Tifillər şiddəti-*bürudətdən;* Ağlaşır zar-zar vəhşətdən (M.Ə.Sabir); **DON** Şaxtalı qışlarda ağacı həsirə bükmüşdü ki, *don* vurmasın (M.İbrahimov); **SAZAQ** Zərrintac xanımın tər yanaqları *sazaqdan* qızardı (S.Rəhimov); **SOYUQ** Alay-alay qəhrəmanlar canlarından keçərək; Qarlı, *soyuq* gecələrdə vuruşurlar sübhədək (Ə.Cəmil); **ZƏMHƏRİR** (*kl.əd.*) ..Son mövqeyi *zəmhərir* olacağım irəli sürürdü (Çəmənzəminli).

**II şaxta** *bax* mədən

**ŞAİR** (*şeir yazan yazıçı, şəxs*) İlk yaradıcılığa lirik şeirlərlə başlayan *şair* [S.Vurğun] gənc yaşlarında, əlbəttə, dramaturgiyadan çox uzaq idi (M.Arif); **SÖZ QOŞAN** (*məc. dan.*) Deyirlər *söz qoşandır,* neçə kitabı vardır; Yazdığını bir özü, yenə bir özü anlar (M.Rahim); **ŞEİR YAZAN/QOŞAN.**

**ŞAİRANƏ, POETİK**

**şalban** *bax* tir I

**ŞALLAQ** Yoldaşlarımın yanına qayıdanda Vəzirovun üzündə *şallaq* izi vardı, gözləri isə gülürdü (M.İbrahimov); **QAMÇI** [1-ci kəndli:] Koxalar, əllərində *qamçı,* hamını buraya gəlməyə məcbur edirdi (A.Şaiq); **QIRMANC** (*uzun şallaq*) Bir nəfər adam irəlidə, biri ortada, üçüncüsü lap geridə dəvəyə minib, səssizcə, yırğalana-yırğalana gəlir, hərdən-bir *qırmancla* dəvələrin burnundan vururdular (M.Hüseyn); **TATARI** Bir tərəfdə bir atlı; Atları yel qanadlı; *Tatarısı* əlində; Patrondaşı belində (M.Rahim); **TAZİYANƏ** (*köhn.*) [Koroğlu] Qırata bir *taziyanə* vurdu ("Koroğlu").

**ŞALLAQLAMAQ, QAMÇILAMAQ, QIRMANCLAMAQ, TATARILAMAQ** (*şallaqla vurmaq*)

**I ŞAM** (*keçmişdə çıraq yerinə yandırılan yumşaq maye*) Dedim: çoxdan könül sorağındadır; Dedi: pərvanə *şam* fərağındadır (M.Rahim); **MUM** [Sitarə:] Artıq axşam olmuş, *mumlar* yanmış, bəxtim kimi hər yeri həzin bir qaranlıq istila etmişdi (A.Şaiq); **ŞƏM** *Şəm* qürbilə təfaxür qılma ey pərvanə, kim; Xirməni-ömrün göyər bərqi-fənadən ənqərib (Füzuli).

**II ŞAM** (*axşam yeyilən xörək, yemək*) Anam qızarmış gözlərini silərək, *şam* hazırlayırdı (M.İbrahimov); **AXŞAM YEMƏYİ** Nina *axşam yeməyi* hazırlamışdı (M.S.Ordubadi).





**III ŞAM, ŞAM AĞACI** Alma, palıd, *şam ağacı* hal ilə; Eylədilər bəhsi bu minval ilə (M.Ə.Sabir).

**I ŞAN, DARAQ** (*bal şanı, arı şanı*)

**II şan** *bax* **1.** ad; **2.** şərəf 1; **3.** hörmət

**şana** *bax* **1.** yaba; **2.** daraq I

**ŞANAPİPİK** (*quş*) Əbdül birinci maşını gətirəndə stansiyanın dağlarında oxuyan *şanapipiyi* xatırladı, sonra Cəfər müəllimi (M.Süleymanlı); **HOP-HOP** [Qəndab:] Mənim sarı *hop-hopum* yenə budaqda öz mahnısını oxuyurdu (B.Bayramov); **HÜT-HÜT** Quşların də qəziyyələri bu dəftərdə yazılmışdı. *Hüt-hüt* qız imiş, çayda çimirmiş, başını daradığı yerdə birdən qayınatası böyürdən çıxır, qız utanıb üzünü göyə tutur: "Ey Allah, məni quş elə, həyam özümdə qalsın" (Çəmənzəminli); **KƏKİLDARAQ** (*məh.*) Çöl quşları: ...bildirçin, şoğal, *kəkildaraq,* çəpərsərçəsi, muradquşu, kəklik, tuquşu, qırğı, bülbül və s. ("Azərbaycan folkloru antologiyası"); **ŞİNƏBUB** Meynələrin altında hərlənən *şinəbublar;* Növbələşən kölgəyə, nura məftun olublar (X.Rza).

**1. ŞANLI** [Muxtar bəy:] Mənim nəslim *şanlı,* şərəfli Turanın cahangiri Teymur xanın nəslindəndir (S.S.Axundov); **ŞÖHRƏTLİ** Məlum şeydir ki, alimlərimiz və *şöhrətli* yazıçılarımızın çoxu Bakıdadırlar (C.Məmmədquluzadə); **ZİŞAN** (*kl.əd.*) Kişidən istənilən işdir, iş; Kim ki, iş yapdı, o *zişan* oldu (M.Ə.Sabir); **ŞƏRƏFLİ** (*bax*).

**2. ŞANLI, CƏSUR, QƏHRƏMAN, RƏŞADƏTLİ**

**şans** *bax* ümid

**şantan** *bax* kafeşantan

**şapalaq** *bax* şillə

**şapalaqlamaq** *bax* şillələmək

**şapka** *bax* **1.** papaq; **2.** rüşvət

**şapparlamaq** *bax* döymək I

**şapşap** *bax* çust

**şapur** *bax* şahzadə

**şatır** *bax* çörəkçi

**ŞARLATAN, AVANTÜRİST, BİC-HARAMZADƏ, MÜFƏTTİN** [Qonaq:] De görüm, *şarlatanın* toçnı mənası nədir? Mən bu sorğuya heç əhəmiyyət vermədim, qulağım ardım qaşıya-qaşıya cavab verdim: *Şarlatanın* toçnu mənası şarlantadır. Dedi: Daha sonra? – *Bic-haramzadə.* Dedi: Ayrı bir söz yoxmu? – *Avantürist.* Dedi: Bu kafi deyil, başqa bir sözlə aydınlaşdır. – *Müfəttin...* Dedi: Bildiyimi də unutdurdun. Müfəttin nədir? Mənə də görüm bu söz türk sözüdür, yoxsa rus? (Qantəmir); **FIRILDAQÇI** (*bax*); **HİYLƏGƏR** (*bax*).

**şayan** *bax* layiq

**şayəd** *bax* bəlkə

**şayəstə** *bax* layiq

**ŞAYİƏ** Əmir İnancın evinə tezliklə hücum ediləcəyi *şayiələri* hər yerdə danışılırdı (M.S.Ordubadi); **DEDİ-QODU** Bununla da Qızıl Arslan ixtilafın həll olunduğunu və *dedi-qoduların* bitdiyini zənn edərək sevinirdi (M.S.Ordubadi); **XƏBƏR** (*bax*), **SÖZ-SÖHBƏT** (*dan.*).

**ŞEH** ...Mən desəm artıqdır, özün bilirsən; Lalə yarpağında *şehə* bənzəyir (M.Müşfiq); **JALƏ** Bitər çəməndə lalələr, əlində al piyalələr; Səhər zamanı dür kimi düşər, ot üstə *jalələr* (A.Səhhət); **ŞƏBNƏM** (*şair.*) Dönmə bir *şəbnəmə* yaz səhərində; Könül, günəş kimi parla yerində (M.Müşfiq).

**ŞEİR** (*ədəb.*) Xan zamanında Vaqif neçə vaxt Kür qırağında qalıb, təngişməyi və vətənə qayıtmaq arzusunu bu *şeirdə* yazıb (Ə.Haqverdiyev); **ƏŞAR** Şairəm, çünki vəzifəm budur *əşar* yazım (M.Ə.Sabir); **NƏZM** Burada mən kitabı genə əlimə aldım və açdım orta səhifələrini vərəqlədim. Hər yeri *nəzm* idi (Ə.Haqverdiyev); **POEZİYA, TAZİYANƏ** (*kiçik satirik şeir*).

**ŞEİRLƏŞMƏ** (*ədəb.*) Aşıq Pəri.. öz *şeirləşmələri* ilə Qarabağ müasirləri içərisində böyük şöhrət qazandı.. (F.Qasımzadə); **DEYİŞMƏ** Onun [Aşıq Pərinin] *deyişmələri,* hazırcavabcasına dediyi şeirlər diqqəti cəlb edirdi (F.Qasımzadə); **MÜŞAİRƏ** O, müasirləri ilə apardığı *müşairələrdə* aciz qalmır, çox zaman.. üstün gəlirdi (F.Qasımzadə); **BEYTLƏŞMƏ.**

**UTANMAQ. HƏYA ETMƏK/ELƏMƏK** (*müxtəlif mənalarda*) Baxır, sanki söyləyir *həya et, utan* barı; Dünya alçalan görüb hər zaman saxtakarı (M.Rahim); **BAŞI AŞAĞI OLMAQ** [Pirverdi bəy:] Və bir dəfə olmayıb ki, mən dövlət yanında *başı aşağı olum* (C.Məmmədquluzadə). **ÇƏKİNMƏK** (*məc.*) [Qəndab:] Mən həm tutulduğumdan, həm də əmimdən *çəkindiyimə* görə şoferdən Məzahirin niyə qayıtmadığının səbəbini soruşa bilmirdim (B.Bayramov). **HƏYA ETMƏK** Bir-iki küçə dolandısa da Nurəddin *həya edib* bir kəsə əl uzada [dilənə] bilmədi (S.S.Axundov). **QIZARMAQ** (*məc.*) [Leyla:] Heç gözləməzdim. Şəkər, eyib olsun! – Leyla *qızardı* (B.Bayramov). **XƏCALƏT ÇƏKMƏK** [Şəkər:] Düzü budur ki, sizə verdiyim əziyyət üçün də sıxılıram, *xəcalət çəkirəm* (B.Bayramov). **UTANIB-QIZARMAQ** [Məmməd] qalxdı, *utanıb-qızararaq* səs gələn tərəfə getdi (Çəmənzəminli). **ARLANMAQ. XƏCALƏTLƏNMƏK. QISQINMAQ** (*dan.*). **SIXILMAQ** (*məc.*).

**utanmaz** *bax* həyasız

**utanmazlıq** *bax* həyasızlıq

**utopiya** *bax* xəyal I

**utopizm** *bax* xəyalpərəstlik

**uyarlı** *bax* uyğun

**uydurma** *bax* yalan

**UYDURMAQ** [Nazlı:] – guya böyük vəzifə sahibi Xaspoladovu, bax bunun bu Fərəc *uydurub* (Anar). **QONDARMAQ** Mirzə özündən *qondarıb* başqa söz yazır (S.Rəhimov). **GOPLAMAQ** (*bax*). **ÖZÜNDƏN DÜZƏLTMƏK**.

**UYĞUN. MÜNASİB. UYAR(LI)**

**1. UYMAQ** *Uymayın* ötəri şöhrətə, ada (B.Vahabzadə). **QAPILMAQ** [Lütənçu-oğlu] gənc olmasına baxmayaraq, başqaları kimi həlli müşkül olan arzulara *qapılmazdı* (M.S.Ordubadi).

**2. uymaq** *bax* vurulmaq I

**3. uymaq** *bax* aldanmaq

**UYĞUNLUQ. AHƏNG. HƏMAHƏNGLİK. MÜNASİBLİK. MÜVAFİQLİK**

**uyqu** *bax* yuxu

**uyqulu** *bax* yuxulu

**uyqusuz** *bax* yuxusuz

**uyumaq** *bax* yuxulamaq

**UZAQ. İRAQ** (*müxtəlif mənalarda*) [Şirin:] Eldən *uzaq* düşdüm, vətəndən *iraq*. Bir daş qəfəsdəyəm, ürəyim dustaq... (S.Vurğun). **ARALI** Düşmüşən ordudan uzaq, *aralı*; Özün ağır xəstə, ağır yaralı (S.Rüstəm); **CÜDA** (*kl.əd.*) Ey sevdiyim, səndən *cüda* düşəli; Nə səbri qərarım, nə mərəmim var (Q.Zakir); **GEN** (*dan.*) [Adilə öz-özünə:] Elsevərdən mümkün qədər *gen* gəzmək lazımdır (Ə.Qasımov); **SAQIN** (*köhn.*) *Saqın* gəzin, laçın gözü görməsin; Qorxuram səfinizi poza, durnalar! (M.P.Vaqif).

**UZAQGÖRƏN** Yox. Yox! Orda *uzaqgörən* oyuqlar da var; Haqq, ədalət, sülh söyləyən dayaqlar da var (S.Rüstəm); **DURBİN** (*məc.*) Özünüz, şükür, *durbin* adamsınız (Mir Cəlal). **KAHİN** [Şapur:] Bir *kahinəm* mən; Dünyada sirr qaçmaz nəzərlərimdən (S.Vurğun). **QABAQGÖRƏN** Xalqın bütün açıqfikirli, *qabaqgörən*, igid və namuslu oğulları... düşmənlərlə öz mübarizəsini daha artıq gücləndirdi(lər) (H.Sarabski); **UZAQGÖRÜCÜ** Onların arasında... *uzaqgörücü* adamlar olmuşdur (M.İbrahimov).

**uzaqgörücü** *bax* uzaqgörən

**1. UZAQLAŞDIRMAQ** [Səlimə:] Soyuq otaq mənə soyuq bir təlqin edir, həyatda gözəl, cazibədar nə varsa məndən *uzaqlaşdırır* (İ.Əfəndiyev). **ARALAŞDIRMAQ** Hatəmxan sağ əli ilə mollanın döşündən yapışaraq bütün gücü ilə onu özündən *aralaşdırmağa* çalışdı (S.Rəhimov); **AYRI SALMAQ** Gəlin çox yormayın sevgilinizi, Fələk *ayrı saldı* deyəsən bizi (S.Vurğun). **DUR ETMƏK** Göz nurudur uyqu, onu *dur etmə* gözündən, Yol vermə məbada çıxa bir an sözündən (M.Ə.Sabir); **MƏN ETMƏK** [Cavad:] Mütəhim olduğumu yazıb bitirmək istəyirdim, lakin nədənsə bir qüvvə məni *mən edir* (A.Şaiq). **SAQINDIRMAQ** [Əbülhəsən bəy:] Bunun müqabilində mən səni iki böyük şərəfsizlikdən və tarixi xəyanətlərdən *saqındırmağa* çalışıram (M.S.Ordubadi); **AYIRMAQ. İRAQLAŞDIRMAQ. KƏNARLAŞDIRMAQ** (*bax*).

**2. uzaqlaşdırmaq** *bax* qovmaq

**UZAQLAŞMAQ** Atlılar... kənddən *uzaqlaşıb* meşəyə doğru getdilər (Ə.Qasımov); **ARALANMAQ** [Davud və Abdulla] klubdan yüz metrə kimi *aralanmışdılar* (H.Abbaszadə); **ARALAŞMAQ, AYRI DÜŞMƏK** *Ayrı düşmüş* vətənimdən, elimdən; Həmdərdimdən *aralanmış* könlümü... (M.V.Vidadi); **ARALI DÜŞMƏK** İstəkli dostumdan *aralı düşdüm* (Aşıq Ələsgər). **AYRILMAQ** Ayna ilə Ayaz küçədə bir-birindən *ayrıldılar* (Ə.Məmmədxanlı); **UZAŞMAQ** Qırıldı, qaçdı, qoymayın; Gözdən *uzaşdı*, qoymayın! (M.Ə.Sabir). **İRAQLAŞMAQ.**

**1. UZANMAQ** Sonra Cavanşir otağa girib elə çəkməli, şalvarlı da çarpayıda *uzandı* (Elçin); **BÖYRÜNÜ YERƏ VURMAQ** (*fr.v.*) *Böyrün yerə vurub* çoban dağ üstə; Hərdən deyir bir yanıqlı şikəstə (A.Səhhət); **DÖŞƏNMƏK** Nizami ...ağacın kölgəsinə *döşənib* axşama kimi yazırdı (M.Hüseyn); **SƏRƏLƏNMƏK** [Mehriban] qapının ağzında yerə *sərələndi* (S.Hüseyn); **SƏRİLMƏK** ..Xasay arxası üstə göy çəmənin üzərində *sərilmişdi* (Ə.Vəliyev).

**2. UZANMAQ** [Çingiz:] Buna "boymədərən" deyirlər, onu kim qoxulasa boyu *uzanır* (B.Bayramov); **BOY ATMAQ** Burda, bu ağacda hər oğlan, hər qız; Bir zaman *boy atıb* bir nər olacaq (S.Vurğun); **ÇAYDAQLAŞMAQ/ÇAYDAQLANMAQ.**

**uzaşmaq** *bax* uzaqlaşmaq

**1. UZUN** [Kəblə Boybala] *uzun* kəhrəba təsbehini çevirə-çevirə Həmidə baxırdı (H.Abbaszadə); **UPUZUN** (*çox uzun*).

**2. UZUN** (*məc.*) (*tez başa gəlməyən*) [Qaraş Mayaya:] ...axı gəlin-qayınana işi *uzun* işdir (M.İbrahimov); **TUL** [Aslan bəy:] Mən sənə kömək etməyə hazıram.. Ancaq *tul* çəkər (N.Vəzirov).

**3. uzun** *bax* uzunboy(lu)

**4. uzun** *bax* sürəkli

**uzunboy(lu)** *bax* ucaboy(lu)

**uzunçu** *bax* naqqal

**uzunçuluq** *bax* naqqallıq

**uzundanışan** *bax* uzunçu

**uzundraz** *bax* ucaboy(lu)

**1. UZUNQULAQ** (*qulaqları uzun olan, bəzən qulaqlı papağa da deyirlər*) [Osmanlı] ...tez *uzunqulaq* papağını çıxardı, boş əlini qulağına apardı (Ə.Kərim); **ÇƏPİŞQULAQ** ...iriburun, yumru çənə, *çəpişqulaq*, alagöz bu oğlanın suyu şirin idi (Ə.Vəliyev); **EŞŞƏKQULAQ** (*rəf.*) [Molla Qafar:] ...Ay *eşşəkqulaq*, qaban baş, heç görmüşən yeriyən daş?.. (S.Vəliyev).

**2. uzunqulaq** *bax* ulaq

I üzücü *bax* üzgücü

II üzücü *bax* yorucu

**üzügülər** *bax* güləryüzlü

**1. ÜZÜK** [Rubabə:] Sərvinaz xanım hərisini verib, qızın barmağına *üzük* taxıb gediblər (H.Abbaszadə); **ƏYRİMÇƏ** (*dial.*) Səksən oxu *əyrimçədən* keçirdim. Heç kamımda arzumanım qalmadı ("Koroğlu"); **HALQA** Gözlərin sanki bu Göy göl kimidir. *Halqa* üstündəki zümrüd kimidir (M.Müşfiq); **XATƏM** (*köhn.*) Barmağında *xatəm*, belində kəmər, Telində güşvarə, düymə tamam zər (Q.Zakir); **BARMAQLIQ.**

**2. üzük** *bax* üzgün

**ÜZÜQARA** Əslində, lap əslində, Zübeydə bu dənizin yanında da *üzüqara* idi (Elçin); **XƏCALƏTLİ** (*bax*)

**üzülmək** *bax* yorulmaq

**ÜZÜM** Nə olar ki, bir səhər qapımızdan girəydin; Uzanıb o kəhrəba *üzümündən* verəydin (M.Rahim); **ƏNGUR** (*kl.əd.*) Nağmə səsini eşitdi *əngur*, Qeyzə gəlib oldu məsrur-məsrur (Füzuli).

**ÜZÜYOLA** Yerli-yersiz yox, ancaq yeri düşəndə fürsəti əldən verməmədən qeyd edirdi ki, əsil olmağın və yaxşı əxlaqın birinci şərti elə budur ki, başıaşağı, *üzüyola* olasan, söz ağızdan çıxan kimi yerinə yetirəsən (M.İbrahimov); **SÖZƏBAXAN** [Sabirov:] O ki qaldı bu iki nəfər işgüzar, *sözəbaxan*, icraçı uşaqlardır (Y.Şirvan); **YÖNLÜ** Ağıllı övlad, *yönlü* bala adamın qalxması üçün on sehrli qanad deyilmi? (S.Rəhimov).

**üzüyuxarı** *bax* ağzıyuxarı

**üz-üzə** *bax* üzbəüz

**üzv** *bax* əza I





# Vv

**vabəstə** *bax* əlaqədar

**vadi** *bax* **1.** dərə; **2.** səhra

**VAHİD, BİR, TƏK, YEGANƏ, YALQIZ** (*bax*)

**1. VAHİDLİK, TƏKLİK**

**2. vahidlik** *bax* birlik 2

**vahimə** *bax* qorxu

**vahimələndirmək** *bax* qorxutmaq I

**vahimələnmək** *bax* qorxmaq

**vahiməli** *bax* qorxulu

**I VAXT** Yalnız ikicə gün *vaxtımız* qalmışdı (M.Hüseyn); **ÇAĞ** (*dial.*) Kölgədə keçmişdir uşaqlıq *çağım*, Ömrümün vahidi oldun, ey çinar (S.Rüstəm); **MƏQAM** Ayrılıq *məqamı* halım pərişan; Qolunu boynuma salan yar hanı (Aşıq Məmməd); **MÖHLƏT** (*dan.*) [Ordu komandanı:] Məncə bir ay *möhlət* kifayətdir.. (M.Hüseyn); **MÜDDƏT** (*bir işin görüldüyü zaman*) Yarış müqaviləsinin *müddəti* oktyabrın 30-da qurtarırdı (M.Hüseyn); **SAAT** .. mən.. bu cansıxan, yarıqaranlıq otaqda *saatlarımı* saya-saya çörəkpulu qazanmalıyam (M.Hüseyn); **VƏDƏ** Şəbanın *vədəsi* tamam oldu.. (Ə.Haqverdiyev); **ZAMAN** Aradan üç aya qədər bir *zaman* keçmişdi (S.Hüseyn).

**2. vaxt** *bax* dövr, çağ I

**3. vaxt** *bax* macal I

**vaxtsız** *bax* gec

**vaqiə** *bax* **1.** yuxugörmə; **2.** hadisə I; əhvalat

**vaqian** *bax* doğrudan

**valeh** *bax* vurğun, məftun

**valehedici** *bax* məftunedici

**VALET, SOLDAT** (*kart oyununda*) [Mehdi bəy:] Qospoda, bu andan bizim aramızdan *valet, soldat* ləfzləri götürülür (S.S.Axundov).

**1. VALİ** (*köhn.*), **VİLAYƏT HAKİMİ**

**2. vali** *bax* qubernator

**valid** *bax* ata

**VALİDEYN, ATA-ANA** [Səfurə:] *Valideyn* övlad üçün fərəh, başucalığı olmalıdır. Uşaq *ata-anasına* baxanda sevinməlidir (H.Abbaszadə); **ƏBƏVEYN** (*kl.əd.*) Hər gün *əbəveyni* şad edirlər; Hörmətlərin izdiyad edirlər (M.Ə.Sabir).

**validə** *bax* ana

**VALLAH, BİLLAH, TALLAH** (*kimisə inandırmaq üçün Allahın adı ilə bağlı and*) [Salman bəy:] *Vallah, billah, tallah* təngə gəlmişəm.. (N.Vəzirov); **ALLAHA AND OLSUN** [Vəli:] *Allaha and olsun*, əgər ayaq geri qoyarsan şeytanın çəkib qarnını tüstü ilə doldurram (M.F.Axundzadə).

**vandal** *bax* vəhşi I

**vandalizm** *bax* vəhşilik

**vandallıq** *bax* vəhşilik

**vanafşa** *bax* fəryad

**vanna** *bax* ləyən

**vapor** *bax* paroxod

**I VAR** [Ağamirsalin] ən böyük məqsədi atasının *varına* yiyələnmək.. idi (A.Şaiq); **DÖVLƏT** Xanın qardaşı oğlu o gün keçdi xanlığa; Əl atdı yamanlığa; Talan etdi sarayın *dövlətini*, varını (B.Vahabzadə); **HAŞAN-KAŞAN** (*məh.*) İmranın *haşan-kaşanı* aşıl daşır (ADDL); **MAL** Divanədirlər *malını* bu yolda qoyanlar (M.Ə.Sabir); **MAL-DÖVLƏT** [Kərim:] Hər şeyiniz var. Mənə *mal-dövlət* lazım deyil. Könül lazımdır (X.Həsilova); **MAL-MÜLK** [Paşa bəy:] Bu qədər cah-calal, ad-san, şan-şöhrət, *mal-mülk* əldən çıxsa dözmək olarmı? (Ə.Vəliyev); **MÜLK** [Hacı Abdulla:] Qızın yaxşı cehizi, *mülkü* və maaşı var (N.Nərimanov); **SƏRVƏT** *Sərvət* gəlsə qəm deyil, *sərvət* gələr yenə də (B.Vahabzadə); **TANQAH** Başı gora əsənlər, yırtmağa tələsənlər; *Tanqahının* üstündə əsim-əsim əsənlər (R.Rza); **TAVANA** Əlində qələmi, ev boş, ev soyuq, Birçə şam almağa *tavanası* yox (B.Vahabzadə); **VAR-DÖVLƏT** [Gülsənəm:] Kişi gecə-gündüz əlləşir, ..*var-dövlətini* göz bəbəyi kimi qoruyur (M.Hüseyn); **VARİYYAT** Molla sonbeşik Salehdən hərı başdan xeyli

**YUXULU** (*yatmış halda*) Kəramət uşaqlarını ancaq yatdıqları yerdə, *yuxulu* olduqları halda oxşayar, öpərdi (Ə.Əbülhəsən); **UYQULU** (*köhn.*) Dideyi-bəxtim oyanmaz, nə ağır *uyqu1udur* (Füzuli).

**YUXUSUZ** (*yatmadan*) [Səfə:] Yazıq *yuxusuz* idi, anıma gəldi.. (S.Rəhimov); **BİXAB** (*kl.əd.*) Bu Xətayi gözü səyyarətək *bixabdır* (Xətayi); **UYQUSUZ** Bəzimiz uyqulu, bəzimiz *uyqusuz*.. (M.Müşfiq).

**I YUMAQ** (*paltar və s. haqqında*) Paltarı *yuyub* qurtaranda ananın ürəyinə birdən qəribə bir həvəs gəldi.. (M.İbrahimov); **SUYA ÇƏKMƏK** (*ikinci dəfə yumaq*) Güləbətin köynəyi təpçiyib yerinə qoyaraq anasına kömək edirdi: yuyulmuş paltarları *suya çəkib* həyətin ortasından asılmış ipə sərirdi (M.İbrahimov); **YAXALAMAQ** (*yüngülvari yumaq*).

**II YUMAQ** (*top kimi sarınmış sap*) Yerdən bir qara *yumaq*, bir də quru budaq kölgəsi (R.Rza); **KƏLƏF** ..bir şüşə sirkə, biriki *kələf* yezd ipliyi, bir pud ağ neft.. (Ə.Haqverdiyev).

**YUMMAQ** (*göz haqqında*) Aslan yorğanı başına çəkdi, gözlərini bərk-bərk *yumdu* (M.Hüseyn); **QAPAMAQ.**

**yumru** *bax* **1.** girdə 1; **2.** toluq

**yumşaq** *bax* **1.** həlim; **2.** mülayim 1

**yumşaqxasiyyətli** *bax* həlim

**yumşaqlıq** *bax* həlimlik

**yumşalmaq** *bax* həlimləşmək

**YUMULMAQ** (*müxtəlif mənalarda: əsasən göz haqqında*) Əvvəlcə [Güləbətinin] gözləri *yumulmağa* başladı (M.İbrahimov); **QAPANMAQ** Elə bil düşdüyü bəlanı qanır; Yenidən gözləri yenə *qapanır* (A.Səhhət).

**yunusbalığı** *bax* delfin

**yurd** *bax* vətən

**I. YUVA** Bir quş səhər ertə bağça-bağda; Çör-çöp daşıyıb *yuva* tikirdi (A.Şaiq); **AŞİYAN(Ə)** (*kl.əd., şair*) Bülbüli-zarəm ki, hüsnün gülşənidir məskənim; Həlqeyi-zülfin şikənci *aşiyanımdır* mənim (Xətayi); **LANƏ** (*kl.əd.*) Ölər, qalar bir-iki viranəsi; O da olar bayquşlar *lanəsi* (A.Səhhət); **MƏVA** (*kl.əd., məc.*) Həm gözəl, həm yeyin tik ruhumun *məvasını;* Əldən-ayaqdan düşən qəlbimin sevdasını (M.Müşfiq).

**2. yuva** *bax* vətən

**yuvaraq** *bax* girdə 1

**YUYUNMAQ** Müsafirlər frençlərini çıxarıb, *yuyunmağa* başladılar (Çəmənzəminli); **YIXANMAQ** Gündəki vaxtında yatağından durdu, *yıxanıb* qurtaran kimi qapı açıldı (M.S.Ordubadi); **ÇİMMƏK** (*bax*), **ƏL-ÜZÜNÜ YUMAQ, YAXALANMAQ** (*dan.*).

**1. YÜK** (*daşınmaq, aparılmaq üçün hər cür şey*) [Yasavul:] Ağa, murov bir qaçaqçı da *yük* ilə tutub göndəriblər (M.F.Axundzadə); **BAQAJ** [Gülpəri] ..yaxındakı və *baqajdakı* şeyləri daşıyıb, ikinci klas salonunda yığdırdı (S.S.Axundov); **BAR** (*kl.əd.*) Ğəmü möhnət yükün yoxdur cahanda çəkməyən, əmma; Şikəstə Zakirin çərxi-fələk *barın* giran tutmuş (Q.Zakir).

**2. YÜK, AĞIRLIQ, HƏML**

**3. yük** *bax* qayğı 1

**yükçü** *bax* hambal

**yükdaşıyan** *bax* hambal

**YÜKLƏMƏK** (*dalına yük vurmaq*) Mağıl keçən vaxtlar dəvə karvanları düşürdü yola, ticarət malını *yükləyirdik* dəvələrə (C.Məmmədquluzadə); **ÇATMAQ** Hər birinə ağır taylar *çatdılar;* Bizləyə-bizləyə köçə qatdılar (Q.Zakir).

**yüksək** *bax* **1.** uca 1; **2.** ülvi 1

**yüksəliş** *bax* tərəqqi

**yüksəlmək** *bax* ucalmaq

**yüksəltmək** *bax* ucaltmaq

**yüngülayaq** *bax* xoşqədəm(li)

**yüyürmək** *bax* qaçmaq 1

**yüyürük** *bax* beşik

**yüzillik** *bax* əsr 1





# Zz

**ZABİT** (*orduda və donanmada komanda heyətinə mənsub olan şəxs*) [Heybət:] *Zabitlər* əsgərləri döyüb söyürlər (S.Rəhimov); **ƏFSƏR** (*köhn.*) Gözəl-gözəl xanımlar *əfsərlərlə* qol-qola verib gəzirdilər və söhbət edirdilər (Ə.Haqverdiyev).

**zabitə** *bax* **1.** intizam 1; **2.** nüfuz

**zabitəli** *bax* **1.** tələbkar 1; **2.** intizamlı

**zabitəsiz** *bax* intizamsız

**zad** *bax* şey

**ZADƏGAN** (*hakim sinfin yüksək təbəqəsi*) Çünki Bağdadda dul qadınlar və öz ərlərindən intiqam almaq istəyən *zadəgan* qadınların görüb istədikləri adamlarla tanış olaraq evlərinə dəvət etməsini Fəxrəddin hələ Gəncədə ikən eşitmişdi (M.S.Ordubadi); **ARİSTOKRAT** Siz bugünkü başı yarılan, lakin başının deyil, beş şahlıq qətığın qeydinə qalan baqqalı, bir də zabitə yaltaqlanan şəhər *aristokratını* misal götürə bilərsiniz (M.S.Ordubadi); **DVORYAN** (*tar.*) Bəylər, ağalar, *dvoryanlar* hamısı ikiqat olub gələnlərə baş əyirlər (Ə.Haqverdiyev); **ƏSİLZADƏ** (*köhn.*) [Smirnov:] Siz *əsilzadəsinizmi?* (M.S.Ordubadi); **ƏYAN** (*köhn.*) Məktublar dalbadal axdı saraya; *Əyanlar* aldılar xanı araya (B.Vahabzadə); **KÜBAR** (*köhn.*) [Müdir:] Bağdad *kübarlarının* hərəmxanalarında mütləq məzhəkəçi qızlardan olmalıdır (M.S.Ordubadi); **AĞA** (*bax*).

**zağa** *bax* mağara

**zahid** *bax* **1.** ibadətçi; **2.** guşənişin

**zahir** *bax* **1.** aşkar; **2.** parlaq; **3.** görünüş

**ZAL** Baxır *zala*, salona; Nə o bilir, nə də biz; bu baxış nə baxışdı (Z.Yaqub); **SALON** *Salon* heyrət içindədir... Sükut edir başdanbaşa (S.Vurğun).

**ZALIM** [Tağı:] Bərədər, mən deyəndə ki, .. padşah *zalım* idi, onun zamanında dədəm yazığın köynəyinin boynu barmaq qalınlığında çirk bağlamışdı, siz nə dediz? (M.İbrahimov); **ALLAHSIZ** (*məc., dan.*) Sonra da "*allahsızın*" biridir. Cəbrayıl xəbər gətirib ki, qanı halaldır – deyirdilər (M.İbrahimov); **AMANSIZ** Sinəmdə yer salıb o gündən bəri; *Amansız* ovçunun yara izləri (M.Rahim); **BAŞKƏSƏN** (*dan.*) [Əjdər:] O biri tərəfdən, deyir, cavan, bığıburma sağlam oğlandır, gəl ki, *başkəsəndir* (Anar); **BİMƏRHƏMƏT** *Bimərhəmət* oyanlarına şükr, xudaya! Bu sahibi-milyonlarına şükr, xudaya! (M.Ə.Sabir); **BİRƏHM** [Cabbar bəy:] Əhməd bəy, bilmirsən necə zalımdırlar, *birəhmdirlər*... (N.Vəzirov); **CƏFAKAR** Yox böylə iki dilli, yaman üzlü *cəfakar;* Bir zərrə utanmaz (M.Ə.Sabir); **CƏLLAD** (*məc.*) [Rüstəm:] Gəl bu *cəlladın* qapısından uzaqlaşaq (A.Şaiq); **ƏZAZİL** [Səslər:] Deyirlər Zəki müəllim *əzazildir* (Anar); **ƏZRAİL** (*məc.*) [Qurban:] Amma onu çox *əzrail* arvad söyləyirlər (Ə.Haqverdiyev); **XUNXAR** (*kl.əd.*) *Xunxar* olan əfradi-bəni-növünə daim; Bu vəhşiyü ğurranlarına şükr, xudaya! (M.Ə.Sabir); **İMANSIZ** (*məc.*) [Yunis:] ..o, Yaqutun anası necə *imansız* arvaddır... (Ə.Məmmədxanlı); **İNSAFSIZ** *İnsafsız*, avam bir adam olan əmim arvadı iri mis səhəngi çiyninə verib səhərdən axşama qədər... mənə su daşıtdırardı (İ.Əfəndiyev); **QANİÇƏN** [Nüşabə:] Heç inanmaq olarmı bu *qaniçənə?* (A.Şaiq); **QANSIZ** (*məc.*) Nə *qansız* adamsan, a kişi! (Mir Cəlal); **QƏDDAR** [Səlimə:] Ən *qəddar* insanların da qəlbində vicdan əzabı doğuran bir dühə məharətdən məhrum ola bilməzdi... (M.Hüseyn); **MƏRHƏMƏTSİZ** [Səlməz:] Sus, Altun bəy, *mərhəmətsiz!* (C.Cabbarlı); **MÜSTƏBİD** (*köhn.*) İbrahim xan da *müstəbid* idi, xalqa olmazın zülm edirdi.. (Çəmənzəminli); **RƏHMSİZ** [Muxtar:] Ana da təkcə balasına bu qədər *rəhmsiz* olarmı? (B.Bayramov); **SİTƏMKAR** [Hacı Qəmbər:] Əlavə mən deyirəm ki, özizim, qoy gedim bu tiği-*sitəmkarı* oxladırım (N.Vəzirov); **YAMAN** Dostuna dost, düş-

**ZİYANLI** (*müxtəlif mənalarda*) Mən onun qəsdən *ziyanlı* bir addım atdığına inanmıram (M.Hüseyn); **MÜZÜR** Hələ bəziləri [Nasəd əfəndinin] alçaq, *müzür* bir şəxsiyyət olduğunu söyləyirdilər (S.Hüseyn); **ZƏRƏRLİ** [Alp Arslan:] Mən paytaxtı *zərərli* ünsürlərdən təmizlədiyim zaman Qətibəni də oğlunun yanına, Rey şəhərinə göndərmişdim (M.S.Ordubadi); **ZİYANKAR** [Kərim baba:] ...qara buludu görürsünüzmü? Çox *ziyankar* buluddur (A.Şaiq); **XƏTƏRLİ, ZİYANVERƏN.**

**ZİYANSIZ, ZƏRƏRSİZ** (*zərəri, ziyanı olmayan*)

**ziyanverən** *bax* ziyanverici, ziyanlı

**ZİYANVERİCİ(LƏR)** Onu deyim ki, tarlalarımızdan əl-ayaq çəkilən kimi torpağı ikiyaruslu kotanla 38–40 santimetr dərinlikdə şumlamağı, beləliklə torpaqda qalan pambıq *ziyanvericilərini* məhv etməyi nəzərdə tutmuşuq (Qəzetlərdən); **ZƏRƏRVERİCİ(LƏR)** *Zərərvericilərə* qarşı mübarizə işini isə daim nəzarət altında saxlamışıq (Qəzetlərdən); **ZİYANÇI** (*dan.*) [Pərviz:] Yaman *ziyançıdır*, bunu harada gördünüz, məhv edin! (M.İbrahimov); **ZİYANƏVƏR** *Ziyanəvər* tülkü xain oğrudur, Öldür, dua elər ərsiz qarılar (M.Rahim); **ZİYANKAR** [Bəhlul:] Yox, xəlifə, mən ədalət və həqiqət aşiqiyəm, kim olursa olsun, əyriləri, *ziyankarları* islah etməyə çalışıram (A.Şaiq); **ZİYANVERƏN** Abşeronda çoxdan kökü kəsilmiş canavar, tülkü, çaqqal kimi *ziyanverən* heyvanlar haradansa peyda olub (M.Rzaquluzadə)

**ziyarət** *bax* ibadət 1

**ziyarətçi** *bax* zəvvar

**ZİYARƏTGAH** (*ziyarət yeri*) Hörmət eləmədim bir şahənşaha; Məzarın döndüsə *ziyarətgaha* (M.Rahim); **ZİYARƏTXANA** Ortada böyük günbəzə oxşayan bir *ziyarətxana* tikmişdilər (M.Hüseyn)

**ziyarətxana** *bax* ziyarətgah

**ZİYİLOTU, DƏMROVOTU** (*bot.*) *Ziyilotu* və ya *dəmrovotu* köhnə daş divarlarda meşə kənarlarında, əkinlərdə və zibilli yerlərdə bitən və narıncı süd şirəsi olan çoxillik otdur (M.Qasımov)

**zoğ** *bax* fidan

**zoqquldamaq** *bax* 1. ağrımaq; 2. inildəmək

**zoqqultu** *bax* sancı

**zolaqlı** *bax* zolaq-zolaq

**ZOLAQ-ZOLAQ** (*zolaqlar şəklində*) [Zeynal] *zolaq-zolaq* xəstəxana pijamasının yaxası altında yavaş-yavaş barmaqlarını tərpədi (B.Bayramov); **MİLƏMİL** Özbək qardaş "Raxmat, raxmat" deyə-deyə *miləmil* xələti onun çiyninə saldı (Ə.Babayeva); **MİL-MİL** ...Şahpələng bahalı şal parçadan *mil-mil* qara şalvarı onun üstünə atdı (M.İbrahimov); **ZOLAQLI** Əziz çimmək paltarında uzanıb başını qırmızı *zolaqlı* çətirin kölgəsində gizlədərək bədənini günə vermişdi (H.Abbaszadə); **ZOL-ZOL** [Aytəmiz:] Dərsdən gələn kimi dəlixana paltarına oxşayan *zol-zol* şalvarı geyirsən əyninə, əlinə bir kitab alıb yayılırsan divanın üstünə (Ə.Qasımov).

**zollamaq** *bax* vurmaq 1

**zol-zol** *bax* zolaq-zolaq

**zontik** *bax* çətir

**ZOOPARK** (*heyvanlara məxsus zooloji bağ*) Atası Musanı *zooparka* aparmışdı (S.Vəliyev); **HEYVANXANA** [Qənbay:] Mən heyvanları çox sevirəm, hər gün *heyvanxanaya*, sirkə getsəm, yenə doymaram (A.Şaiq). **HEYVANAT PARKI, ZOOLOJİ PARK.**

**zor** *bax* 1. güc; 2. məcburiyyət

**zorakı** *bax* zorla

**ZORAKILIQ, TƏCAVÜZ, TƏZYİQ**

**zorba** *bax* böyük 1

**zorbalaşmaq** *bax* yekəlmək

**zorbalıq** *bax* böyüklük 1

**zor-bala** *bax* zorla

**zor-güc** *bax* zorla





**ZORLA** Adilə dilinin ucuna gəlmiş "heç siz də görünmürsünüz" sözlərin *zorla* saxladı (Ə.Qasımov); **ZORAKI** [Qubernator:] Budur, kişinin mülkünü *zorakı* saldırıb öz adına ki, nə var, iş bilmişəm... (C.Cabbarlı); **ZOR-BƏLA İLƏ** Universitetə qızıl medalla gəlmiş Camalla Mahirə *zor-bəla ilə* kafi, Kamil isə əla qiymətlər aldı (Y.Şirvan); **ZOR-GÜC** Kamil müəllim sinfi *zor-güc* sakit etdi... (A.Şaiq).

**1. ZORLAMAQ, MƏCBUR ETMƏK, VADAR ETMƏK**

**2. ZORLAMAQ, BAŞINA PİSLİK GƏTİRMƏK, NAMUSUNA TƏCAVÜZ ETMƏK, NAMUSUNA TOXUNMAQ**

**3. ZORLAMAQ, GÜC ELƏMƏK, GÜC GƏLMƏK**

**zöhr** *bax* günorta

**zöhrə** *bax* Venera

**zökəm** *bax* qrip

**zövc** *bax* ər 1

**zövcə** *bax* arvad 1

**zövq** *bax* 1. kef 1; 2. gözəllik; 3. ləzzət 1

**zövq-səfa** *bax* kef 1

**zövraq** *bax* qayıq

**zülf** *bax* saç 1

**zülm** *bax* əzab

**zülmət** *bax* qaranlıq 1

**zülmətli** *bax* qaranlıq

**zülmkar** *bax* zalım

**zülmkarlıq** *bax* zalımlıq

**zümrə** *bax* silk

**zümrüd** *bax* simurq

**züriyyət** *bax* 1. nəsil 1; 2. övlad 1

## MÜNDƏRİCAT

*Ön söz* . . . . . 5
*Lüğətin quruluşu* . . . . . 7
*Şərti ixtisarlar* . . . . . 9

**Aa** . . . . . 11
**Bb** . . . . . 37
**Cc** . . . . . 64
**Çç** . . . . . 73
**Dd** . . . . . 85
**Ee** . . . . . 111
**Əə** . . . . . 115
**Ff** . . . . . 131
**Gg** . . . . . 139
**Hh** . . . . . 153
**Xx** . . . . . 172
**Iı** . . . . . 185
**Jj** . . . . . 201
**Kk** . . . . . 202
**Qq** . . . . . 216
**Ll** . . . . . 240
**Mm** . . . . . 246
**Nn** . . . . . 275
**Oo** . . . . . 288
**Öö** . . . . . 293
**Pp** . . . . . 298
**Rr** . . . . . 309
**Ss** . . . . . 315
**Şş** . . . . . 343
**Tt** . . . . . 354
**Uu** . . . . . 376
**Üü** . . . . . 382
**Vv** . . . . . 387
**Yy** . . . . . 396
**Zz** . . . . . 413



**AZƏRBAYCAN DİLİNİN SİNONİMLƏR LÜĞƏTİ**

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 13.12.2006. Çapa imzalanmışdır 15.05.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26,5. Ofset çap üsulu.
Tirajı 10000. Sifariş 65.

DÜST 5773-90, DÜST 4.482-87

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.